Azərbaycan Milli Konservatoriyasının doktorantı,
Azərbaycan Dövlət Akademik Opera Balet Teatrının solisti,
Respublika İncəsənət Gimnaziyasının xanəndəlik ixtisası üzrə müəllimi

QAVAL İFAÇILIĞININ TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ ÜSULLARI

Xülasə: *Qaval sənəti tədris prosesində müəllim tərəfindən şagirdlərə lazımınca izah edilmədikdə, müəyyən problemlər yaranır ki, bu da gələcək də onların peşəkar ifaçılığına xələl gətirən əsas amillərdən olur. Bu məqsədlə məqalədə qaval ifaçılığına dair etik, estetik, praktiki məsələlərin şagirdlər üçün düzgün aşılanması əsas şərtlərdəndir. Fikrimizcə şagirdlərə təkcə muğamları deyil, həm də qaval ifaçılıq sənətini düzgün öyrətmək - onların professional ifaçı olmaqları üçün zəmin yarada bilər.*

Açar sözlər: *Qaval ifaçılığı, qaval ifaçılığında yenilik, müəllim, şagird, təcrübə, tədris, muğamlar, sənət, xanəndə*

Айтен МАГЕРРАМОВА
Докторант АНК,
Солистка Азербайджанского Государственного
Академического Театра оперы и балета,
Преподаватель Республиканской Гимназии Искусств по специальности ханенделик

ПРОБЛЕМЫ, ВСТРЕЧАЮЩИЕ ПРИ ОБУЧЕНИИ ИСПОЛНЕНИЮ КАВАЛ, И МЕТОДЫ ИХ РЕШЕНИЯ

Аннотация: *Недостаточное привитие в процессе обучения необходимых навыков искусства игры на kавале будущим исполнителям мугама, способствует возникновению определенных проблем, наносящих вред их профессиональной деятельности в будущем. Для этого в статье одним из основных условий является правильное привитие учащимся этических, эстетических и практических норм игры на kавале.*

Ключевые слова: *игра на kавале, инновации в игра на kавале, учитель, ученик, опыт, преподавание, мугамы, искусство, ханенде*

Ayten MAHARRAMOVA
Doctoral student of AMK,
Soloist of the Azerbaijan State Academic Opera and Ballet Theater,
Teacher of the Republic of Arts Gymnasium majoring in khanate

PROBLEMS ENCOUNTERED IN THE TEACHING OF GAVAL PERFORMANCE AND THEIR SOLUTION METHODS

Abstract: *If the teacher does not properly explain the art of gaval to the students in the teaching process, certain problems arise, which is one of the main factors that harm their professional performance in the future. For this purpose, in the article, the correct inculcation of ethical, aesthetic and practical issues of gaval playing for students is one of the main conditions. In our opinion, teaching students not only mughams, but also gaval playing correctly will create the foundation for them to become professional performers.*

Keywords: *Gaval playing, innovation in gaval, teacher, student, experience, teaching, mughams, art, xanende*

Xanəndəlik sənəti qədim ustad ənənələrinə əsaslanaraq nəsildən-nəslə şifahi şəkildə ötürülən bir sənətdir. Bu baxımından xanəndələr ustadlarından muğamın sirlərini öyrənərək onların xələflərinə

çevrilirlər və qazandıqları təcrübi bilikləri öz yaradıcılıqlarında daha da zənginləşdirirlər. Xanəndəlik sənəti dedikdə ilk növbədə vokal-instrumental muğam ifaçılığı nəzərdə tutulur.

Xanəndəlik sənətinin təşəkkülünü orta əsrin musiqi elmi və klassik poeziyanın intibahı ilə sıx əlaqədardır. Azərbaycanda bu sənət XVIII-XIX əsrlərdə daha da inkişaf etmiş, xüsusən Qarabağ, Abşeron, Şirvan, Gəncə və digər mədəni iqtisadi mərkəzlərdə musiqi və muğam ifaçılığı sənətini təkmilləşdirən mühitlər – musiqi məclisləri və məktəbləri meydana gəlir. XIX əsrin II yarısından sonra demək olar ki, Azərbaycanın bütün şəhərlərində musiqişünaslar məclisi, dərnəklər, musiqi salonları yaranmağa başlayır. Bu musiqi məclislərində ədəbiyyata, rəssamlığa və musiqi sənətinə dair maraqlı söhbətlər aparılır.

Xanəndə dərslərinin təşkil olunması məsələsi XX əsrin sonunda da XIX əsrdəki klassik ənənələrin demək olar ki, təkrarıdır. Tədrisin təşkilinin əsasında öyrədən ustadın fəaliyyəti dayanır. Tələbə öz müəllimindən fərdi şəkildə şifahi ənənələr əsasında dərs alır. Ustad ənənələrinin mənimsənilməsi canlı şəkildə həyata keçirilir. Müəllim və şagirdin üzbəüz oturaraq, müəllimin oxuduğunu şagirdin təkrarlanması şəklində həyata keçirilən bu tədris xanəndəlik sənətini təhsilinin bütün pillələrində demək olar ki, eyni şəkildə həyata keçirilir

Xanəndəlik sənətinin tədrisində qədim dövrlərdə olduğu kimi, bu gün də ustadların ənənələrinin mənimsənilməsi böyük əhəmiyyətə malikdir. Hər bir gənc ifaçı müəllimin – ustadın rəhbərliyi altında formalaşır, sənətin sirlərini öyrənir, təkmilləşir. Bu ənənə bütün dövrlərdə mövcud olmuşdur. Muğam sənətində inkişafın əsasını da ustad-şagird zəminində ötürülmə təşkil edir. Lakin müasir dövrümüzdə muğamların tədrisi qədim ənənələrdən bir qədər seçilərək xüsusi metodik tövsiyələr və tədris planlarına uyğun aparılmalıdır. Qeyd edək ki, ilk dəfə "Muğam" fənni 1922-ci ildən etibarən Azərbaycan Dövlət Konservatoriyasında tədris olunmağa başlamışdır. 1925-ci ildən dahi Ü.Hacıbəylinin rəhbərliyi ilə yaranmış "Muğam komissiyası"nın I iclasını keçirərək on dəstgahdan ibarət ilk muğam proqramı qəbul edilmişdir (16, s.190). Zamanla tədris planları dəyişərək dövrün tələblərinə uyğun yazılmışdır.

30-cu illərdə Ə.Bakıxanov musiqi məktəbləri üçün, həm də orta ixtisas musiqi texnikumları üçün tədris proqramını qurur. Eləcə də, istedadlı tarzən Kamil Əhmədovun orta pilləli təhsil sistemi üçün yazdığı proqram əsasında 1982-ci ildə Vidadi Xəlilov "Muğamların tədrisinə dair metodik tövsiyələr" kitabını tərtib edir. Tədris planına dair S.Ağayevin, N.Kazımovun, S.Ələsgərovun S.Quliyevin, O.Rəcəbovun, F.Sadıqovun və bir sıra başqa pedaqoqların muğam tədrisi ilə bağlı yazdıqları dərsliklər, tədris planları əlbəttə ki, təqdirəlayiqdir. Bununla belə adları sadalanan müəlliflərin metodik tövsiyələrinə əsaslanaraq qaval ifaçılıq sənətinə dair xüsusi bir metodik tövsiyənin də ərsəyə gəlməsinə zənnimizcə lüzum duyulur.

Məlumdur ki, muğamların da vokal-instrumental şəkildə ifasının əsasını məhz muğam üçlüyü təşkil edir. Muğam üçlüyündə həm xanəndənin, həm də tar və kamança ifaçısının üzərinə düşən məsuliyyət heç də az deyil. Bu baxımdan hər musiqiçinin öz ifa partiyası, xüsusilə xanəndənin ifası mühüm əhəmiyyət kəsb edir. Çünki tarzən də, kamançaçı da özündən başqa ansamblın digər üzvlərinin ifasına diqqət etməlidirlər. Yəni xanəndə muğam üçlüyündə yeganə ifaçıdır ki, iki mövqedən - xanəndə və sazəndə rollarında çıxış edir. Bu da onun ansambldakı yerini xüsusilə əhəmiyyətli edir. Eləcə də, xanəndə məharətlə qavalda (dəf) ifa etməli, ritmik nəbzini düzgün tutmalı və öz ifası ilə estetik baxımdan gözəl təəssürat yaratmalıdır. Qaval muğam sənətində olduqca önəmli yer tutan alətlərdən biridir.

Qaval aləti haqqında tanınmış musiqişünas və alətşünas alim Səadət Abdullayevanın kitabda qeyd edilir ki, "Qaval Şərq ölkələrində bubenə bənzəyən Azərbaycanın ən qədim zərb alətidir. Qaval bəzi rayonlarda "dəf" adı ilə də tanınır" [3, s.84].

Qaval birüzlü zərb alətləri qrupuna aiddir. Qaval bütövlükdə membranlı alət olsa da, onun idiofonlu alətlərə məxsus əlamətləri də vardır. Onun sağanağından asılmış metal halqalar, bəzi hallarda dörd kiçik zınqırov, silkələnərək təkrarolunmaz səs tembri yaradır. Orta əsrlərdə, əsasən, saray musiqi məclislərində istifadə edilmişdir. Qaval Üzeyir Hacıbəyov tərəfindən xalq çalğı alətləri orkestrinin tərkibinə əsas alət kimi daxil edilmiş, onun ilk not partiyasını da bəstəkar özü yazmışdır.

Səadət Abdullayeva qavalın ifaçılığına dair həmçinin belə qeyd edir: "Qavalı 2 əllə, içəri tərəfini ifaçıya çevrilmiş şəkildə saxlayırlar. Bu zaman sağanağın kənarı əllərin baş barmaqlarına söykənir. Səslər hər iki əlin ovucları və barmaqları ilə üzün kənarına və ya mərkəzinə yüngül vurmaqla, aləti silkələməklə

əldə edilir. Qaval həm sazəndə ansambllarında muğam dəstgahların, zərbi muğamların ritmik epizodlarını müşayiət edərək müstəqil rol oynayır, həm də xalq məişətində, adət və ənənələr bağlı səhnələrdə nümayiş edilir, xalq oyun tamaşalarında səslənir, simli və nəfəsli alətlərin akkompanementi üçün istifadə edilir" [3, s.85].

Bu alətdə trel, tremola, mordent və başqa çalarlar almaq mümkündür. Rəng, dəraməd, təsnif və zərbi muğamların üçlük tərəfindən ifası zamanı qavalın məxsusi rolu var. Qavalda çalğı improvizasiya xarakteri daşıyır. Qaval həm Xalq Çalğı Orkestrinin tərkibində, həm də rəqqasələr tərəfindən atribut kimi istifadə edilir.

Bəzən belə bir yanlış fikir formalaşır ki, xanəndə ifası zamanı müşayiətçilər onun ritm məsələsini tənzimləyir və xanəndələr qavalı çala bilmədikləri üçün onu aksesuar kimi istifadə edirlər. Lakin tədris zamanı qavalda çalıb-oxumaq bacarığını formalaşdırmaq ifaçının yaradıcılıq yolunun uğurlu olmasında əsas amillərindən biridir. Çünki qavalda ifa etməklə xanəndə həm çalınan ritmə düşməli və həm də oxuyarkən ritmdən çıxmamalıdır. Qaval ifaçılığının əsasını xanəndə üçün məhz ritmin duyulması məsələləri təşkil edir. Qaval ifasının bir neçə vacib funksiyası vardır:

1. Qavalın düzgün ifası muğam dəstgahını əvvəldən sona kimi ritmik cəhətdən tənzimləyir
2. Tamaşaçıların əhval-ruhiyyəsinin yüksəldir və ifaya olan marağı artırır
3. Estetik baxımdan zövq verir
4. Xanəndənin həyəcanını azaldır və xanəndə də özünə qarşı əminlik, özgüvənlilik hissini artırır
5. Psixoloji yorğunluğu aradan qaldırır
6. Müşayiətçilərlə musiqili-ritmik dialoq qurur
7. Xanəndəyə ansamblın bir üzvü kimi digər alətlərin ifaçıları arasında qarşılıqlı anlaşma, bir növ körpü yaradır
8. Xanəndənin peşəkarlığını artırır

Zənnimizcə, qaval ifaçılığı sənətinə dair xüsusilə diqqətlə yanaşmaq lazımdır. Çünki, qaval ifaçılığı sənəti tədris prosesi zamanı özündə təcrübi əhəmiyyəti kəsb edən geniş bir mövzudur. Bu sənət xanəndənin peşəkarlığından xəbər verir. Təsadüfi deyil ki, Xan Şuşinski, Alim Qasımov muğam sənətində həm də mahir qaval ifaçıları kimi də tanınırlar. Eləcə də, Mahmud Salah kimi məşhur qaval ifaçısının adını xüsusilə qeyd edə bilərik. Belə ki, Mahmud Salah çağdaş qaval ifaçılıq sənətində öz metodoloji baxışları, təcrübələri ilə bu sənətin inkişafında mühüm rol oynamışdır.

Qaval sənəti ilə bağlı tədris prosesində bir neçə yanlışlıqlar vardır. Bir çox musiqi məktəblərinin müəllimləri düşünür ki, xanəndəlik təhsilinin əsasən muğam dəstgahları təşkil edir. Onların fikrincə xanəndələrin qaval sənətinin peşəkarlığına yiyələnmələri ali məktəblərə qəbul olduqdan sonra da məqbuldur. Lakin bu yanlış metodika gənc xanəndələrin peşəkar kimi formalaşmasını ləngidir, bəzən də ruhdan salır. Bu baxımdan şagirdlərin qaval ifaçılığının tədrisində dair qarşıya çıxan problemlərini görmək və onları metodoloji baxımdan düzgün həll etmək məsələləri müəllimin əsas vəzifələrindəndir. Qavalın əldə doğru tutulması, ifası, eləcə də düzgün tədris metodları aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Qaval ifaçılıq sənətini şagirdə düzgün aşılamaq və bu sənəti sevdirmək

İlk olaraq qeyd etmək lazımdır ki, qaval ifaçılıq sənəti altı yaşından yuxarı hər bir şagirdə öyrədilə bilər. Burada yaş həddi heç bir maniyə yaratmır. Xanəndə ifaçılığında önəm daşıyan ritm duyumu məsələsi hər zaman aktual mövzu olmuşdur. Bu baxımdan bəzi pedaqoqlar hesab edir ki, şagirdin və ya tələbənin ritm duyumuna malik olması xüsusi qabiliyyət olub ilahi vergidir. Lakin ritmik duyumu zəif olan xanəndələrə qaval ifaçılıq sənətinə müəllim əsl peşəkar yanaşma ilə öyrədə bilərsə o, tələbəsini bu ciddi problemdən xilas edə bilər. Hesab edirəm ki, müəllim xanəndəlik və qaval ifaçılıq sənətini şagirdə paralel sevdirməli və öyrətməlidir. Bunun üçün müəllim aşağıdakı metodlara üz tutmalıdır

1. Müəllim ilk olaraq özü gözəl qaval çalaraq şagirdində xanəndəlik sənətinə dair maraq oyatmalıdır. Daha sonra peşəkar xanəndə və qaval ifaçılarından bəhs etməli və onların sənətə verdikləri töhfələrdən danışmalıdır
2. Müəllim şagirdini bəhs etdikləri sənətkarların müxtəlif video ifaları tanış etməlidir. Qavalın tədrisinin uğurlu olmasını təmin etmək üçün köməkçi metod kimi nümayiş etdirmək və video

metodundan istifadə etmək çox təqdirəlayiqdir. Məlumdur ki, nümayiş mövzunun şüurlu şəkildə başa düşülməsinə kömək edir. Bu təkcə nümayiş deyil. Müəllim özü qavalda lazım olan ritm parçasını ifa edərək əyani şəkildə nümayiş etdirmiş olur. Şagirdin gördüyü prosesi yadında saxlaması üçün müəllimin ifası, videosu, yaxud özünün çox sevdiyi ustad sənətkarlardan hər hansı video yazılarında mövcud qaval ifasının təkrar izlənməsidir. Beləliklə, həm göz, həm qulaq yaddaşının köməyilə tədris materialının qavranılması daha intensiv olur.

3. Müəllim şagirdini müxtəlif muğam konsertlərinə, tədbirlərinə aparmalıdır
4. Peşəkar xanəndələr haqqında onların sənətlərinə aid maraqlı əhvalatlar danışmalıdır
5. Müəllim şagirdə böyük stimul verməli və onlarda inam yaratmalıdır

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, qaval alətinin tədrisi zənnimizcə təkcə xanəndəlik sənəti üçün deyil, həm də bəstəkar yaradıcılığı üçün də önəmlidir. Qavalın estetik keyfiyyətləri və bu sənətin gözəlliyi bəstəkar yaradıcılığında da məxsusi yer alır. Məsələn, "Koroğlu" operasının IV pərdəsindən "Xanəndə qızın mahnısı", Rüfət Ramazanovun kamera orkestri, fleyta, violonçel və qaval üçün "Diringi" pyesi, klarnet, skripka və qaval üçün "Tərzi-muğam" miniatürləri bəstəkar yaradıcılığı üçün maraqlı axtarışlardan sayıla bilər.

2.Dərsin düzgün təşkili metodları

Qaval dərslərinin öyrədilməsi zamanı dərs ilk olaraq fərdi şəkildə keçirilməlidir. Növbəti mərhələlərdə dərs prosesi zamanı bir neçə tələbənin dərs otağında olması düzgün yanaşmadır. Sinif otağının dairə formasında hazırlanması, şagirdlərin bu formada əyləşməsi, hamının diqqətini müəllimə yönəlməsi və ritmin ifasına eyni zamanda bərabər şəkildə başlanılıb davam edilməsi daha məqsədəuyğun olardı. Kollektiv ifa tələbələrin həm müəllimi, həm özlərini, həm də yoldaşlarını eşitməsinə yardımçı olur. Ümumi ahəngi qoruyaraq ritmdən çıxmamağa çalışmaq lazımdır. Şagirdlər püxtələşəndən sonra onları ansambl və orkestr ilə ifa etməyə yönləndirmək olar.

3.Qaval ifaçılıq sənətində etik davranışlar və estetik məsələlər

Qaval ifaçılıq sənətində etik davranışlar və estetik məsələlər olduqca vacibdir. Müəllim çox vaxt şagirdə ustad xanəndələrin ifası ilə tanış edir. Bəzən eyni muğam müxtəlif musiqiçilərin ifasında özünəməxsus yeni çalarlar, melizmlər, improvizələr, variantlar öz əksini tapır. Çünki bir çox korifey sənətkarlar, istər xanəndə, istərsə də sazəndələr vaxtaşırı öz ifalarına yeni nəfəs, yeni cümlə, yeni qəzəl, mahnı, təsnif, rəng əlavə etməklə yeni ecazkar musiqi nümunələri yaradırlar. Müəllim şagirdləri ustad sənətkarların gətirdiyi bu kimi yeniliklərlə tanış etməli və onlarda maraq oyatmalıdır. Şagird kumiri hesab etdiyi ustad sənətkarının eyni zamanda yaxşı qaval ifaçısı olduğunu bildikdə ona bənzəmək üçün müxtəlif cəhdlər edir. Onlar bu yolla ustad sənətkarları sanki təqlid edirlər. Əlbəttə bu başlanğıc üçün müəyyən qədər yaxşı nəticədir. Çünki şagird peşəkar sənətkarın ifa bacarıqlarını özündə əxz edə bilir. Lakin təqlidetmə çərçivədən çıxmamalıdır. İfrat dərəcəsində ustad sənətkarların ifasını təqlidetmə şagirdin gələcəkdə öz ifa dəsti-xətti ilə formalaşmasına sədd çəkə bilər. Bu həm də qeyri-etik davranış sayıla bilər.

Qaval ifası zamanı estetik məsələlərə də riayət etmək vacibdir. Məsələn, ifa zamanı musiqiyə uyğun üz mimikası əsas görüntü olduğuna görə həm xanəndə, həm də tar, kamança ifaçıları artıq, yüngül hərəkətlərdən uzaq olmaları, səhnə mədəniyyəti qaydalarına, səhnədə geyim formasına (klassik və ya müasir) diqqət yetirməlidir;

Bu punkt bir etik davranışlarla da sıx əlaqəlidir. Belə ki, bəzən şagird təkcə ifa manerası ilə deyil, həm də duruşu, davranışı, qaval ifası ilə də təqlidetməyə yol verir. Bu davranışlara şagird uzun müddət yol verdikdə bir növ vərdiş halını ala bilər. Belə nüanslar gələcəkdə estetik baxımdan heç də xoş təəssürat yaratmır. Çünki ola bilir ki, gənc xanəndə xarici görkəminə görə səhnəyə çox uyğundur, lakin sevdiyi bir korifey sənətkarı büsbütün təqlid etməsi onun həm də səhnə görkəminə xələl gətirir. Məsələn, xanəndə Əhliman Cəbrayıllı oxuma tərzi ilə Qədir Rüstəmovu, bəzən isə qavalı tutması, oturuşu-duruşu, davranışı ilə Yaqub Məmmədovu xatırladır. Əlbəttə, ustad sənətkarlardan örnək götürmək yaxşı keyfiyyətdir, lakin ifrat həddinə vararaq təqlidetmə zənnimizcə sənətdə etik və estetik baxımdan ciddi qüsurdur.

Qaval ifaçılıq sənətinə xanəndə düzgün yiyələnməyəndə ritmik cəhətdən öz-özünü və ansamblı doğru müşayiət edə bilmir, bəzən özünü itirir, davranışlarında müəyyən boşluqlara yol verir. Bu kimi

cəhətlər muğam estetikasında yabançı amillər kimi öz əksini tapır. Qaval ifaçılıq sənətində oxuma ilə ritmik müşayiət mütləq uyğun gəlməlidir. Qaval sənəti ritmik məsələlərə görə muğam dərsinin tərkibindən kənarda da tədris oluna bilər. Çünki ritm-insan nəbzi, həyat tərzidir. Ritmik dəqiqlik həm də insan orqanizmin, insan beyninin sağlam inkişafından xəbər verir.

4. Qaval sənətində ifaçılığa dair ritmik məşğələlərin üsulları

1.Qaval ifaçılığı təliminin səmərəli olması üçün əyani olaraq dərsə zərb aləti ifaçılarını dəvət etmək olar. Şagirdlər ritmin sayını, ölçüsünü diqqətlə izləmiş və hafizələrinə yazmış olurlar. Kiçik yaşlarında xanəndə sinfində təhsil alan şagirdlər arasında ritmlə problemi olanlar bu məsələnin həlli üçün müəyyən zaman müddətində zərb alətləri dərslərində iştirak etməsini də təmin etmək olar. Məlumdur ki, bacarıqlar çoxlu sayda məşqlər nəticəsində formalaşır və vərdişə çevrilir.

2. Professional müəllimlər öz dərslərinin təşkilində istifadə etdikləri əməkdaşlıq prinsipiylə bir çox maneələri aradan qaldırmış olur. Burada əsas diqqət şagirdin düşdüyü xoşagəlməz vəziyyətdən çıxartmaq, onun pərtliyini, narahatlığını duymaq və şagird şəxsiyyətini təhqir etmədən onunla əməkdaşlıq etməkdən ibarətdir. Bir neçə dəfə ritmə düşməyən, ritmdən kənara çıxan şagirdin digərləri tərəfindən gülüş obyekti olmaqdan qurtarmağa çalışmalı, dəfələrlə uğursuz cəhddən sonra şagirddə yaranan özünəinamsızlıq hissini, qavaldan qorxmaq onu əlinə götürməmək istəyini aradan qaldırmaq üçün onunla xüsusi söhbət aparmalı, belə problemləri olub sonradan mahir ifaçı kimi tanınan gənc xanəndələr, ustad sənətkarlarla bağlı nümunələr çəkməli, şagirddə nikbinlik ruhunu qaldırmalıdır.

3.Hər bir müəllim ritmlərin öyrədilməsində diqqətli olmalı, hər dərsin materialını digərləri ilə əlaqələndirməyi bacarmalı, şagirddə mövzuyla bağlı zəruri olan bilik, bacarıq və vərdişlərin aktuallaşması üçün şərait yaratmalı, hər yeni mövzuda keçmiş dərsin təkrar etməli, lazım gəldikdə müxtəlif texniki vasitələrdən istifadə etməyi bacarmalıdır. Əsas köməkçi vasitə şagirddə mövzunu öyrənməyə motivasiyanın yaradılmasıdır.

4.Qaval ifaçılıq sənətinə dair bir müəllim kimi elmi-metodik yeniliyim bundan ibarətdir ki, mən bütün zərbi (ritmik) muğamların qavalda ritmik formullarını düstur şəklinə salaraq şagirdlərimə aşılamağı bacarmışam. Tələbələrim üçün yaradılan həmin düsturların təcrübi əhəmiyyəti kimi istədiyim nəticələri ən qısa zamanda əldə etmişəm. Ən zəif ritmik duyumu olan şagirddən tutmuş ən istedadlı şagirdimə kimi bu təcrübədən yararlanaraq gözəl nəticələr göstəriblər.

Məsələn, nəzəriyyəmzə əsasən qavalda ilk toxunuş, yəni qüvvətli təktə giriş sayılan Es formulu – A, Akt gedişi - B, qavalda çırtma texnikası – C hərfləri ilə işarə edilmişdir. 6/8 ölçüsünə əsaslanan ritmik muğamlar A+C+BB+C düsturu kimi qəbul edilə bilər. Demək olar ki, bütün zərbi muğamlar bu məqalənin müəllifi tərəfindən düstur halına salınmışdır. Bəzi zərbi muğamların düstur formulunu təqdim edək:

Səmayi -Şəms	**Arazbarı**	**Kəsmə şikəstə**
A+BC+BB+C	A+BC+BC+A+BC+BC+A+BC+BC+BB+C+BB+C	A+BC+BB+C

Bu düsturlardan yararlanan hər bir şagird ən qısa zaman çərçivəsində qaval ifaçılıq sənətinə düzgün yiyələnə bilərlər.

5.Qavalın kollektiv şəkildə təlim olunması prosesində müəllim hər bir şagirdə ayrı-ayrılıqda diqqət yetirməli, onun nədə müvəffəqiyyət qazanıb, nədə çətinlik çəkdiyini, səhvə yol verdiyini izləməlidir. Belə bir nəzarət olmadan sonrakı addımda müvəffəqiyyət qazanmaq mümkün deyil. Eyni zamanda bir nəfərin etdiyi səhvə görə ifanı dayandırıb hamını yenidən başdan başlaması həm materialın yaxşı mənimsənilməsinə, həm də səhv edən şagirdin məsuliyyət hissini artıraraq, diqqətini ifasına yönəltməsinə yardım etmiş olur.

6. Tədrisin əsasında dayanan ikinci yol şagirdlərin müəllimlərin dərs zamanı lentə yazılmış səs yazılarının dinləməsidir. Burada şagirdin öz sənətinə münasibəti formalaşır. O təkcə müəlliminin səsiylə kifayətlənməyib, öyrəndiyi şöbəyə guşələri ayrı-ayrı xanəndələrin ifasında dinləyib müəllimindən aldığı biliyi təkmilləşdirsə müsbət nəticələr əldə edə bilər.

Məsələn, "Muğam üçlüyü" fənninin tədrisində səslər arxivində olan muğam ifaçılarının - Cabbar Qaryağdıoğlunun, Məşədi Məmməd Fərzəliyevin, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Zülfü Adıgözəlovun, Mütəllim Mütəllimovun, Yaqub Məmmədovun, Hacıbaba Hüseynovun, Nəriman Əliyevin, Arif Babayevin, Əlibaba Məmmədovun, Canəli Əkbərovun, Ağaxan Abdullayevin, Alim Qasımovun və başqa ifaçıların təfsirində muğamları, zərbi-muğamları, təsnifləri dinləyib, klassik poeziyanı və elmi ədəbiyyatı mütaliə etməli, muğamları araşdırıb, təhlil və tətbiq etməlidir.

Yekun olaraq mövzumuza dair bildirməliyik ki, müasir dövrümüzdə muğam sənəti eləcə də, qaval ifaçılıq sənətinə təkcə bir ənənə kimi baxmamalıyıq, həm də bu sənətin vacibliyinin fərqinə varmalıyıq. Məhz buna görə də, biz bu sənəti dərin araşdırmalı, aşınmalardan qorumalı, milli mədəniyyətimizi özünümüdafiə vasitəsinə çevirməliyik.

ƏDƏBİYYAT:

1. Abudəliyev A. Muğamların tədqiqi və tədrisinə töhfə. // 525-ci qəzet.- 2013.- 5 iyul.- S.7.
2. Abdullayeva S. A. Azərbaycan xalq çalğı alətləri. B.: Adiloğlu, 2002, 454 s.
3. Abdullayeva S. A.Azərbaycan xalq çalğı alətləri dünyanı valeh edir. B.: Nurlar, 2016, 288 s.
4. Atakişiyeva, K.Ə. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı. – Bakı: Elm və təhsil, – 2020. – 136 s.
5. Bağırova, S.Y. Azərbaycan muğamı: tədqiqatlar, məqalələr, məruzələr. – Bakı: Elm, – c.1, – 2007. – 243 s.
6. Bağırova, S.Y. Azərbaycan muğamı: tədqiqatlar, məqalələr, məruzələr. – Bakı: Elm, – c.2, – 2007. – 265 s.
7. Üzeyir Hacıbəyov Ensiklopediyası / Red.heyəti: E.Abasova, F.Abdullazadə və b. – Bakı: Şərq-Qərb, – 2007. – 262 s.
8. Həsənova, C.İ. Dəstgah formasının müxtəlif təfsirləri – Azərbaycan bəstəkarlarının yaradıcılığı timsalında // "Muğam Aləmi" Beynəlxalq elmi simpoziumunun materialları, – Bakı: Şərq-Qərb, – 2015, – s.131-145.
9. İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları. – Bakı: İşıq, – 1984. –100 s.
10. İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər.– Bakı: Elm, –1991. – 118 s.
11. Musazadə R. M. Muğam sənətinin inkişafında tədqiqat işlərinin və layihələrinin rolu. Konservatoriya jurnalı №3 (29), B.: Ecoprint, 2015, s.21-27
12. Muğam ensiklopediyası . Bakı: H.Əliyev Fondu, – 2010. – 216 s.
13. Nəcəfzadə A. İ. Çalğı alətlərimiz. B.: Min bir mahnı, Adiloğlu, 2004, 128 s.
14. Orxanbəyli, O. Tar tədrisinin metodikası. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971. 80 s.
15. 15.Kazımov N.K. Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri. B.: Çaşıoğlu, 2000, 98 s.
16. Zöhrabov R.F. Muğam. B.: Azərnəşr, 1991, 220 s.

Rus dilində

17. Абасова, Э.А. Мугам и азербайджанский симфонизм // Абасова, Э.А, 18.Мамедов Н.Г. Музыкальная трибуна Азии. – Москва: Советский композитор, – 1975. – с.10-36.
18. Кунанбаева, А.Б. Проблема казахской эпической традиции: / Автореферат диссертации кандидата искусствоведения / Ленинград, 1984. – 25 с.
19. Кулиев А.Н. Принципы контрастности в музыкальной драматургии азербайджанского мугама // Материалы II Международного Симпозиума Мугам, Баку: Шярг-Гярб, – 2011. – с. 68-74.

Notlar:

20. Əsədullayev, A.V. İnstrumental muğamlar [Notlar] / – Bakı: Adiloğlu, – 2009. – 168 s.
21. Məmmədli, Ə.M. Azərbaycan muğamları [Notlar] / – Bakı: Azərbaycan, – 2010. – 328 s.

İlxas MƏMMƏDOV
AMEA-nın doktorantı
Paris Karnatik konservatoriyasının tələbəsi

KARNATİK MUSİQİ TƏDRİSİNDƏ PRAKTİK MƏŞQLƏRİN ƏSAS PRİNSİPLƏRİ VƏ AZƏRBAYCAN MUĞAM TƏDRİSİ İLƏ MÜQAYİSƏSİ.

Xülasə: *Yarandığı dövrdən günümüzə qədər Şərqdə şifahi ənənəli musiqinin əsasını təşkil edən muğam və raqa musiqisi zəngin metodologiyaya malikdir. Muğam və raqanın tərifində qeyd olunan "şifahi ənənəli musiqi" ifadəsi, metodoloji aspektdən bu iki əsrarəngiz musiqinin ən böyük ortaq cəhətini ifadə edir. Ustad-şagird münasibətində formalaşan muğam və raqa tədrisi əsrlər boyu unikal metodlarla səciyyələnmişdir. Muğam və raqanın öz tədrisi bir çox ortaq və fərqli cəhətlərlə seçilir. Bu araşdırmanın əsas istiqaməti isə raqa və muğam tədrisində vokal-instrumental ifaçılığın texniki inkişafını təmin edən praktik məşqlər və bir növ hazırlıq məşqlərini qarşılıqlı təhlil etməkdir. Qarşılıqlı təhlil nəticəsində pedaqoqlar, musiqişünaslar, musiqiçilər tərəfindən bu mövzu daha çox araşdırılma aparılarsa fikrimcə həm muğam həm də raqa musiqisi məşq sistemində yeniliklər qaçılmazdır.*

Açar sözlər: *praktik məşqlər, tədris, muğam, raqa, karnatik musiqisi*

Ilkhas MAMMADOV
Ph.D candidate of Azerbaijan National Sciences of Academy,
student of Carnatic Conservatory of Paris

THE MAIN PRINCIPLES OF PRACTICAL EXERCISES IN TEACHING CARNATIC MUSIC AND COMPARISON WITH AZERBAIJANI MUGHAM TEACHING

Abstract: *Mugham and raga music, which form the basis of oral traditional music in the East from its inception until today, have a rich methodology. The phrase "oral traditional music" mentioned in the definition of mugham and raga means the greatest commonality of these two mysterious musics from a methodological point of view. The teaching of mugham and raga, formed in the "ustad-shagird" relationship, has been characterized by unique methods for centuries. There are many similarities and differences in teaching mugham and raga music. The main direction of this research is the mutual analysis of practical exercises and a kind of preparatory exercises that ensure the technical development of vocal-instrumental performance in raga and mugham teaching. As a result of mutual analysis, if this topic is investigated more by musicologists, musicians, I think that innovations in both mugham and raga music training system are inevitable.*

Keywords: *practical exercises, teaching, mugham, raga, carnatic music*

Düzgün məşq sistemi inkişafın təməl prinsiplərindəndir. Musiqi məşqi haqqında önəmli sitatlardan biri dünyaca məşhur musiqiçi Lui Armstronqa aiddir: "Mən bir gün məşq etməyəndə özüm bilirəm, iki gün məşq etməyəndə tənqidçilər bunu bilir, üç gün məşq etməyəndə isə hər kəs bilir" [6]. Lui Armstronq məşq haqqında dediyi bu fikir hər zaman pedaqoqların əsas istinad nöqtəsi olmuşdur. Bəs bu yanaşma muğam və raqa tədrisində özünü hansı formada və necə göstərir? Hansı metodoloji prinsiplərlə praktik məşqlərin hər iki musiqi üçün ortaq və fərqli cəhətlərini tədqiq edərək, bu xüsusda yeniliklərə yol aça bilərik?

Klassik hind musiqisinin iki əsas hissədən ibarətdir. Şimali Hindistanda Hindustani, Cənubi Hindistanda Karnatik adlanan klassik hind musiqisi bir çox oxşarlıqlarına rəğmən əsrlər boyu öz spesifik məktəblərini yaratmış və inkişaf etdirmişlər. Onu da qeyd etmək lazımdırki, altı min illik qədim tarixə malik Vedalarda qeyd olunan raqalardan başlayaraq on dördüncü əsrə qədər hind modal musiqisi vahid bir sistemə tabe idi. Təhsil aldığım Paris Karnatik konservatoriyasının sayəsində məqalədə raqa metodologiyasını məhz Karnatik musiqi sisteminə istinadən izah etmək istərdim.

Qədim hind musiqisində ustad-şagird və yaxud quru-şagird münasibətində tədris olunan şifahi ənənəli raqa musiqisində hər zaman məşq çalışmaları metodikanın əsas istiqamətlərindən hesab olunmuşdur. Tarixən məşq proqramları müəllimlərin individual yanaşmalarına əsaslandığına görə sistemli şəkildə icra olunmamışdır. Karnatik musiqisinin atası hesab olunan görkəmli bəstəkar, musiqiçi Purandara Dasa təxminən 500 il əvvəl bir sıra məşq proqramı tərtib etmişdir [5, səh.10]. Bu proqram günümüzdə Karnatik musiqisində fundamental xarakter daşımaqla yanaşı bir çox musiqişunasların, ifaçıların da yeni məşq proqramları tərtib etməyinə vəsilə olaraq tədrisin ayrılmaz hissəsinə çevrilmişdir. Bu fundamental ardıcıllıqlar tələbəyə melodiyanı ritmlə hiss etmək imkanı verir. Raqa musiqisində ritmin əhəmiyyəti ilk məşqlərdən özünü göstərir. Belə ki, qeyd olunan bütün çalışmaları ritmin üç sürətində ifa olunması şərtdir. Hind musiqisində ritmin sürətləri dedikdə ilk ifa olunan temp hər üç variantda sabit qalaraq, yalnız ifa olunan ritm və ya musiqi cümləsi birinci sürətdə yəni çərək, ikinci surətdə səkkizlik, üçüncü sürətdə isə onaltılıq notlarla ifa olunur. Hətta bəzi virtuoz ifaçılar tərəfindən ritmin dördüncü sürəti də improvizasiyalar zamanı ifa olunur. Məşqlər ritmik cəhətdən tədrisin ilk mərhələsində "adi tala"-da yəni 8 ölçüdə ifa olunur. Təbii ki, ifaçı öz ritm bacarıqlarını inkişaf etdirmək üçün təqdim olunan çalışmaları istənilən ölçüyə tətbiq edərək özünü inkişaf etdirə bilər. Onu da qeyd etmək lazımdır ki, Purandara Dasanın praktik məşq proqramı vokal ifayla yanaşı instrumental ifa üçün də tətbiq olunduğundan öz unikallığını bir daha sübut edir:

Sarali varasey.

Birinci varişai - raqa notlarının düzgün şəkildə qalxması və enməsidir. Yəni ifa olunan raqanın oktava çərçivəsində tonikadan tonikaya doğru ifa edərək yenidən başlanğıc tonikaya qayıtması nəzərdə tutulur. Burada əsasən raqanın "aroha" (yoxuş) və "avaroha" -ya (eniş) daxil olan notları tələbə üçün bir daha aydınlaşır. İlk dərslərdə bütün çalışmalar Mayamalavaqovla raqasıyla tədris olunduğundan nümunə olaraq "arohanam" və "avarohanam" məhz həmən raqayla qeyd olunur. Qeyd etmək istərdim ki, Mayamalavaqovla raqası Azərbaycan muğamlarından Cahargahla eyni səs düzümünə malikdir.



İkinci varasay – Sa-dan yuxarı və aşağı istiqamətdə özündən ikinci not üzərində cəmlənir, yəni Re və Ni notlarına doğru.

s r s r | s r | g m || s r g m | p d | n s |
s n s n | s n | d p || s n d p | m g | r s ||

Üçüncü varisai – burada isə Sa – dan yuxarı və aşağı istiqamətdə üçüncü nota doğru əlaqələnərək aşağıdakı qaydada ifa olunur.

s r g s | r g | s r g m | p d | n s ||
s n d s | n d | s n || s n d p | m g r s ||

Bu qayda ilə yeddinci varisaiyə qədər davam edir.

Canta varasay.

Burada tələbələrə məşq "spuritam" adlı qamaka ilə, yəni xüsusi texnika ilə öyrədilir. İlk baxışdan bu texnika bir notu iki dəfə oxumaq kimi görünsə də, burada əsas qayda hər notun təkrarını ondan öncəki notdan başlayaraq ifa olunmasıdır. İkinci qayda isə həmən təkrarı nisbətən qüvvətli formada, daha doğrusu xüsusi vurğu ilə ifa olunmasıdır. Bu qayda Sa notundan başlayaraq ardıcıl olaraq bütün notlarda ritmin 3 sürətində ifa olunur [1].

ss rr gg mm | pp dd nn ss || ss nn dd pp | mm gg rr ss ||

Burada təqdim olunan ilk nümunədən sonra isə hər bir notla eyni qayda üzrə digər kombinasiyalar da ifa olunur :

ss rr gg mm | rr gg mm pp ||
gg mm pp dd | mm pp dd nn ||
pp dd nn ss | ss nn dd pp ||
nn dd pp mm | dd pp mm gg ||
pp mm gg rr | mm gg rr ss ||

Datu varasey

Bu texniki məşq ilə tələbənin notlar üzərindəki hakimiyyəti artır və onları daha səlis ifa etməyə imkan verir. Datu varaseydə notların ziqzaq şəkildə ifası tələb olunur. Əgər biz notları gözümüzün önündə canlandırsaq burada Sa – dan başlayaraq yuxarı və aşağı doğru hərəkət edərək ziqzaqvari hərəkəti görə bilərik. Bu məşğələ ifaçılıqda manevr qabiliyyətinin inkişafı üçün çox əhəmiyyətlidir.



s m g m | r g | s r || s g r g | s r | g m ||
r p m p | g m | r g || r m g m | r g | m p ||
g d p d | m p | g m || g p m p | g m | p d ||
m n d n | p d | m p || m d p d | m p | d n ||
p s n s | d n | p d || p n d n | p d | n s || *(ixtisarla)*

Qeyd olunan Karnatik musiqisinə xas praktik məşqlərlə yanaşı hind musiqisinin digər əsas məktəbi olan Hindustani musiqisi tədrisində də məşq sistemi xüsusi yer tutmaqdadır. Hindustani musiqisində onu də qeyd etmək lazımdır ki sistematik məşq proqramları "Riyaz" adlanır. Hindustani musiqisi də həm ritmik həm də sərbəst şəkildə ifa olunan yüzlərlə notlaşdırılmış məşq proqramlarına malikdir. Bunun əsas səbəbi isə riyaz məşq sisteminin bir neçə aspektdən məşq çalışmaları ilə zəngin olmasıdır. Bu xüsusda hər hansı bir raqaya aid olan spesifik məşqlərlə yanaşı sırf notlara istiqamətlənmiş çalışmalar da qeyd edilir. Buna misal olaraq Hindustani musiqisindən piramida şəkilli məşqi qeyd etmək istərdim. Xromatik qayda ilə ifa olunan bu məşqdə notların gedişatı xəyali olaraq piramidanı gözümüzün önündə canlandırır. Hər hansı bir raqaya aid olmasa da, musiqiçiyə ifaya başlamazdan öncə yaxşı bir hazırlıq kimi təsir edən bu tapşırıq nəinki bir oktava, ifaçıdan aslı olaraq bir neçə oktavanı belə əhatə edə bilər. Bu çalışmanın ifası piramidanın sol başlangıcında göstərilən Sa notu ilə başlayaraq növbəti nota yəni R_1-ə istiqamətlənərək yenidən S notuna yəni piramidanın sol oturacağındakı sa notuyla tamamlanır. Eyni qayda ilə S-dan başlayaraq R_2 -yə, yenidən S notuna qayıdır,sonra S-dan başlayıb G_1 notuna, ardınca Sa notuna qayıdaraq bütün notların xromatik ifasıyla davam edir. İstər vokal, istərsə də instrumental ifaçılar üçün səslər arasında intervalları mükəmməl şəkildə ifadə edən piramidavari məşq özünəməxsusluğu ilə seçilir:



Şifahi ənənəli muğam modal musiqisi zəngin mədəniyyətlərin tərənnümüdür. Azərbaycan muğamları quruluşu, məqamı, not sistemindəki mövqeyi, milli koloriti və melodik baxımdan şərq xalqlarının muğamları arasında xüsusi yer tutur [4, səh.9]. Azərbaycan musiqişünaslığının dühası Səfiyyəddin Ürməvinin risalələlərində muğamların xarakteristikasını, quruluşunu və bir çox aspektlərdən izahatı, muğam tədrisi üçün əsas sütunu yaratmışdır. İnkar edilməz həqiqətdir ki, XX əsrdə milli musiqi mədəniyyəti özünün yeni inkişaf mərhələsini, sözün əsil mənasında intibah dövrünü yaşadı [3. səh.13] Məhz bu inkişafın əsas müəllifi dahi Üzeyir Hacıbəylinin gördüyü işlər nəticəsində Azərbaycan musiqisi qərb musiqisinə inteqrasiya edərək, öz inkişafını yeni mərhələyə daşımışdır.

Bu inkişaf Azərbaycan muğam ifaçılığına da sirayət edərək tədris proqramlarında öz əksini tapmışdır. Xüsusilə də tar və kamança ifaçılarının ixtisas dərslərində xarici bəstəkarların əsərlərini ifa etməsi bilavasitə onların muğam ifaçılığında da özünü müsbət tərəfdən göstərir. Tədrisdə məhz muğama dair praktik məşqlər və çalışmalar isə ustad-şagird münasibətində müəllimin fərdi yanaşması ilə səciyyələnir. Milli alətlərimizin tədrisində öyrədilən qamma məşqləri əslində bir nov raqa musiqisində aroha və avarohananın üstünlük təşkil etdiyi praktik məşqlərlə müqayisə oluna bilər. Hər iksində ladın pillələri ilə tanışlıq ön planda dayanır. Ancaq burada başlıca fərq ondadır kı, hər nə qədər raqa praktik məşqləri ilə Azərbaycan musiqi tədrisində olan qərb yönümlü qamma, etüd kimi nümunələr tələbələrə aşılansa da bu proses musiqi məktəblərindən sonra dayanır. Məşq prosesi isə hər zaman musiqiçiyə daha da çətinləşən sistem kimi lazımdır. Vahid məşq sistemi olduqda burada muğam vokal ifaçısı xanəndə və tar, kamança, balaban, qanun kimi instrumental ifaçılar eyni məşqlər sayəsində muğam improvizasiyası zamanı bir-biriylə deyişmə şəklində ifalarını daha güclü davam etdirəcəklər. Hind musiqisində praktik məşqlərə ən yaxın nümunə kimi biz muğam etüdlərini qeyd edə bilərik. Üzeyir Hacıbəylinin redaktorluğu ilə 1943-cü ildə dərc olunan Adil Gərayın "Tar üçün muğam etüdləri" bu kontekstdə Azərbaycan muğamı adına ən yaxın nümunədir. Burada hind praktik məşqləri ilə fərqli gördüyümüz ilk amil qərb not sisteminə xas olan cəhətlərin üstünlük təşkil etməsidir. Bu etüdlər muğama xas olan manevrləri özündə birləşdirməsiylə eynən hind musiqisindəki kimi tələbəyə muğama adoptasiya olunmağa şərait yaradır. Adil Gəray burada muğamlarımızın əsas ifaçılıq xüsusiyyətlərinə xas olan cəhətlərlə yanaşı onun hər bir şöbəsini etüdləşdirərək muğam ifaçılığına yenilik gətirmişdir. Təqdim olunan Rast muğamına dair etüddə sadalanan amillər ehtiva olunur.



Musiqidə məşqin önəmi tək raqa və muğam musiqisində deyil, bir çox janrların əsas qayəsini təşkil etməkdədir. Qeyd olunan hind musiqisindəki praktik məşqlər isə şifahi ənənəli modal musiqidə tətbiq olunan sistemli və yüksək improvizasiyaya təkan verən örnəkdir. Hətta caz musiqi ifaçılarının hind musiqisiylə tanışlığından sonra caz etüdlərində, məşqlərində biz hind praktik məşqlərindən bənzərlikləri müşahidə edə bilərik. Bu təcrübədən Azərbaycan muğamı adına faydalanmaq fikrimcə yeni bir mərhələ hesab olunacaq. Adil Gərayın "Muğam etüdləri" vəsaiti muğam məşq sisteminin köklü şəkildə inkişaf etdirmək üçün bu yolda təməl başlanğıc hesab olunmalıdır. Həm bu prinsip ilə həm də raqa məşğələləri prinsiplərindən də bəhrələnməklə muğam ifaçılığımızda daha bir aspektdən inkişafına səbəb olacaqdır. Muğam məşq proqramı musiqi məktəblərindən ali məktəblərə kimi asan səviyyədən çətin səviyyəyə qədər müvafiq qaydada tətbiq olunarsa muğam ifaçılarımızın həm texniki, həm improvizasiya imkanlarının inkişafına böyük töhfə verəcəkdir. Dahi bəstəkarımız Ü.Hacıbəyli də muğam sənətinə böyük qiymət verərək belə yazırdı: "Mən şəxsən inanmışam ki, biz Azərbaycan muğam musiqisini intensiv şəkildə işləməklə muğam incəsənətini ən yüksək səviyyəyə qaldıra bilərik" [2, səh.111].

ƏDƏBİYYAT:

1.Bhavana Pradyumna -"Approach to music: the Indian way" . Paris, 2020
2.Hacıbəyov Ü.Ə. Musiqidə xalqçılıq. Revolyusiya və kultura jurnalı, 1939, №5
3.Hüseynova L.Ş. Azərbaycan Bəstəkarlar İttifaqı: Böyük yolun tarixi. Bakı, "E.L.", 2010,480s.
4.Nəcəfzadə A. İ., Məmmədəliyev V.M. Muğam. Dərs vəsaiti, Bakı, "Ecoprint", 2017,160s.
5. Ravikiran N. - Perfecting Carnatic music India-2012. Səh.10
https://www.larmstrongsoc.org/quotes

Bhavana PRADYUMNA
Email: president@carnaticconservatoryofparis.com
Address: 117, Boulevard Murat, Paris 75016

INDIAN CLASSICAL CARNATIC MUSIC

Pedagogy and Evolution of teaching methodology

Indian Raga

1. Modern methods and systems of teaching mugham and related traditional genres of modal music, practiced both in the native environment and abroad.

In our time, professional education in mugham art and related musical traditions is mainly carried out in specialized educational institutions such as universities, conservatories, academies, and others. In different countries, the systems and methods used in the training of performers vary. What are these systems and methods like? How long have they been used, and how effective are they in the professional development of young musicians? What are the shortcomings of formal education, if any? What is the role of old performing schools and performing styles of the acclaimed masters (ustads) in modern systems of formal musical education?

Today, ethnic music has gone beyond the boundaries of its traditional distribution area. Often, it is studied and performed by representatives of other cultures, learning from carriers of their musical traditions. How authentic and in line with the real requirements of professionalism are the results of such education?

Forms

Indian learning system and Indian traditional music, specifically Carnatic Music is one of the oldest living forms of the Music in the world. Indian traditional music exists in numerous forms like classical music- Carnatic Music and Hindustani Music- both Vocal and Instrumental forms, folk music- Every region within every state exhibits rich traditions of Vocal and Instrumental forms. Prosaic traditions mixed with Musical story telling (Like Hari katha, Nama sankeerthana, Parayana) is practiced in traditional theatres, etc. It has a history spanning several millennia.

Traditional Approach to teaching

Music education was predominantly through a Guru or a teacher. Who is a Guru? "Gu means ignorance, and Ru means dispeller," hence, **Guru is the one who "dispels ignorance, all kinds of ignorance**". In this system of Indian traditional education, the shishya/student would stay with his or her guru, in their hermitage to get the education as a true learner.

Guru Shishya Parampara tradition denotes a succession/lineage of teachers and disciples continuing the age-old knowledge system.

Upanishads or Vedanta, the knowledge placed right after the Vedas- the oldest scriptures of Sanatana Dharma, literally means *"upa"* (near), *"ni"* (down) and *"śad"* (to sit) — meaning "sitting down near" a spiritual teacher to receive the knowledge.

The traditional music art form was received, preserved, and transmitted orally from one generation to another. Ancient Indians developed techniques for listening, memorization and recitation of their knowledge, in schools called Gurukula, while maintaining exceptional accuracy of their knowledge across the generations. The student learnt different forms of knowledge orally without writing down or documenting in any form.

Each Guru had their own style called the Sampradaaya or Baani. A “gharana” (literally meaning "extended family") is a school of music. Often distinguished by style and mode of thought, they usually have the same style followed by both vocalists and instrumentalists. They have usually been founded by

famous musicians. Musical traditions have been passed on orally and musical skills have often been taught from parent to child or teacher to pupil. The relationship between teachers (known as "pandits" and "gurus" in Indian languages and "ustaad" in languages with Persian influence) and their pupils is very important in Indian music. Teachers and pupils share a special bond with the student developing unwavering faith in the Guru and the Guru showers all the knowledge that he/she knows to the shishya to uphold and continue the Parampara / Tradition. The spiritual element of the approach to music is as important as the technical virtuosity. Gurukula system was a residential schooling system whose origin dates to around 5000 BC in the Indian subcontinents. It was more prevalent during the Vedic age where students were taught various subjects including arts, sports, life skills along with how to live a cultured and disciplined life. Gurukula was the home of teacher or Acharya and was the center of learning where pupils resided till their education got complete. This tradition of learning allowed the seekers/students to develop excellent memory power. The brain would be attuned to learning in one go, as the guru may not repeat the lesson. Students would be alert, conscious, calm, disciplined, committed and most of the time would possess very good memory. Without the aid of any voice recordings, videos, or written documents / notations, it was the focused learning ability of a student, the advanced teaching methodology of a Guru, and the commitment of a seeker of knowledge to the process of gaining knowledge is what made the learning possible. This retained the highest quality as well. The shortcoming was that the entire learning was person dependent, and a lot of knowledge, process, and methodology was lost in the due course of time, because of missing documentation. In the extreme traditional interpretation, documentation represents degradation of ability to learn with single focus. A degradation, where there is a need for the disciple to depend on something other than the interaction with a teacher and the learning experience with a teacher, to practice and master a certain teaching. The inability to listen, focus, grasp, recall, practice, reproduce completely, the teachings of a Guru, the inability to have clarity, to contemplate, to improvise, to challenge the teachings in the spirit of understanding the greater spiritual and philosophical dimensions of a certain learning, is augmented with documentation of knowledge. While standardized documentation in many different forms (Written, Recordings.), helps to preserve knowledge, makes it available for a much greater population, and removes the dependency on a Guru to learn a certain piece, the lack of a validation and real time feedback on the learning may lead to degradation of quality.

Pedagogy

The history of Indian music can be traced to 200 BC - 400 BC - when Bharatha Muni, a Musicologist, wrote down a foundational theory of Music (and dance and drama) called "Natya shastra'. Under this system:

There were 22 notes in an octave. Primitive elements of 'taala' or meter were also identified. The concept of 'sruti' was introduced to allow people to choose a convenient reference 'root' pitch based on the singers'/musicians' convenience. A set of 'bhavas' (or expressions) and 'rasas' (the evoked feelings) were identifed. A musical grammar theorized which of these 22 notes for any chosen 'sruti' will sound in harmony or in dissonance with the sruti.

Using these grammatical rules, primitive recipes called 'ragas' were formed each specifically designed to evoke one of the 'rasas' (or combinations thereof). These 'raga' recipes would comprise a chosen set of notes from the 22 total available notes. The ragas also evolved to prescribe many other details - such as how to transition from one note to another while ascending (arohana) and descending (avarohana) or what 'phrases' are quick formulae to evoke what specific complex derivative rasas. Thus, with the formation of Natya shastra, the known formal Indian system of music was set in motion. It is important to keep in mind that around this period India was a place of prosperity that welcomed travelers from across the world. Music kept evolving, organically as new cultures were met and assimilated.

Between 12th Century AD and 16th Century AD, Carnatic music flourished under the patronage of Vijayanagara empire. It is at this time, that what was until then a free-flowing expression, found a need for formal structure, to achieve standardization and scale that was required at the time. 15th century composer Purandara Dasa, fondly called as 'Sangeetha Pitaamaha', The (grand)father of music, structured and

formulated the pedagogy. Purandara Dasa was the first composer to formalize a krithi system which has a pallavi, anupallavi and one or more charanas in a composition. This structure was followed by composers after him (say Venkata kavi, the Trinities and other yesteryear composers)

The following structure was put forth for the first time, to move into formal training of a student in Carnatic Music.

Abhyasa gaana – Abhyasa means the Practice, Gaana means the Singing. These are the exercises to be practiced, to introduce a practitioner to the Melody and the Rhythm aspects of Carnatic music. This includes Svaravali. Svara means Notes, avalis means Patterns hence Svaraavali is a combination of Carnatic musical notes (Sapta svaras, S R G M P D N or the Seven basic notes) into different patterns based on mathematically computed Carnatic rhythm cycles (Sapta talas or Seven Rhythmic variations).

Sabha gaana – Sabha means an Auditorium, Gaana means the Singing. These are the songs which can be practiced to eventually perform at various gatherings, stage performances, or auditoriums. A Performer would have to learn over several years to build a good repertoire across different forms of Sabha gana. There are several stages in developing the technical aspects and in presenting the performances. In this, a student of music will be guided to learn Geetheygalu, Jatiswaras, Varnas, Kritis, Ashta padis, Pada, Javali, Tillana, Bhajans, Sankeertanas, Abhangs, in different Ragas and Talas composed by the Vagaiyakaras (Composers) with a rich heritage across different languages.

The methods followed by the vocalists/instrumentalists is the music that has prevailed, the system of music is still the one used in professional concerts till date.

The greater Indian subcontinent, as it existed around 10th century AD, saw a stream of invasions from 10th century onwards. Eventually, a part of India was occupied by Invasion from Mongols who were later known as Moghuls. The prevalent system of music kept constantly evolving under the 'selection pressure' of the mughal rulers - which had a persian/mughal bias. Somewhere around this time, a need was felt (by the Indian kings of the era) to 'standardize' the original musical system that used to be in existence [1].

The effort took place in Thanjavur originating with Raghunatha Nayaka, one of the most powerful king of the Thanjavur Nayak Dynasty, to prescribe and preserve the ancient traditions. He wrote down the earliest draft of this in his book "Sangita Sudha". Later, Raghunatha Nayaka's son Vijaya Raghava Nayak undertook the task set forth by his dad to formalize and standardize "Carnatic music". He chose Venkatamakhi to do this work. Venkatamakhi came up with the elegant "Melakarta" system of classifying Ragas.

Around 18th century, the Trinity (Muthuswamy Dikshitar, Tyagaraja and Syama Sastri) composers, besides the many other carnatic composers created tens of thousands of "kritis" or compositions. These compositions were mostly Spiritual and Philosophical in nature, and these compositions themselves defined Carnatic Music.

Percussion learning is all together a different form of learning, and its application is individualistic based on what music one creates for a particular composition. The basics of rhythm is strong foundation for learning, but the way of playing to compositions is individual's creativity adhering to the tradition of one's school/system of learning.

Musicography

Initially, this pedagogy was passed down orally. It is only post 18th century that the pedagogy was notated and documented for formal learning. The concept of Swara, Raga, Tala, Laya, Keerthana, were all passed on from the Guru (Teacher) to the Shishya (Disciple) in a Gurukula system. It is inferred or interpreted that with the diminishing capacity of the minds over a period of time, documentation of knowledge became more and more important. True to the nature of India, which is a diverse land of absolute flexibility, a land which evolved through a broad framework than any specific rules, Carnatic music documentation also evolved through a broad framework. There is no one standard rule to notate Carnatic music. It varies based on the traditions followed by a Guru, or the music School.

дух мугама, дух творческого озарения – просветления. Голосом Алима духовность превращает присутствующих в резонирующий оркестр живых звуков, влекомых ввысь, в мир Гармонии и Света. Совершаемое на концертной сцене действо — это, зачастую, не исполнение мугама. Алим Гасымов не исполняет, он творит мугам. Мугамом в исполнении Алима Гасымова совершается акт возвышения-единения, акт Веры. Вот, вероятно, почему голос Алима сегодня звучит не только с минарета, но и в католическом храме, и в иных восточных и европейских соборах. Он звучит в храме даже тогда, когда доносится с обычной сцены, так как созидание храма совершается в нем самом и, одновременно, в исполняемом им мугам–дастгяхе.

В исключительных случаях мугам-дастгях это не просто звуковое сооружение, а сжимающееся разбухающее энергийное поле, транслирующее живой творческий процесс. Такое редкое исполнение мугама и родственной мугаму музыки удается далеко не всем. В мире было не так много имен, способных наполнять звуковой храм жизненной силой. Среди них - пакистанец Нусрет Фатех Али хан, иранский исполнитель Мухаммед Рза Шаджариан, индийский певец Рави Шанкар, и др. В этом же ряду достойное место занимает имя азербайджанского исполнителя Алима Гасымова.

Все вышеизложенное подводит к следующему главному тезису: востребованность изучения мугама как науки и практики в настоящем связана прежде всего с необходимостью восстанавления баланса между невидимым внутренним и внешними сторонами единого культурного процесса. Ослабление, а затем и потеря связи внешней стороны, с единым духовным ядром, манифестирующим и организующим жизнь по закону Гармонии, стало причиной смены направления движения культурного развития, ныне устремленного не в вертикаль и не в горизонталь, а скатывающегося в пропасть невежества. В сложившейся ситуации, согласно концепции духовности, именно возвращение к истоку знания, то есть возвращение к музыке в ее первоначальном высоком значении – значении постижения и претворения Закона Мировой Гармонии, способно удержать всеобщее развитие на магистральном пути, ведущем к вершинам творческой Мысли, к высотам всеобщего культурного прогресса.

ЛИТЕРАТУРА:

1. Vəliyev K.N Səs. Muğam işığında tək səsli, çoxsəsli düşüncələr. "Nurlar", Bakı, 2011.
2. Əzimli F. N. Muğamat dünyasının sultanı. Bakı, "Göytürk", 1997.
3. Фархадова С.М. Исторические корни азербайджанского мугам-дастгяха. Баку-Фонд развития науки – 2018.

Akif QULİYEV

Əməkdar İncəsənət Xadimi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
E-mail: quliyev_akif@mail.ru

AZƏRBAYCAN MUĞAM DƏSTGAHLARINDA DƏRAMƏDİN NÖVLƏRİNƏ DAİR

Xülasə: *Məqalədə tərkibinə görə mürəkkəb silsiləvi forma quruluşuna malik olan muğam dəstgahının ayrılmaz hissəsi kimi dəramədin növlərinin araşdırılması qarşıya əsas məqsəd qoyulur. Bununla bağlı, ilk növbədə dəramədin muğam dəstgahında daşıdığı funksiya, onun rolu və əhəmiyyəti göstərilir. İlk dəfə olaraq muğam dəstgahına giriş funksiyasını yerinə yetirən dəramədin Azərbaycan musiqi elmində qəbil edilmiş yalnız instrumental deyil, həm də vokal-instrumental formada mövcudluğu məsələsi qaldırılır və öz elmi izahını tapır. Aparılan təhlillər və muğam ifaçıların repertuarının ətraflı araşdırılması nəticəsində Azərbaycan muğam dəstgahlarında dəramədin iki növünü "Dəramməd-rəng" və "Dəramməd-təsnif" (Dibaçə) kimi göstərilməsi məqsədəuyğun hesab edilir. Dəramədin iki növünün mövcudluğu muğam dəstgah ifaçısının sırf yaradıcılıq qabiliyyətindən asılı olması ilə əlaqələndirilir. Məqalədə müxtəlif xanəndələrin ifasından gətirilən nümunələr Dəramməd-təsnif (Dibaçə) növünün təcrübədə geniş yayıldığını sübut edir. Bundan əlavə, "dibaçə" adlanan dəramməd-təsniflərin janr əlamətləri, yaranma üsulları dəqiqləşdirilir. Əldə olunan nəticələr nəzərə alınaraq gələcəkdə muğam dəstgahının tədqiqi ilə bağlı aparılan bütün elmi-nəzəri araşdırmalarda dəramədin müəyyənləşdirilən Dəramməd-rəng və Dəramməd-təsnif (Dibaçə) kimi klassifikasiyasının aparılması təklif edilir.*

Açar sözlər: *muğam, dəstgah, dəramməd, bərdaşt, şöbə, təsnif, rəng, dibaçə*

Akif GULIYEV
Honored Art Worker,
PhD in Art, Professor

ABOUT INTERPRETATION OF DARAMAD IN MODERN AZERBAIJANI MUGHAM DASTGAHS

Abstract: *The main goal is to investigate the types of the gorge as an integral part of the mugham dastgah, which has a complex Ridge shape structure due to its composition. In this regard, first of all, the function, role and importance of daramad in mugham dastgah are shown. For the first time, the question of the existence of daramad, which serves as an entrance to the mugham dastgah, not only in the instrumental, but also in the vocal-instrumental form of the Azerbaijani music science, is raised by us and finds its scientific explanation. As a result of the analysis carried out and a detailed study of the repertoire of mugham performers, it is considered appropriate to indicate two types of deramad as "Deramad-color" and "Deramad-tasnif" (Dibacha) in Azerbaijani mugham-dastgahs. The existence of two types of daramad is associated with the fact that the mugham-dastgah performer depends solely on his creative abilities. Examples brought from the performance of various singers in the article prove that the type of Deramad-tasnif (Dibacha) is widespread in practice. In addition, the genre signs and methods of creation of the so-called "Dibacha" daramad-classifiers are being specified. Taking into account the results obtained, it is proposed to carry out the classification of deramad as defined Deramad-color and Deramad-classifier (Dibacha) in all scientific-theoretical studies conducted in connection with the study of mugham-dastgah in the future.*

Keywords: *mugham, dastgah, daramad, bardasht, Department, classifieds, color, dibacha*

Акиф КУЛИЕВ
Заслуженный деятель искусств,
Доктор философии в области искусствоведения, профессор

О ВИДАХ ДАРАМАД В СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ МУГАМНЫХ ДАСТГАХАХ

Аннотация: *Основная цель статьи заключается в исследовании видов дарамада как составной части мугамной таблицы, которая в силу своего состава имеет сложную серийно-образную структуру. В связи с этим в первую очередь показаны функция, роль и значение дарамада в мугамной таблице. Впервые мы ставим вопрос о существовании дарамада, выполняющего функцию входа в мугамный инструмент не только в инструментальной форме, но и в вокально-инструментальной форме, принятой в азербайджанской музыкальной науке, и находит свое научное объяснение. В результате проведенных анализов и детального изучения репертуара исполнителей мугама считается целесообразным указать два вида дарамада в азербайджанских мугам-даштагах как «Дарамад-цвет» и «Дарамад-тасниф» (Предисловие). Существование двух видов дарамада связано с тем, что исполнитель мугама-дастгяха зависит от чисто творческих способностей. Приведенные в статье примеры из выступления различных певцов доказывают, что в практике широко распространен тип дарамад-тасниф (прелюдия). Кроме того, уточняются жанровые особенности и способы создания доходных классификаций под названием «дибача». С учетом полученных результатов предполагается, что во всех дальнейших научно-теоретических исследованиях, проводимых по изучению мугам-дастгяха, классификация Дарамада определяется как Дарамад-цвет и Дарамад-тасниф (Предисловие).*

Ключевые слова: *мугам, дастгях, дарамад, бардашт, отдел, классификация, цвет, дибаче*

Şifahi ənənəli Azərbaycan xalq musiqisinin janr və formalarının tarixi inkişaf prosesində dəstgah kimi muğam-janr növünün formalaşması və təkmilləşməsi əlamətdar hadisə olmuşdur. Məlum olduğu kimi, dəstgah - tərkib hissələrinə malik olan silsiləli formanın müəyyən dramaturji prinsip üzrə qurulan mürəkkəb kontrast tərkibli muğam kompozisiyasıdır.

Ənənəvi olaraq dəstgah "Dəraməd"lə başlayır. Onu bəzən müqəddimə də adlandırırlar. Muğam dəstgahında dəramədin funksiyası - müvafiq dəstgahın əsaslandığı məqamın səssırasını və şöbələr üzrə melodik materialını tam və ya qismən nümayiş etdirməkdən ibarətdir. Dəramədin daşıdığı funksiya bilavasitə onun adında əksini tapır: fars dilində "dər" - qapı, "aməd"- gəliş, giriş mənasını daşıyır. Bundan çıxış edərək demək olar ki, Dəraməd dəstgaha giriş funksiyası rolunu oynayır. Bir çox Azərbaycan muğam dəstgahlarını Dəramədsiz təsəvvür etmək mümkün deyil. Məsələn, Dəraməd Rast, Dəraməd Şur, Dəraməd Segah və s.

Muğam dəstgahında Dəramədin rolu əhəmiyyətli və özünəməxsusdur. Dəstgahın təşkilində onun iştirakı estetik-formayaradıcı tələbdən irəli gəlir. Bu, Dəramədin emosional təsir gücünə malik olması və bütöv muğam kompozisiyasının müxtəlif fərdi cəhətlərini əks etdirməsilə şərtlənir.

Dəstgahda Dəramədin əsas məğzi ondan ibarətdir ki, onun musiqi materialı: kadans dönmələri, tematizminin dayaq pərdələri, səslənmə üsulu və s. bütöv muğam kompozisiyasının sonrakı təşəkkül prose-sində yaranan bir çox cəhətləri öncədən göstərir. Məhz bu cəhətə görə də bütöv kompozisiyanın ümumi əhəmiyyət kəsb edən giriş funksiyasının semantik əlamətlərini əks etdirir. Musiqili qavrama nöqteyi nəzərindən Dəraməd özünün tədricən artan fəal-ifadəli və çağırış xarakterli quruluşuna görə bu və ya digər muğamın ifasına dinləyicinin diqqətini cəlb etməyə yönəlir, həmçinin, muğamı daha yaxşı dərk etmək üçün müəyyən əhval-ruhiyyənin yaranmasına kömək edir.

Dəramədin daxilindəki təzadlığın yaranması onun musiqi materialına müxtəlif muğam şöbələrindən əsas intonasiya dönmələrin, bu şöbələrə xas olan fərqli dayaq məqam-funksional sahələrin cəlb edilməsi ilə əlaqələndirilir.

Azərbaycan musiqi elmində muğamın tədqiqi ilə məşğul olan bütün tədqiqatçıların işlərində dəra-mədlərin yalnız instrumental giriş funksiyası daşıması göstərilir. Məsələn, Əfrasiyab Bədəlbəylinin Lüğətində "Dəraməd - muğamın əvvəlində ifa olunan kiçik instrumental müqəddimə" kimi göstərilir (1, s.36). Daha sonralar R.Zöhrabovun, A.Nəcəfzadənin, R.Musazadənin və başqalarının əsərlərində də eyni fikirlə rastlaşırıq. Belə ki, professor Ramiz Zöhrabov tədqiqatlarında dəramədi şifahi professional

musiqinin janrı olan rəngin növü kimi qeyd edir (4, s.25). Muğam ensiklopediyasında da Dəraməd - instrumental musiqi janrı, rəngin növü kimi təyin olunmuşdur (2,s.54).

Dəstgahın morfologiyasını tədqiq edən Faiq Çələbiyev də dəramədi - ciddi metroritmi olan instru-mental pyes adlandırır (6, s.34). Daha sonra müəllif dəramədin həcminə görə üç növünü göstərir: Böyük dəraməd, Orta dəraməd və Kiçik dəraməd. Əlbəttə, tədqiqatçının bu bölgüsü bir qədər təəccüb doğurur. Belə ki, onun ayırdığı ikinci və üçüncü növün izahında ziddiyyət özünü göstərir. Belə ki, müəllifin özünün etirafına görə, orta və kiçik növlər dəramədin daşıdığı anlayışa cavab vermir, yəni hər iki növdə dəstgahın bir neçə şöbəsinin məqam-intonasiya xüsusiyyətləri öz əksini tapmır, bunların daha çox Bərdaştla uyğunluğu özünü göstərir, belə ki, bu növlərdə əsasən muğamın mayə pərdəsinin oxunması prinsipi çıxış edir (6, s.35).

Lakin qeyd etmək istərdik ki, musiqişünaslıqda yanlış bir fikir formalaşmışdır ki, guya Dəraməd – muğam dəstgahına sırf instrumental giriş funksiyası daşımalıdır. Əlbəttə, bu səhv yanaşmadır. Təcrübə göstərir ki, muğam dəstgahlarının dəramədləri həm instrumental, həm də vokal-instrumental formada ola bilər. İlk dəfə olaraq bizim tərəfimizdən bu məsələ qaldırılır və bunun elmi izahı verilir.

Beləliklə, biz Dəramədlərin rənglər kimi xarakter və məzmununa görə deyil, (7, s.152) məhz ifa formasına görə iki növə - 1.İnstrumental və 2. Vokal-instrumental (Dibaçə) – bölündüyünü nəzərə çatdırırıq. Bizim məqsədimiz də elə Dəramədin ikinci növünün mövcudluğunu müəyyənləşdirməkdən ibarətdir.

Muğam dəstgahı şöbələrinin tarixi təkamül yoluna nəzər saldıqda deyə bilərik ki, nə vaxtsa Bərdaşt haqqında da belə ziddiyyətli fikirlər mövcud olmuşdur. Uzun zaman Bərdaştın yalnız instrumental formada olması haqqında fikirlər formalaşmışdır, lakin artıq onun həm instrumental, həm də vokal-instrumental formada mövcudluğu qəbul edilmişdir. Ustad xanəndələrdən Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski Bərdaştı vokal-instrumental formada ifa etmişlər, bu ənənə müasir dövrdə də davam etdirilərək Dəstgahın mayəsinə giriş funksiyası daşıyan Bərdaştın iki növdə olduğunu təsdiq edir.

Bərdaşta olan ikili münasibəti biz Dəramədlərə də aid edə bilərik. Belə ki, bununla bağlı Azərbaycan muğam sənətində çox sayda nümunə göstərmək olar. Dəramədin iki növünü biz belə göstərə bilərik:

I - Dəraməd-rəng

II – Dəraməd-təsnif

Bunlardan birincisi haqqında fikir artıq öz təsdiqini tapmışdır. İkincisinə gəldikdə isə biz elə təsnifə Dəraməd deyə bilərik ki, o, muğam dəstgahının əsas şöbə və məqam əsaslarını əhatə edir və mütləq dəstgahın əvvəlində - müqəddimə funksiyasında çıxış edir. Yəni Dəstgaha müqəddimə funksiyası daşıyan Dəraməd-təsniflər hər zaman ifa edilmişdir. Lakin belə ifanın ilk dəfə kimin tərəfindən və nə vaxt yaranması haqda sual yarana bilər. Qeyd edək ki, biz bu məsələyə tarixi aspektdən yanaşmırıq və yalnız müasir dövrdə muğam ifaçılığında mövcud olan faktlara əsaslanaraq dəstgaha giriş funksiyası daşıyan Dəramədin iki növünün olduğunu əsaslandırırıq.

İkinci növə aid olan belə Dəraməd-təsniflərə əvvəllər "Dibaçə" deyirdilər. Bəhram Mansurov məktəbinin nümayəndələri, hal-hazırda Milli Konservatoriyanın müəllimlərinin təsdiqlərinə görə, Bəhram Mansurov belə təsnifləri Dibaçə adlandırmışdır. Məsələn, V.Rəhimov təsniflərin həcminə görə iki qismə bölündüyünü qeyd edərək, iri həcmli təsniflərin dəstgahın əsas şöbə və guşələrini əhatə etdiyini vurğulayır və belə təsniflərin "dibaçə" adlandığını yazır (3, s.50).

Dibaçə - (ərəb-fars sözü olub "Zərif çiçəkli ipək, qumaş parça" mənasını verir) - 1) kitabın zər-naxışla bəzənmiş ilk səhifələri; 2) Klassik Yaxın və Orta Şərq ədəbiyyatında müəllifin öz əsərinə, yaxud külliyyatına nəsr və ya nəzmlə yazdığı müqəddimə. Burdan belə bir nəticəyə gələ bilərik ki, Dibaçə yalnız poetik mətnlə bağlı olan və müqəddimə funksiyası daşıyan Dəraməd-təsniflərə deyilir.

Deməli, Dibaçələr təsniflərdən daha mürəkkəb forması və dəstgahın tərkibində tutduğu yerinə və daşıdığı funksiyasına görə fərqlənir. Onu həm təsnifin, həm də dəramədin bir növü kimi dəyərləndirmək olar.

Dibaçələr müxtəlif üsullarla yarana bilər:

- İnstrumental dəramədin melodiyasına sözlər əlavə olunaraq (əks proses də ola bilər). Belə hallara muğam sənətində çox rast gəlmək olar. Bəzən rəng melodiyalarına sözlər əlavə olunaraq təsnifə

çevrilməsi baş verir. Məsələn, buna ən parlaq nümunə Əhsən Dadaşovun rənglərinin İslam Rzayev tərəfindən təsnif kimi ifa edilməsi ola bilər;

- Məlum təsniflərin genişlənməsi hesabına. Belə ki, əgər təsnif üçdən artıq şöbənin məqam-intonasiya xüsusiyyətlərini əks etdirdiyi halda dibaçəyə çevrilir.

İfaçılıq praktikasında Dəraməd bəzən Pişdarəməd (fars dilində *"piş"- birinci, ön, başlanğıc* mənasını verir) də adlandırılır ki, bu da onun dəstgahın kompozisiyasında ikinci giriş funksiyaya malik olan Bərdaştdan öncə birinci ifa edilməsini bildirir.

Azərbaycan muğam dəstgahlarında iki giriş bölmənin - Dəramədin və Bərdaştın daşıdığı funksiyanı Aşıq dastan ifaçılığında iki girişin olması ilə də müqayisə etmək olar. Məsələn, aşıq dastanlarında bu girişlərdən I – üç ənənəvi instrumental-vokal aşıq melodiyalarından ("Divani", "Təcnis" və "Qaraçı") ibarət "Qapı açır" kompozisiyası; II - aşığın üç poetik mətni musiqi alətsiz deklomasiyasından ibarət - "Ustadnamə" adlanan kompozisiyadır.

"Pişdəraməd"də də "Qapı açır"da olduğu kimi, sonrakı musiqi inkişafının əsaslandığı ilk registr nümayişi vacib formayaradıcı əhəmiyyət kəsb edir. Belə ki, əgər "Qapı açır"da ayrı-ayrı vokal-instrumental aşıq havalarında ardıcıl olaraq aşağı ("Divani"), orta ("Təcnis") və yuxarı ("Qaraçı") registrlər nümayiş etdirilirsə, belə bir prinsipli kompozisiya özünü muğam dəstgahının Dəramədində də göstərir.

Ümumiyyətlə, belə bir uyğunluğun mövcudluğu aşıq və xanəndəlik sənəti arasında qarşılıqlı əlaqənin olması ilə izah edilə bilər. Belə ki, Azərbaycan musiqi mədəniyyətində muğam və aşıq sənətinin əhəmiyyəti eyni dərəcədə böyükdür. Bu da öz növbəsində, onların tarixi inkişaf yolunun ümumiliyi ilə şərtlənir. Əsrlər boyu muğam və aşıq sənətinin yolları kəsişmiş, bir-birilə qarşılıqlı təsirdə olmuşdur.

Azərbaycan muğam dəstgahlarının kompozisiyasının yaranmasında xanəndə və instrumental ifaçıların rolu son dərəcə əhəmiyyətidir. Dəramədin instrumental və ya vokal-instrumental formada olması muğam-dəstgahın ifaçısının sırf yaradıcılıq qabiliyyətindən, bacarığından asılıdır. Məsələn, Aqil Məlikovun ifa etdiyi "Zabul-segah" muğam dəstgahında Dəraməd sırf vokal-instrumental formada oxuyur. Lakin elə muğam dəstgahları da var ki, bunlarda Dəraməd həm instrumental, həm də vokal-instrumental formada ifa edilir. Məsələn, xanəndə Razi Şükürovun ifa etdiyi "Zabul-Segah" muğam-dəstgahında həm Dəraməd-rəng, həm də Dəraməd-təsnif (Dibaçə) səslənir. Burada Dəramədin instrumental və vokal-instrumental növü eyni melodiyaya əsaslanır.

Ağaxan Abdullayevin ifa etdiyi "Mahur-hindi" muğam dəstgahında isə Dəraməd-rəng və Dəraməd-təsnif melodik və ritmik cəhətdən fərqli xüsusiyyətləri ilə seçilirlər. Mövcud səs yazılarından məlum olur ki, A.Abdullayev müxtəlif melodik əsasa malik olan dəraməd-təsniflərdən istifadə etmişdir. Bunlardan biri R.Zaöhrabov tərəfindən nota alınmışdır (N 79). Onun not yazısı Nəriman Əliyevin ifası əsasında aparılmışdır. "Gəldi Baharın səfası" sözlərilə başlayan bu təsnifi Ağaxan Abdullayev "Mahur-hindi" muğamının əvvəlində Dəraməd-təsnif (Dibaçə) kimi ifa edir.

Azərbaycan muğam sənətində Dəraməd-təsnif növünə aid çox sayda nümunələr göstərmək olar. Bunlara R.Zöhrabovun "Azərbaycan təsnifləri" kitabında müxtəlif xanəndələrin ifasından nota aldığı (№12) Şur təsnifi, (№38) Zabul təsnifi, (№48) Çahargah təsnifi, həmçinin, (N 79) Mahur-hindi təsnifi və s. təsniflərdə rast gəlmək olar.

Bütün göstərilən bu təsniflərdə üç və daha artıq şöbə və guşənin məqamintonasiya xüsusiyyətlər əksini tapmadığına görə bunları Dəraməd-təsnif (Dibaçə) hesab etmək olar. Məsələn, Xalq artisti Əbülfət Əliyevin ifasında nota alınan "Şur təsnifi"ndə (N12) muğamın "Mayə", "Şur-Şahnaz", "Bayatı-Türk", "Şikəsteyi-fars", "Sarənc" şöbələrinin dayaq pərdələrinə istinad edilir.

Şur təsnifi (№12)




O - xu - yan o - xu - yar xoş a - vaz i - lə.
f
Nə qay - da - dır gö - zəl - lər - də sev - di - yi - nə
naz ey - lər, Bağ - lar i - çin - də gə - zi - şib
söh - bət ey - lər, saz ey - lər. Nə qay - da - dır
gö - zəl - lər - də sev - di - yi - nə naz ey - lər,
Bağ - lar i - çin - də gə - zi - şib söh - bət ey - lər,
saz ey - lər.
mf
Gəl - gəl, gəl - gəl ay gö - zəl
Gəl - gəl, gəl - gəl ay gö - zəl.
p
Mən se - vi - rəm
öz ya - rı - mı ə - zəl - dən,
Ay - rıl - ma - ram
sə - nin ki - mi gö - zəl - dən.
//sə - nin ki - mi
gö - zəl - dən.

Azərbaycan elindənsən sən, gözəl,
Şanələr telində nə qəşəng gəzər. } Mayə şöbəsi

Həsrətin çəkən aşiqlər sevgi yolunda dözər - Sarənc şöbəsi
Nə qaydadır gözəllərdə sevdiyinə naz eylər, - Şur-şahnaz şöbəsi
gözəl yarım.

Mən sevirəm öz yarımı əzəldən,
Ayrılmaram sənin kimi gözəldən. } Mayə şöbəsi

Tar çalan çalar şuru şahnaz ilə,
Oxuyan-oxuyar xoş avaz ilə. } Bayatı-türk şöbəsi

Nə qaydadır gözəllərdə sevdiyinə naz eylər,
Bağlar içində gəzişib söhbət eylər, saz eylər. } Şikəsteyi-fars şöbəsi

Gəl-gəl, gəl-gəl ay gözəl
Gəl-gəl, gəl-gəl ay gözəl. } Mayə şöbəsi

Mən sevirəm öz yarımı əzəldən,
Ayrılmaram sənin kimi gözəldən. } Mayə şöbəsi

Digər nümunə kimi görkəmli xanəndəmiz Hacıbaba Hüseynovun ifasından "Yar belin incə, Ləblərin qönçə" sözlərilə başlayan məşhur "Zabul təsnifi"ni (N38) göstərə bilərik. Burada da muğam-dəstgahın "Mayə", "Muyə", "Manəndi-müxalif" kimi üç şöbələrinin intonasiya materialının çıxış etməsi geniş və özünəməxsus kompozisiya quruluşunu əmələ gətirir ki, bu da təsnifin həm Dibaçə, həm də müstəqil şəkildə ifa olunmasına imkan verir. Bu təsnifi Xanəndə Razi Şükürov da Hacıbaba Hüseynov kimi Dəraməd-təsnif kimi ifa etmişdir (başqa sözlərlə).

Hacıbaba Hüseynov tərəfindən daha bir Dibaçə nümunəsi "Çahargah" muğam-dəstgahında ifa edilir. Bu təsnif də R.Zöhrabov tərəfindən nota alınmışdır (N48). Onun intonasiya-melodik özünəməxsusluğu "Çahargah" muğamının bütün əsas şöbələrinin məqam-intonasiya xüsusiyyətlərindən istifadə edilməsi ilə bağlıdır. Burada "Mayə", "Bəstə-nigar", "Hasar", "Müxalif" şöbələrinin əhatə olunması təsnifin Dibaçə olduğuna dəlalət edir.

Beləliklə, Azərbaycan muğam dəstgahlarının tərkibində Dəramədin dramaturji əhəmiyyəti və funksiyası haqqında konkret fikir mövcuddursa, bununla yanaşı onun növləri haqqında yanlış fikir formalaşmışdır. Yəni bütün elmi mənbələrdə muğam-dəstgaha giriş, müqəddimə rolunda çıxış edən Dəramədin sırf instrumental janr olduğu göstərilir. Halbuki, ustad xanəndələrin yaradıcılığına nəzər saldıqda bu mövqeyin səhv və yanlış olduğu öz təsdiqini tapır. Bizim göstərdiyimiz nümunələr bunu əyani sübut edir. Təklif edilir ki, gələcəkdə bütün bu faktlar nəzərə alınaraq muğam dəstgahının tərkib hissəsi olan Dəraməd haqqında biliklər daha da genişləndirilərək onun növlərinin bizim tərəfimizdən müəyyənləşdirilən – Dəraməd-rəng və Dəraməd-təsnif (Dibaçə) kimi adlandırılması qəbul edilsin.

ƏDƏBİYYAT:

1. Bədəlbəyli Ə. B.İzahlı musiqi lüğəti. B.: 1969, 245 s.
2. Muğam ensiklopediyası. B.: 2016, 215 s
3. Rəhimov V. Hacıbaba Hüseynov yaradıcı və novator xanəndədir. // Konservatoriya, 2012, N4 (18), B.: s.37-61.
4. Zoxrabov R.F. Теоретические проблемы Азербайджанского мугама. B.: Шур, 1992, 248 с.
5. Zoxrabov R.F. Азербайджанские теснифы. M., Советский композитор, 1983, 326 с.
6. Челебиев Ф.И. Морфология дастгяха. Автореферат дисс.на ..доктора искусствоведения. Санкт-Петербург, 2009, 43 с.
7. Quliyev A.N. Azərbaycan muğam dəstgahlarında rənglərin dramaturji əhəmiyyəti və ifaçılıq məsələləri. "Muğam aləmi" III Beynəlxalq Elmi Simpoziumunun materialları. Bakı,12-15 mart, 2013, s.151-156.
8. Гулиев А.Н. Принципы контрастности в музыкальный драматургии азербайджанского мугама. Баку, Şərq-Qərb, 2009, 136 s.

Leyla QULİYEVA
AMK-nın "Musiqinin tarixi və
nəzəriyyəsi" kafedrasının professoru,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
E-mail: leylaquliyeva-80@mail.ru

Şirzad FƏTƏLİYEV
AMK-nın balaban ixtisası üzrə müəllimi, Əməkdar artist
Ünvan: Bakı, Yasamal, Ələsgər Ələkbərov 7

AZƏRBAYCAN MUĞAM İFAÇILIĞINDA BALABAN ALƏTİNİN ROLU VƏ TƏDRİS MƏSƏLƏLƏRİ

Xülasə: *Təqdim olunan məqalədə muğam ifaçılığında mühüm rol oynayan, qədim xalq çalğı alətlərindən biri olan balabandan söhbət açılır. Məlum olduğu kimi, muğam və xalq musiqisini, eləcə də Azərbaycan bəstəkarlıq məktəbinin dəyərli nümunələrini ifa edən və beynəlxalq arenada tanıdan məşhur və istedadlı ifaçılar nəsli yetişdirən müasir dövrümüzün ustad sənətkarları xəzinəmiz olan muğamları gələcək nəslə ötürərək qoruyub saxlanılmasında böyük rol oynayır. Muğam ifaçılığı dedikdə, əlbəttə ki, burada həm instrumental, həm də vokal-instrumental ifa nəzərdə tutulur. Qədim dövrlərdən başlayaraq bizim dövrə qədər inkişaf edib, müxtəlif dəyişiklik, əlavə və ixtisarlara məruz qalan muğam ifaçılığı müasir dövrümüzdə, artıq yeniliklərə addım atan, müxtəlif janrlarla sintezdə ifa və improvizasiya olunan janr kimi məşhurlaşır. Lakin Azərbaycan ənənəvi professional musiqimiz olan muğam sənəti tədris prosesində əsrlərdən gələn ənənə əsasında, yəni dildən-dilə, ifadan ifaya şifahi şəkildə şagird və tələbələrə ötürülür (ustad-şagird ənənəsinə uyğun şəkildə). Gələcəkdə bu sənətə yalnız mahircəsinə yiyələnən ifaçı, hansısa yeniliklərə yol verərək maraqlı kompozisiyalar ifa etmək, simbiozlar təqdim etsək hüququnu qazana bilər. İnstrumental muğam ifaçılığı müxtəlif tərkibli ifaçılardan ibarət olur. Klassik variant "Muğam üçlüyü" adı ilə tanınan (XIX əsrdə Cabbar Qaryağdı oğlunun muğam üçlüyünün yaranması) tar, kamança və xanəndədən ibarətdir. Burada adətən xanəndə özü qavalda də ifa etmək bacarığına malik olur. Lakin müxtəlif dövrlərdə qaşa-nağara, balaban və başqa alətlər əlavə olunmaqla ansamblın tərkibi genişlənmişdir. Müasir dövrümüz də, ansambllar müxtəlif tərkibli olmaqla hər bir alətin əlavə olunması, özünəməxsus funksiya daşıması ilə bağlıdır.*

Beləliklə, balaban aləti Azərbaycan xalq çalğı alətləri içərisində qədim nəfəs musiqi alətlərindən biridir. Balaban alətinin müxtəlif növləri mövcuddur. Onlar haqqında söz açmaq həmçinin müasir dövrdə tədrisinə nəzər yetirmək təqdim olunacaq məqalədə əsas məqsəd kimi qarşımıza qoyulub.

Acar sözlər: *balaban, instrumental-muğam, milli nəfəs alətləri, improvizə*

Лейла ГУЛИЕВА
АМК "История музыки и
профессор кафедры теории,
доктор философии по искусствоведению

Ширзад ФАТАЛИЕВ
Заслуженный артист, педагог АМК

РОЛЬ НАРОДНОГО ИНСТРУМЕНТА «БАЛАБАН» В ИСПОЛНЕНИИ АЗЕРБАЙДЖАНСКОГО МУГАМА И ВОПРОСЫ ОБУЧЕНИЯ

В представленной статье рассматривается один из древних народных музыкальных инструментов «Балабан», играющий важную роль в исполнении мугамов. Как известно, талантливые исполнители народной музыки и мугамов, а также ценных произведений Азербайджанских композиторов, воспитавшие не одно поколение молодых музыкантов на практике передают свои знания следующему поколению и этим сохраняют традиции национального достояния. Мугамное исполнительство подразумевает как инструментальное, так и вокально-инструментальное ис-

полнение. Традиционное Мугамное исполнение как в класическом варианте, так и с различными изменениями, дополнениями и сокращениями, становится очень популярным в наше время как жанр, уже шагнувший в перед к новшествам, исполняющийся в синтезе с различными жанрами и импровизициями. Искусство Мугама, являющееся нашей традиционной профессиональной музыкой Азербайджана, передается ученикам и студентам устно в учебном процессе на основе многовековой традиции. В будущем только виртуозно овладевший этим искусством исполнитель, может создавать интересные композиции и представлять мугамное искусство, вводя некоторые новшества. Инструментальное мугамное исполнение состоит из разного состава исполнителей. Классический вариант, известный как «мугамное трио» (трио Джаббара Гарьягды оглу в XIX веке), состоит из тара, кяманчи и ханенде (певец-традиционный вокальный исполнитель). Однако состав ансамбля расширился. В ансамбле можно увидеть такие инструменты как гоша-нагара, балабан и тд. Современные ансамбли имеют различный состав, и у каждого инструмент несет свою уникальную функциональность.

Балабан является одним из древних азербайджанских духовых музыкальных инструментов. Существуют различные виды инструмента Балабан. Основной целью представленной статьи это рассмотреть и раскрыть особенности инструмента в мугамном исполнении и в системе образования.

Ключевые слова: *балабан, инструментальный-мугам, народные духовые инструменты, импровизация.*

Leyla Guliyeva
AMK "History of Music and
Professor of the Department of Theory,
PhD in Art

Shirzad Fataliyev
Honored Artist, teacher of AMK

THE ROLE OF THE FOLK INSTRUMENT "BALABAN" IN THE PERFORMANCE OF AZERBAIJANI MUGHAM AND TEACHING ISSUES

Abstract: *The presented article discusses one of the ancient folk musical instruments "Balaban", which plays an important role in the performance of mughams. As you know, talented performers of folk music and mughams, as well as valuable works of Azerbaijani composers, who have brought up more than one generation of young musicians, pass on their knowledge to the next generation in practice and thus preserve the traditions of the national heritage. Mugham performance implies both instrumental and vocal-instrumental performance. The traditional Mugham performance, both in the classical version and with various changes, additions and abbreviations, is becoming very popular in our time as a genre that has already stepped in front of innovations, performed in synthesis with various genres and improvisations. The art of Mugham, which is our traditional professional music of Azerbaijan, is transmitted to pupils and students orally in the educational process on the basis of a centuries-old tradition. In the future, only a performer who masterfully mastered this art can create interesting compositions and present mugham art, introducing some innovations. Instrumental mugham performance consists of different composition of performers. The classical variant, known as the "mugham trio" (the trio of Jabbar Garyagdy oglu in the 19th century), consists of a tar, a kamancha and a khanende (a traditional vocal performer). However, the composition of the ensemble has expanded. In the ensemble you can see such instruments as gosha-nagara, balaban and so on. Modern ensembles have a different composition, and each instrument has its own unique functionality.*

Balaban is one of the ancient Azerbaijani spiritual musical instruments. There are different types of Balaban instrument. The main purpose of the presented article is to consider and reveal the features of the instrument in mugham performance and in the education system.

Keywords: *balaban, instrumental mugham, folk wind instruments, improvisation*

Xalqımızın milli sərvəti olan Azərbaycan muğamları, aşıq sənəti, ümumilikdə xalq musiqisi və ifaçılıq ənənələri müasir dövrdə mədəniyyətimizi dünya səviyyəsində tanıdaraq, bu möhtəşəm sənət incilərinin inteqrasiya edilməsində olduqca zəruri rol oynayan faktordur. Məlum olduğu kimi, muğam və xalq musiqisini, eləcə də Azərbaycan bəstəkarlıq məktəbinin dəyərli nümunələrini ifa edən və beynəlxalq arenada tanıdan məşhur və istedadlı ifaçılar nəsli yetişdirən müasir dövrümüzün ustad sənətkarları xəzinəmiz olan muğamları gələcək nəslə ötürərək qoruyub saxlanılmasında böyük rol oynayır. Muğam ifaçılığı dedikdə əlbəttə ki, burada həm instrumental, həm də vokal-instrumental ifa nəzərdə tutulur. Qədim dövrlərdən başlayaraq bizim dövrə qədər inkişaf edib, müxtəlif dəyişiklik, əlavə və ixtisarlara məruz qalan muğam ifaçılığı müasir dövrümüzdə, artıq bir sıra yeniliklərə addım atan, müxtəlif janrlarla sintezdə ifa və improvizasiya olunan janr kimi məşhurlaşır. Lakin Azərbaycanın ənənəvi professional musiqisi olan muğam sənəti tədris prosesində əsrlərdən gələn ənənə əsasında, yəni dildən-dilə, ifadan ifaya şifahi şəkildə şagird və tələbələrə ustad-şagird ənənəsinə uyğun şəkildə ötürülür. Gələcəkdə bu sənətə yalnız mahircəsinə yiyələnən ifaçı, hansısa yeniliklərə imza ataraq maraqlı kompozisiyalar ifa etmək, simbiozlar təqdim etmək hüququnu qazana bilər. İnstrumental muğam ifaçılığı müxtəlif tərkibli ifaçılardan ibarət olur. Milli musiqimizdə "Muğam üçlüyü" (trio) adı ilə tanınan (XIX əsrdə Cabbar Qaryağdıoğlunun muğam üçlüyünün yaranması) tar, kamança və xanəndədən ibarətdir (belə ansambllara həm də "sazəndə dəstəsi" deyirlər). Burada adətən xanəndə özü qavalda da mükəmməl ifa etmək bacarığına malik olmalıdır. Lakin müxtəlif dövrlərdə qoşanağara, balaban və başqa alətlər əlavə olunmaqla ansamblın tərkibi genişlənmişdir. Müasir dövrümüzdə də, ansambllar müxtəlif tərkibli olmaqla hər bir alətin əlavə olunması, özünəməxsus funksiya daşıması ilə bağlıdır. Ansambllar haqqında, onların yaranma tarixi və inkişaf edərək müasir dövrün məşhur ansambl-larının yaranmasına qədər olduqca geniş məlumat toplamaq olar, lakin mövzudan uzaqlaşmadan, daha doğrusu, konkret olaraq balaban alətinin ansambllarda rolu və ümumiyyətlə muğam ifaçılığında tutduğu yeri işıqlandırmağa çalışacağıq.

Balaban – Azərbaycan xalq çalğı alətləri arasında qədim nəfəs musiqi alətlərindən biri sayılır. Bu alətin yaranma tarixi və növləri haqqında biz Azərbaycan xalq çalğı alətləri haqqında yazılan elmi əsərlərə arxalanaraq məlumat verməyə çalışmışıq. Beləliklə, əsas qaynaqlar kimi, Səadət Abdullayevanın "Azərbay-can xalq çalğı alətləri" [1], Məcnun Kərimovun "Azərbaycan musiqi alətləri" [2] kitabları və Abbasqulu Nəcəfzadənin "Azərbaycan çalğı alətlərinin izahlı lüğəti" [7], "Etnoorqonologiya" [9] dərsliyi götürül-müşdür. Adlarını çəkdiyimiz elmi işlərdə alim T.Bünyadovun "Əsrlərdən gələn səslər" [4] kitabına əsaslanaraq nəfəs alətləri haqqında məlumat verilərək qeyd olunmuşdur: "Ucar rayonunda Qaratəpə adlanan yerdə aşkar edilmiş gümüş üzüyün üzərində nəfəs aləti tütək çalan insan fiquru nəqş edilmişdir. Üzüyün yaşı iki min ildən artıqdır" [1, s. 9]. Lakin A.Nəcəfzadə elmi tədqiqat işlərində və "Etnoorgonologiya" kitabında üzük üzərində tütək deyil, balaban ifaçısının rəsmi həkk olunduğu bildirir. Bu da balaban alətinin nə qədər qədim tarixi köklərə malik olmasını bir daha sübut edir.

Balaban alətinin müxtəlif növləri mövcuddur. Bu aləti "yastı balaban", "balaman", "aşıq balabanı", "mey" də adlandırıblar. Balaban sözünün mənası "bala" (kiçik, həzin zərif) və "ban" (səs) sözlərinin birləş-məsindən əmələ gələrək "kiçik, həzin səs" mənasını daşıyır. Aşıqlar dəstəsində də balaban ifaçısının iştirakını görmək olar. Bu ansamblda balabanın saza köklənən kiçik növündən istifadə olunur. Aşıq oxuma-larının instrumental girişlərində balabançı əsas melodiyanı çalır. Balaban alətinin özünəməxsus tembrə malik olması ifa ediləcək hər hansısa əsərin xüsusi olaraq yumşaq və həzin təqdim olunmasında böyük rolu var. El arasında bu alətlə bağlı Yastı balaban, Bəm balaban, Əsas balaban, Dəm balaban, Kiçik balaban, Cürə balaban, Orkestr balabanı, Tulum balabanı və s. kimi məhəlli deyimlərə də rast gəlmək olar.

Balaban aləti Azərbaycanda geniş yayıldığından mahir ifaçılar nəsli də yetişdirmişdir. Beləliklə, məşhur balaban ifaçıları arasında Əli Kərimov (1874–1962), Şahali İsmayılov, Həsən Baxşali oğlu, Əliş Qaytaranoğlu, Müseyib Abbasov, Şahmurad Tahirov, Bəhruz Zeynalov (1926–1998), Həsrət Hüseynov (1927–1994), İzzətalı Zülfüqarov, Rza Məmmədov, Qaraçı İsmayıl, Cənnətalı Hacıyev, Ağasəf Seyidov, Həsən Məhərrəmov, Əlicavad Cavadov, Fərhad Hüseynov və başqalarının adlarını çəkmək olar [1, s. 299]. Eyni zamanda Mehdi Nəzərli (1885–1948), Ağası Ağasızadə (1906–2002), Məhərrəm Mövsümov (1916–1957), Məmmədnaib Hacıyev (1922–2005), Ələfsər Rəhimov (1930–1984), Ələkbər Əsgərov (1933–1995), Mübariz Atayev (1934–2000) və başqa sənətkarlar balabanı təbliğ etmişlər [8, s. 6].

Balaban üçün ilk dərslik dahi Ü.Hacıbəylinin təşəbbüsü ilə Saleh Abduləlimov tərəfindən 1937-ci ildə işlənmişdir və "Balaban məktəbi" adlandırılmışdır. Lakin bu kitab uzun illər nəşr olunmamış, əlyazma şəklində qalmışdır. Daha sonra eyni ad altında Nazim Əliyev (2002-ci ildə) və "Balaban metodu" adı ilə Əlixan Səmədov (2008-ci ildə) dərslik nəşr etmişlər. Milli nəfəs alətlərinin ali səviyyədə tədrisi Müasir Azərbaycan Respublikasının qurucusu, Ulu öndər Heydər Əliyevin 13 iyin 2000-ci il Azərbaycan Milli Konservatoriyasının və 10 avqust 2001-ci ildə Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında imzaladığı sərəncamlar əsasında, adıçəkilən ali məktəbdə başlamışdır. Balaban aləti ali təhsil ocaqlarında məhz AMK-nın rektoru, Xalq artisti, professor Siyavuş Kəriminin təşəb-büsü və dəstəyi ilə 2003-cü ildən salınmışdır. Əvvəl Xalq çalğı alətləri ifaçılığı, hal-hazırda İnstrumental ifaçılıq (alətlər üzrə) ixtisasının tərkibində balaban ifaçılığı həm bakalavr, həm də magistr pillələri üzrə tələbə hazırlığı həyata keçirilir. Milli nəfəs alətlərinin tədrisi digər xalq çalğı alətlərinin ixtisas yönümlü fənlərini tam şəkildə əhatə edərək qarşıda qoyulan tələbatları ödəyir. Məhz muğam ifaçılığının və AMK-nın "İnstru-mental-muğam" kafedrasında tədris olunan muğam və xalq musiqisi ilə bağlı olan fənlərin tədris prosesində nə qədər vacib və zəruri olduğunu bir daha vurğulamaq istərdik. Təbii ki, hər bir tədris olunan fənn müvafiq standartlara uyğun olan proqram əsasında keçirilir. Fənn proqramlarının bəzilərini nəzərdən keçirərək qeyd etmək istərdik ki, bu fənn proqramları kafedranın aparıcı professor-müəllim heyəti tərəfindən tərtib olunmuş, illərlə aprobasiyadan keçmiş, lazım olduğu halda kafedrada yenidən müzakirəyə çıxarılaraq müəyyən əlavə və dəyişiklər edilərək nəşr olunmuşlar.


Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Milli Konservatoriyası

Bakalavr təhsili üzrə balaban aləti üçün
"İxtisas-muğam" fənninin

PROQRAMI

HS-050310 Xalq çalğı alətləri ifaçılığı

Azərbaycan Respublikası Təhsil Nazirinin 29.11.2010-cu il tarixli, 1555 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı – 2010


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI

BAKALAVR SƏVİYYƏSİ ÜÇÜN

"İXTİSAS-MUĞAM"

FƏNNİ ÜZRƏ

PROQRAM

İXTİSAS-MUĞAM FƏNNİ ÜZRƏ

050310 – xalq çalğı alətləri ifaçılığı
(tar, kamançа, balaban, qanun və qarmon)

Azərbaycan Milli Konservatoriyasının Elmi Şurasının 13.09.2019-cu il tarixli (Protokol № 1) iclasının qərarına əsasən təsdiq edilmişdir

Bakı 2019

Misal üçün 2010-cu ildə tərtib olunan Bakalavr hazırlığı, "Xalq çalğı alətləri ifaçılığı" balaban aləti üçün "İxtisas muğam" fənn proqramını nəzərdən keçirmək istərdik. Bu proqram Ustad sənətkar, Əməkdar artist balaban ifaçısı Elşad Cabbarov və hal-hazırda AMK-nın professoru olan, sənətşünaslıq elmləri doktoru Abbasqulu Nəcəfzadə tərəfindən tərtib olunmuşdur. Beləliklə, Azərbaycan muğamlarını mükəmməl öyrənmək üçün tədris olunan "İxtisas-muğam" fənni ali məktəb tələbələrinə yüksək səviyyədə keçirilir. Burada Azərbaycan muğam sənətinin peşəkar ustadları, öz bilik və təcrübələri əsasında gələcək nəslə sənətin sirlərini ötürürlər. Milli nəfəs alətlərində (balaban, zurna, tütək, ney) muğamları dərindən öyrənib ifa etmək, nəzəri və təcrübi biliklərə yiyələnmək əsas məqsəd olaraq qarşıya qoyulmuş məsələdir. Bizim pedaqoqlar bunun öhdəsindən böyük bacarıqla gəlir və keçmişdən qalan ənənəni qorumaqla müasir dövrün gənc, amma artıq müəyyən dərəcədə öz sözünü demiş balaban ifaçıları yetişdirirlər. AMK-da ilk balaban müəllimlərindən olan mərhum Elşad Cabbarovu xüsusi olaraq qeyd etmək lazımdır. Daha sonra hal-hazırda AMK-da çalışan Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor İlham Nəcəfov və onun tələbələri öz uğur və nailiyyətləri ilə ön sıralardadırlar.

Məlumdur ki, balaban alətində ifa edən tələbə həmçinin zurna və tütək alətlərində də ifa etməyi bacarmalıdır. Tədris zamanı hər bir balaban ifaçısına, ilk növbədə, dəm tutmağı (burdon) öyrədirlər. İfa zamanı digər balaban ifaçısına və ya ansamblda olan başqa alətlərə mükəmməl müşayiət etmək bacarığı məhz balaban ifaçısının dəm tutması (solisti fasiləsiz dayaq səslə müşayiət etmək) vacibdir. Dəmkeşin əsas xüsusiyyəti burunla düzgün nəfəs alıb, nəfəsi saxlamaqdır. İfanı fasiləsiz ifa etmək üçün mütləqdir.

Tələbələr proqram üzrə hər semestrdə 2 muğam və bir zərbli muğamı öyrənməlidirlər. Muğamlar dəstgah şəklində ifa oldunduğu zaman ifaçı eyni zamanda balabanın müxtəlif növlərində ifa etməli olur. Çünki adi balabanın diapazonu dəstgahların bütün şöbələrini ifa etməyə imkan vermir. Bu səbəbdən tələb olunan məqamlarda alt, tenor, bas və pikkolo balabanlardan istifadə olunur.

Balaban alətində (solo) digər milli alətlərdə olduğu kimi, muğamların ifası olduqca təsiredici qüvvəyə malikdir. Muğam ifaçılığında əsas məsələ kimi, balabanın bir alət olaraq mükəmməl olması və qamışın "kökdə olması" mütləqdir. Azərbaycan muğamını ifa edərkən ustad sənətkarların "ştrixlərdən" istifadəsi daha təqdirəlayiqdir. Məsələn, Əli Kərimov, Bəhruz Zeynalov, Ələkbər Əsgərov, Mübariz Atayev, Abuzər Gülə-liyev, Hakim Abdullayevin adlarını xüsusi olaraq qeyd etməliyik. Hakim Abdullayevin ustalığı ondadır ki, o, balaban və klarnet alətlərində klassik muğam ifaçılıq üslubunu saxlamış və Şərq ifaçılığında duyğusallığı və ruha olan yaxınlığı qoruyub saxlamışdır.

Balaban alətində daha rahat və əlverişli ifa üçün "Segah", "Şur", "Rast" ailəsinə aid dəstgahlar qeyd olunmalıdır. Amma bu dəstgahlarda hiss və həyəcanları çatdırmaq üçün ifaçıdan böyük peşəkarlıq tələb olunur. "Hümayun" dəstgahının emosional səviyyəsi məhz bu alətin təbiəti ilə üst-üstə düşür və ifa üçün haradasa çətin olsa da, musiqini dinləyiciyə çatdırmaq baxımından daha rahatdır. Çünki bu muğam alətin ruhuna daha yaxındır və ifa baxımından da əlverişlidir.

Tədrisdə proqram üzrə balaban alətində muğamlar aşağıdakı sıralama ilə 8 semestr ərzində öyrədilir:

1. **"Mahur-Hindi" dəstgahı** ("Rast" ailəsinə daxildir. "Do" mayəli rast məqamına əsaslanır (f-noda "si"). Balabanda da həmin tonallıqda ifa olunur. Pikkolo və alt balabanda ifa olunur.
2. **"Bayatı-kürd" dəstgahı** ("Şur" ailəsinə aiddir. "Do" mayəli şur məqamına əsaslanır (f-noda "si"). Tədris prosesində Balabanda daha əlverişli "sol" mayəli Bayatı-kürd dəstgahı ifa olunur.).
3. **"Heyratı" zərbli muğamı** (Mahur-Hindi muğamının kökü əsasında, "Əraq" şöbəsinin cümlələrindən ibarətdir. Balabanda "do" mayəli rast məqamında ifa olunur**.** "Heyratı"nın ritmik frazaları adi balabanda ifa olunur).
4. **"Rəhab" dəstgahı** ("Şur" ailəsinə aiddir. "Sol" mayəli (f-noda "fa" diyez) şur məqamında ifa olunur. Öz tonallığında ifası pikkolo balabanda daha əlverişlidir.)
5. **"Qatar" dəstgahı** ("do" mayəli (f-noda "si") rast məqamında ifa olunur. Balabanda "si" bemol mayəli rast məqamında ifa olunması daha əlverişlidir Bu dəstgah həm pikkolo, həm də alt balabanda ifa olunur).
6. **"Arazbarı" zərbli muğamı** ("Şur" ailəsinə aiddir. Digər alətlərdə olduğu kimi, "sol" mayəli şur məqamında ifa olunur. Pikkolo balabanda ifa olunması daha çox məsləhət görülür.)
7. **"Rast" dəstgahı** ("sol" mayəli (f-noda "fa" diyez) rast məqamında ifa olunmalıdır. Lakin balaban aləti üçün daha əlverişli "fa" mayəli rast məqamıdır. Burada alt və tenor balabandan istifadə olunur.)
8. **"Şahnaz" dəstgahı** ("Şur" ailəsinə aiddir. "Do" mayəli (f-noda si) şur məqamında ifa olunur. Balabanda öz tonallığında ifa olunur. Burada pikkolo və adi balabandan istifadə olunur (İn E).)
9. **"Osmanlı" zərbli muğamı** ("Şur" ailəsinə aiddir. "Sol" mayəli şur məqamında ifa olunur. Pikkolo balabanda ifa olunur (İn E).)
10. **"Bayatı-Şiraz" dəstgahı** ("sol" mayəli (f-noda "fa" diyez) bayatı-şiraz məqamında ifa olunur. Balabanda öz tonallığında tenor, alt və pikkolo balabanlarda ifa olunur.
11. **"Mirzə Hüseyn segahı" dəstgahı** ("lya" mayəli (f-noda "sol" diyez) segah məqamı əsasında ifa olunur. Balabanda öz tonallığında alt və pikkolo balabanda ifa olunur)
12. **"Qarabağ şikəstəsi" zərbli muğamı** ("lya" mayəli (f-noda "sol" diyez) segah məqamı əsasında ifa olunur. Balabanda öz tonallığında və pikkolo balabanda ifa olunması tövsiyə olunur)
13. **"Zabul -Segah" dəstgahı** ("Segah" muğamı ailəsinə aiddir. "Mi" mayəli (f-noda "re" diyez) segah məqamına əsaslanır. Balabanda öz tonallığında tenor və alt balabanlarda ifa olunur)
14. **"Şüştər" dəstgahı** ("sol" mayəli (f-noda "fa" diyez) şüştər məqamında ifa olunur. Balabanda eyni tonallıqda və pikkolo balabanda ifa olunması tövsiyə edilir)
15. **"Kəsmə şikəstə" zərbli muğamı** ("lya" mayəli (f-noda "sol" diyez) segah məqamı əsasındadır. Balabanda öz tonallığında və pikkolo balabanda ifa olunması tövsiyə olunur)

16. "Çoban bayatı" muğamı (Bu muğamın pikkolo tütəkdə "si" bemol (f-noda "lya") səsində ifa olunması tövsiyə olunur)

17. "Bayatı-Qacar" dəstgahı ("Rast" ailəsinə aid edilir. "Si" bemol mayəli rast məqamına əsaslanır. Balabanda eyni ilə öz tonallığında ifa olunur. Burada alt, tenor və pikkolo balabandan istifadə olunur)

18. "Hümayun" dəstgahı ("si" bemol mayəlidir (f-noda "lya"). Balabanda da öz tonallığında alt və pikkolo balabanda ifa olunur)

19. "Ovşarı" zərbli muğamı ("Şüştər" muğamının ahəngi əsasındadır. "Sol" səsində, pikkolo balabanda ifa olunması tövsiyə olunur)

20. "Heydəri" zərbli muğamı ("Şüştər" muğamının ahəngi əsasındadır. "Sol" səsində (f-noda "fa" diyez), pikkolo balabanda ifa olunması tövsiyə olunur).

21. "Şur" dəstgahı ("sol" mayəli (f-noda "fa" diyez) şur məqamında, alt, tenor, pikkolo balabanda ifa olunur)

22. "Orta Mahur" dəstgahı ("Rast" ailəsinə aiddir. "Fa" mayəli rast məqamında alt, tenor və pikkollo balabanda ifa olinur).

23. "Səmayi-şəms" zərbli muğamı ("Şur" muğamının ahəngi əsasındadır. "Sol" səsində (f-noda "fa" diyez), pikkolo balabanda ifa olunması tövsiyə olunur)

24. "Çahargah" dəstgahı ("do" mayəli çahargah məqamında pikkolo və alt balabanda ifa olunur)

25. "Xaric Segah" dəstgahı ("si" mayəli (f-noda "lya" diyez) segah məqamına əsaslanır. Lakin balabanda "lya" mayəli məqam əsasında ifa olunması daha əlverişlidir. Alt, tenor, pikkolo balabanda ifa olunur).

26. "Mənsuriyyə" zərbli muğamı ("Cahargah" muğamının ahəngindədir. "do" mayəli çahargah məqamında ifa olunur. Pikkolo balabanda ifa olunması məsləhət verilir).

27. "Şirvan şikəstəsi" zərbli muğamı ("Segah" muğamının ahəngindədir. "Mi" səsindən alt balabanda ifa olunması tövsiyə edilir).

Balaban alətinin magistr səviyyəsi üzrə tədrisi də 2014-ci ildən məhz AMK-da həyata keçirilir. Magistr səviyyəsi üzrə digər alətlərdə olduğu kimi, qədim muğamların öyrənilməsi, elmi səviyyədə araş-dırılması məqsədyönlü şəkildə aparılır. Beləliklə, "İnstrumental-muğam" ifaçılığı fənnin tədris proqramına "Nəva", "Dəşti", "Dügah" muğam dəstgahları, "Şirvan şikəstəsi", "Üzzal", "Kərəmi" zərbli muğamları salın-mışdır. Məlumdur ki, bu muğamlar xanəndə və sazəndələrin repertuarında rast gəlinən muğamlardır. Məhz bu səbəbdən onların tədrisdə keçirilməsi məqsədəuyğundur.

Balaban alətində ifaçılıqdan söz açarkən, müəyyən bir anlaşılmayan məsələyə aydınlıq gətirməyə çalışacağıq. Beləliklə, elmi şəkildə təsdiqlənən və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində nümayiş etdirilən nümunələr əsasında balaban alətinin növləri və diapazonları aşağıdakı kimi verilmişdir [1, s. 101-102]:

- **Soprano balabanın** diapazonu kiçik oktavanın "sol" səsindən II oktavanın "do" səsinə qədər ;
- **Alt balabanın** diapazonu kiçik oktavanın "mi" bemol səsindən II oktavanın "re" diyez səsinə qədər;
- **Tenor balabanın** diapazonu böyük oktavanın "si" səsindən I oktavanın "sol" səsinə qədər.
- **Bas (bəm) balabanın** diapazonu böyük oktavanın "fa" diyez səsindən I oktavanın "re" diyez səsinə qədərdir.

Lakin praktikada həm ifaçılar, həm də bu alət üçün əsər yazan bəstəkarlar alətlərin növlərinin bir qədər fərqli təsnifatını verirlər. Xatırladaq ki, Azərbaycan ifaçılıq sənətində (ansambllar və xalq çalğı alətləri orkestrlərində) milli nəfəs alətləri xüsusən "in H" kökündə istifadə olunur. Bu baxımdan aşağıda göstər-diyimiz alətlərin diapazonları yazıldığından fortepianoya nəzərən yarım ton bəm (məsələn, balabanda "do" fortepianoda ""si") səslənir.

- **Soprano balabanın** adı demək olar ki, istifadə edilmir. Bəzi hallarda soprano dedikdə də pikkolo aləti nəzərdə tutulur. **Pikkolo balabanın** (Cürə balaban) diapazonu I oktavanın "do" səsindən II oktavanın "sol" səsinə qədər.

- **Alt balabanın** diapazonu kiçik oktavanın "sol" səsindən II oktavanın "do" səsinə qədərdir (yəni yuxarda qeyd edilən soprano balabanda olduğu kimi). Bəstəkarlar onu partiturada alt balabanı kimi qeyd edir və bəzən bu aləti orkestr balabanı da adlandırırlar.
- **Tenor balabanın** diapazonu böyük oktavanın "si" səsindən I oktavanın "sol" səsinə qədər.
- **Bas (bəm) balabanın** diapazonu böyük oktavanın "sol" səsindən I oktavanın "do" səsinə qədərdir.

İlk dəfə olaraq tenor balaban və bas balabanın təkminləşdirilmiş növünü Azərbaycan Milli Konser-vatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi və balaban ifaçısı Babaxan Əmirov Bəstəkarlar İttifaqında təqdimatını keçirərək ictimaiyyətə nümayiş etdirmişlər. Burada balaban ifaçılarından ibarət sekstet təqdim edərək, ansamblda ifa olunan əsərlərin tam şəkildə tembrlərini əhatə etmək məqsədi ilə tenor və bas balabanlardan istifadə olunmuşdur.

Bildiyimiz kimi, zurna alətinin işlək diapazonu I oktavanın "si" bemol səsindən II oktavanın "do" səsinə qədərdir. Lakin aparılan təkminlışmə nəticəsində (Ş.Fətəliyev aləti təkminləşdirərək) I oktavanın "sol" səsindən, II oktavanın "si" bemol səsinə qədər genişləndirmişdir. Alətin diapazonunun artırılması, rəqs və muğam ifaçılığındakı imkanlarını da genişləndirmişdir. Ş.Fətəliyev həmçinin bas balaban alətini də təkmilləşdirmişdir. O, bas balabana klapan əlavə etməklə bəmdə olan "lya" səsini əldə etmişdir.

Balaban alətində ifaçılq baxımdan müəyyən problemləri aradan qaldırmaq üçün daima professional ifaçılar axtarışda olurlar. Belə bir işin öhdəsindən müasir balaban ifaçılığının dəyərli nümayəndəsi, hal-hazırda AMK-nı tələbəsi olan Rameş Ağahüseyn oğlu Paşayevin (1975-ci ildə Lənkəranda anadan olub. O, Məhəmmədli Əliyev, Eldar Fərzullayev, Elman Lütfiyev və İlyas Vəliyev kimi ustad sənətkarlardan bəhrələnmişdir) də adını çəkmək lazımdır.

Ondan aldığımız məlumata görə, bir il ərzində balabanda aparılan təkmilləşmə nəticəsində klapanların düzülüş qaydasında dəyişiklik edərək alətin diapazonunu kiçik oktavanın "mi" səsindən II oktavanın "re" səsinə qədər artırmış, hətta mahir ifaçılar "mi" bemol səsini də ifa edə bilir. Belə təkmilləşmə muğam ifaçılığında balabanın bədii-texniki imkanlarını genişləndirir. Artıq təkmilləşdirilmiş balaban üçün bəstəkarlar da geniş diapazonlu, iri həcmli əsərlər yaza bilərlər. Bu təkmilləşmiş balabanda öz tonallığında "Rast", "Bayatı-Şiraz", "Bayatı-Qacar" dəstgahlarını tam şəkildə, "Zabul-Segah" və "Şur"un "Mayə" şöbələrini də rahat şəkildə ifa etmək olar.

Əsərin adı "Təkmilləşmiş balaban"
Obyektiv forması rəqəm yazısı
Növü tətbiqi sənət əsəri
Açıqlanması açıqlanmamışdır
Qeydiyyat nömrəsi 12/C-12996-23
Qeydiyyat tarixi 24.02.2023
Müstəsna müəlliflik hüquqlarının sahib(lər)i
Rameş Ağamirzə oğlu Paşayev (Rameş Paşa)
Sifariş № Q-21.02.2023/120-8e
Şöbə müdiri Nadirə Bədəlbəyli
Mübahisə yaranan hallarda, digər sübutlar olmadıqda, qeydiyyat haqqında Şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır ("Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu, madda 8, hissə 5)
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq və Azərbaycan Respublikası Prezidentinin "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" 8 oktyabr 1996-cı il tarixli Sərəncamı ilə verilən səlahiyyətlər əsasında Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi
Müstəsna müəlliflik hüquqlarının sahib(lər)inin soyadı, adı, atasının adı: Rameş Ağamirzə oğlu Paşayevin (Rameş Paşa) "Təkmilləşmiş balaban"
əsərini qeydiyyatdan keçirmiş və bu Şəhadətnaməni vermişdir.
İdarə Heyətinin sədri Kamran İmanov

yuxarıda səsləndirdiyimiz fikrinin aşıq havaları üçün də keçərli olduğunu vurğulayaraq, iki sənət arasında mövcud olan məqam-intonasiya əlaqələrinin nəzəri mahiyyəti ilə yanaşı, həm də milli musiqi təfəkkürünün məhsulu kimi təzahür etdiyini söyləyə bilərik. Tarixin mənzərəsində aşıq və muğam sənətinin təmsilçiləri fərqli mühitlərdə yetişmişlər və yaradıcı-praktik sənət təcrübələrinin bölüşülməsi üçün (XIX əsrə qədər) şərait olmamışdır. Lakin, aşıq havalarının məqam-intonasiya xüsusiyyətlərini, kök məsələlərini araşdırarkən adları sadalanan məqamların bir qisminin bu musiqi nümunələrində təzahür etdiyini və bununla yanaşı, həm də musiqi alətlərinin köklənmə prinsipində ortaq cəhətlərin özünü göstərməsi məlum faktlardır. Əlbəttə bu cəhətlərin ayrıntılı şəkildə araşdırılaraq sistemləşdirilməsi də həllini gözləyən mühüm problemlərdən biridir. Bununla belə, qeyd etmək lazımdır ki, aşıq havalarının məqam xüsusiyyətləri ilə bağlı məsələlərə Ü.Hacıbəylinin aşıq sənəti ilə bağlı məqalələrində, eləcə də, M.İsmayılovun araşdırmalarında, Ə.Eldarovanın, T.Məmmədovun, İ.Köçərlinin, K.Dadaşzadənin və digər alimlərin tədqiqatlarında yer verilmişdir. Muğam və aşıq sənəti arasında əlaqələrin məqam kontekstində araşdırılması isə yuxarıda qeyd etdiyimiz milli, etnik ənənələrdən qaynaqlanan meyarları üzə çıxarmağa imkan verir. Bu meyarlar musiqi janrlarının məqam-intonasiya əsasında müşahidə edilən ortaq cəhətləri ilə səciyyəvidir. Məsələn, aşıq sazının müxtəlif köklərində ifa edilən havalarda müəyyən məqam-intonasiya tərkibi özünü göstərir, o cümlədən, Şah pərdə kökündə ("Ağır Şərili", "Bozuğu Koroğlu" və s.) şur, baş pərdə kökündə ("Aran gözəlləməsi", "Azaflı dübeyti" və s.) segah, orta pərdə kökündə ("Bağdad dübeyti", "Urfanı" və s.) səslənən havalar isə rast məqamına əsaslanır. Aşıqşünaslıq araşdırmalarında saz alətinin pərdə düzümünün şur məqamının səssırasını əmələ gətirməsi, eləcə də havaların sonunda aşıqların bu məqam üzərində kadans yaratması dəfələrlə qeyd edilmişdir: "Aşıq mahnılarının çoxunda intonasiya, lad əsası və harmonik fon şur ladı ilə müəyyənləşir" [6, s.72]. Məsələnin dərinliyinə varanda, fərqli mədəni mühitlərdə formalaşıb təşəkkül tapan aşıq və muğam janrlarının musiqi dilində ortaq məqam intonasiyaların yer almasını necə izah etmək olar? Bunun üçün sazın pərdə düzülüşünə nəzər salmaq kifayətdir. Saz aləti haqqında araşdırmalarda onun qopuz alətinin xələfi olması, quruluş oxşarlığı təsbit edilmişdir. Bu da deməyə əsas verir ki, alətin pərdə düzümünün mərhələli inkişaf prosesində qədim türk tayfalarının musiqi yaradıcılığı rol oynamışdır. Təbii ki, bu gün ifa edilən sazla erkən orta əsrlərdə çalınan qopuzun (telli) pərdə sayı və düzülüşü arasında fərq vardır. Lakin, musiqi alətlərinin evolyusiyası və melodik intonasiyanın inkişaf prosesində baş verən mərhələlilik prinsipinə nəzər salaraq, bu fərqi izah etmək mümkündür. Hətta aşıq sazının XVI əsrdən bu günə qədər keçdiyi təkmilləşmə mərhələləri də eyni prinsipə əsaslanmışdır. XIX əsrin I yarısından başlayaraq təkmilləşmə dövrünü demək olar ki, başa vurmuş sazın pərdə düzülüşündə şur məqamının səssırasının müşahidə olunması, eləcə də pərdə sayının artması ilə digər məqamların səssırasının tədricən əmələ gəlməsi faktı dəstgah janrının quruluş meyarlarının və daxili inkişaf prinsipinin, şöbə ardıcıllığının kristallaşması ilə səsləşir. Bu musiqi hadisəsinin eyni tarixi mərhələyə təsadüf etməsi belə qənaətə gəlməyə imkan verir ki, aşıq (musiqi yaradıcılığı baxımından daha çox) və muğam sənətinin məhz bu dövrdə çiçəklənməsi, yüksək peşəkarlıq zirvəsinə çatması həm də Azərbaycan xalqının musiqi mədəniyyətində baş verən bədii təfəkkür meyarlarının yüksəlməsi ilə birbaşa bağlıdır. Nəticədə hər iki sənətdə forma və məzmun vəhdəti, üslub, janr, instrumental ifaçılıq məharəti sürətlə inkişafa uğramışdır. Bu inkişafın nəticələri isə özünü praktik ifaçılıq sənətində, repertuar zənginləşməsində, eləcə də vokal və instrumental üslubların qarşılıqlı şəkildə bir-birinə nüfuz edərək mənimsənilməsində özünü göstərmişdir.

XIX əsrin ikinci yarısından başlayaraq el şənliklərində aşıqlarla eyni məkanda sənət nümayiş etdirən muğam ifaçıları arasında sıx yaradıcılıq əlaqələri və qarşılıqlı təcrübə mübadiləsi baş vermişdir. Azərbaycan ərazisində həm aşıq, həm muğam sənətinin daha qabarıq inkişaf etdiyi mühitlərdə mövqe fərqi ilə yanaşı, ifaçılıq mədəniyyəti və sənət təcrübəsinin peşəkarlaşması prosesində aşığın xanəndəyə və ya xanəndənin aşığa təsiri maraqlı faktlarla özünü göstərmişdir. Bu mənada Şirvan mühitində "aşıq xanəndəsi" titulunun olması, eləcə də Qarabağ və Şirvan aşıqlarının peşəkar səviyyədə muğam ifa etmək bacarığı, instrumental ifaçılığın muğam üslubu istiqamətində inkişaf etməsi, vokal səsin imkanlarının həm aşıq, həm də xanəndə boğazları ilə zənginləşməsi iki sənət arasında baş verən əlaqələrin təzahür formalarıdır. Bu proses bir sıra janrların təkmilləşməsi, eləcə də bir repertuardan digərinə keçidi, tranformasiyası və variantlarının yaranması ilə nəticələnmişdir. Şikəstələr və zərbli muğamlar bu prosesin

parlaq nəticələridir. Şikəstə janrı hər iki sənət nümayəndələrinin repertuarında ortaq mövqe tutaraq yeni variantlarının yaranması ilə səciyyəvi olmuşdur. Bu mənada "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" kimi musiqi nümunələri müasir dövrdə öz mövcudluğunu yalnız xanəndə repertuarında davam etdirməkdədir. Lakin onların da mənşəyinin məhz aşıq yaradıcılığı olması şübhə doğurmur. Bu məsələ üzərində bir qədər geniş dayanmaq istərdim. Musiqişünaslıq elmimizdə qərarlaşmış klassifikasiya üsullarından biri olan bəhri, bəhrsiz və qarışıq bəhrli qruplarının tərkibinə aşıq və muğam sənəti üçün səciyyəvi olan musiqi janrları da daxildir. Bu janrlarda qarışıq bəhrli qrupun ehtiva etdiyi cəhətlər öz əksini tapmışdır. Bu haqda Ü.Hacıbəyli "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində [8, s.379] məlumat vermiş, ayrıca qrup kimi isə M.İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları" monoqrafiyasında [11, s.84] təqdim olunmuşdur. Qrupa daxil olan janrlardan zərbli muğamlar R.Zöhrabovun, şikəstələr isə İ.Köçərlinin tədqiqatlarında xüsusi obyekt kimi araşdırılmışdır. Nəticə etibarilə şikəstələr, aşıq havalarının bir qismi və zərbli muğamları əhatə edən qarışıq bəhrli janr qrupunda yer alan musiqi nümunələrinin təhlili bir neçə əsas məqamı vurğulamağı zəruri edir. Janr qrupunda "qarışıq bəhr" ifadəsini tələb edən reçitativ-deklamasiyalı üslub əsas etibarilə vokal partiyalara aiddir. Yəni, həm şikəstələrdə, həm də zərbli muğamlarda ("Arazbarı" istisna olmaqla) vokal partiya məhz reçitativ-deklamasiyalı üslubda ifa edilir, instrumental partiyalar isə dəqiq ritmə əsaslanır. Diqqət çəkmək istədiyim əsas məqam məhz reçitativ-deklamasiyalı oxu tərzi ilə əlaqədardır. Məlumdur ki, aşıq havalarının əsas qismində vokal partiya məhz bu üslubdadır. Aşıq havaları ilə bağlı klassifikasiyalarda bu havalar ayrıca qrup kimi təqdim olunmuşdur. Eyni şəkildə muğam tədqiqatlarında zərbli muğamlar da xüsusi janr qrupu kimi dəyərləndirilir. Bu xüsusiliyi yaradan əsas səbəb isə janrın vokal və instrumental partiyaları arasında yaranan bəhr fərqi, eləcə də dəstgah janrından fərqli olan birhissəli quruluşu, bir qismində poetik məzmunun xalq şeirinə əsaslanması və s. kimi cəhətlərlə səciyyəvidir. Diqqət etdikdə görürük ki, eyni cəhətlər reçitativ-deklamasiyalı aşıq havalarında da büruzə verir. Əgər nəzərə alsaq ki, zərbli muğamlar əsas etibarilə XIX əsrdən təşəkkül tapmışdısa, aşıq havalarının bu mənada tarixi mənşəyi daha qədimdir. Nəticə etibarilə sadalanan cəhətlər zərbli muğam janrının əsas meyarlarının kökünü aşıq sənətində axtarmaq ehtiyacı yaratmışdır. Bu mənada aşıqşünas alim İ.Köçərlinin şikəstə janrına həsr olunmuş xüsusi tədqiqatı qeyd oluna bilər: "…şikəstə tarixən aşıq yaradıcılığının məhsulu olmuş, sonrakı təkamül, inkişaf prosesində Azərbaycan xalq musiqi yaradıcılığının bütün qolları ilə qovuşmuş, xalq mahnı və rəqs yaradıcılığı, muğam sənətinin uyğun cəhətlərini mənimsəmiş və nəhayət, xanəndə sənətində son dərəcə təkmilləşmiş bir forma almışdır" [13, s.27] deyən alim janrın hər iki sənətdə mövqeyini təhlil edərək üzə çıxarmış və yuxarıda qeyd etdiyimiz cəhətləri bu keçidin baş verməsi üçün münbit şərait yaratdığı qənaətinə gəlmişdir. Fikrimizi bir qədər də inkişaf etdirərək demək istərdik ki, şikəstələrlə ("Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi", "Zarıncı şikəstə") yanaşı muğam sənətinə bir sıra aşıq havaları da yol tapmışdır ki, onların sırasında "Güllü qafiyə", "Döymə Kərəmi", "Çoban bayatı", "Arazbarı", "Ovşarı", "Mani" kimi musiqi nümunələrinin də adını çəkmək lazımdır. Bu havaların bir qismi öz janr mövqeyini qoruyub saxlayaraq, digərləri isə yeni janr transformasiyasına uğrayaraq xanəndə repertuarına daxil olmuşdur. Muğam sənətində zərbli muğam kimi tanınan "Arazbarı", "Ovşarı", "Mani", kiçik həcmli muğam kimi daxil təşəkkül tapan "Çoban bayatı", zərbli muğam mövqeyi daşısa da adını qoruyub saxlamış "Qarabağ və Şirvan şikəstələri" ortaq repertuarı əmələ gətirmişdir. Bununla yanaşı müəyyən adlarla bağlı maraqlı məqamlar da müşahidə olunmuşdur. Məsələn, "Heydəri", "Keşiş oğlu" aşıq havaları ilə "Heydəri" zərbli muğamı və "Keşiş oğlu" muğam şöbəsi (Şüştər) arasında müqayisələr aparılarkən şur və şüştər məqamlarının qarşılaşmasının şahidi oluruq. Belə ki, hər iki hava aşıq sənətində şur məqamına istinad edir, muğam sənətində isə şüştər kökü özünü göstərir. Bununla belə qeyd etmək lazımdır ki, "Heydəri" aşıq havasının musiqi məzmunu "Mani" zərbli muğamında müşahidə edilir. "Keşişoğlu" şöbəsinin XIX əsrdə Şüştər muğam dəstgahının tərkibində yer alması haqqında informasiya verilir, lakin müasir dövrdə bu şöbə ifa olunmur. Əslində adlardan irəli gələn eynilik hər iki sənətin şifahi şəkildə yaranıb-ötürülməsi faktı ilə bağlıdır. "Heydəri" aşıq havası onu yaradan aşığın adı ilə bağlıdır. Hətta onun poetik mətni ilə bağlı "Məmmədhüseyni" kimi adlanması faktı da məlumdur [12, s.46]. Eyni fikir digər hava üçün də keçərlidir. Muğam sənətinə bu adların yol tapması məsələsi də müəyyən şəxslərlə bağlı ola bilər. Bu yanaşmanı "Hüseyni" aşıq havası ilə Rast muğam dəstgahının eyniadlı şöbəsi üçün də tətbiq

etmək mümkündür. "Hüseyni" havasının yaradıcısı Aşıq Hüseyn Şəmkirli hesab olunur və havanın Borçalı mühitində adı "Dastanı"dır [2, s.5]. Muğam sənətində də müəyyən dəstgahların, eləcə də şöbə və guşələrin şəxs və ya yer adları ilə bağlılığı faktı məlumdur. Nəticə olaraq deyə bilərik, bəzi zahiri əlaqə faktı kimi görünən informasiyalar əslində fərqli məzmun yükü daşıya bilər. Bununla belə, belə faktların olması həm də bir tədqiqatçı olaraq məsələnin tarixi, etimoloji, sosial və digər aspektlərdən mənşəyinin öyrənilməsini zəruri edir.

Aşıq və muğam sənəti arasında əlaqələrin həm də muğam ifaçılığına təsiri məsələsini də qeyd etməyi lazım bilirik. Azərbaycan xalq musiqisinin peşəkar ifaçısı olan vokal sənətimizin banisi Bülbül Məmmədov hələ XX əsrin I yarısında baş tutmuş aşıq III aşıq qurultayındakı məruzəsində bu barədə qeyd edirdi: "…Gəncə, Qarabağ və Şamaxı aşıqları çox gözəl və səsli xanəndələrlə həməsr olmuş və məşhur aşıqlar xanəndəliyin zəngulə kimi bəzəklərini aşıqlığa aşılamışlar. Xanəndələrsə aşıq sənətinin ən yaxşı tərəfləri hesabına muğamları genişləndirmiş və aşıq xalları, aşıq guşələri hesabına yeni boyalar və yeni məlahətlər tapmışlar. Bu təbii artırmalar vaxtın tələbinə uyğun olmuş, xanəndəliyə yeni təravət gətirmiş və xalq muğamatını yeni guşələrlə bəzəmişdir. Xalqın sevimlisi olan bu məşhur xanəndələr bu artırmalara çox həssaslıqla yanaşmışlar. Şüurlu musiqi təfəkkürü kimi bir xalq musiqi məktəbi düzəltmişlər.." [5, s.23]. Bülbül Məmmədovun təsvir etdiyi bu proses XIX əsrin ikinci yarısından etibarən daha intensiv xarakter alaraq hər iki ifaçılıq mədəniyyətinin yüksəlməsinə, zənginləşməsinə və peşəkarlığın yeni meyarlarının əldə edilməsinə gətirib çıxarmışdır.

Aşıq və muğam sənəti arasında yaradıcı əlaqələrin genişlənməsi və yeni müstəvidə davam etməsi həm də XX əsrin ikinci yarısında etibarən sürətlə inkişaf edən müasir texnologiyalar, eləcə də efir məkanı, internet şəbəkələrinin yaratdığı geniş imkanlar hesabına təbliğat mexanizminin güclənməsi ilə əlaqədardır. Xüsusilə qeyd etmək istərdim ki, bu mənada Azərbaycan dövlətinin apardığı uğurlu mədəniyyət siyasətinin də rolu böyükdür. 2009-cu ildən etibarən təşkil edilən Beynəlxalq Muğam Festivalları və muğam sənətinin tədqiqinə böyük töhfələr verən simpoziumların təşkili, aşıq və muğam televiziya müsabiqələrinin həyata keçirilməsi, hər iki sənətin təbliğinə yönələn çoxsaylı layihələr [10] (aşıq və muğam sənətinin YUNESKO-nun dünyanın qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi, "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" albomu, "Muğam-İrs", "Muğam-dəstgah", "Muğam-ensiklopediya", "Muğam-internet", "Muğam-antologiya", "Muğam aləmi", "Muğam mərkəzi" layihələri) yeni yaradıcı əlaqələrin formalaşmasına və əldə edilmiş nailiyyətlərin yeni, müasir səviyyədə davam etdirilməsinə zəmin yaradır. Məlumdur ki, müasir dövrdə efir və sosial şəbəkələr əsas təbliğat vasitəsidir. Bu imkanlardan istifadə edərək aşıq və muğam sənətinin təbliğ edilməsi həm də yaradıcı əlaqələrin genişlənməsinə, tədqiqat istiqamətlərinin çoxalmasına, məsələnin nəinki Azərbaycan çərçivəsində, həm də ümumtürk və ümumşərq kontekstində aparılmasına münbit şərait yaratmış olur.

Beləliklə, Azərbaycan muğam sənətinin, dəstgah janrının inkişafında milli etnik ənənələrin rolu kontesktində aşıq sənətinin mövqeyinin araşdırılması bir sıra əsas nəticələri ortaya qoymağa imkan verir. Bu əlaqələr həm tarixi, həm də nəzəri-praktik səviyyədə baş tutaraq hər iki sənətin təkmilləşməsinə, janr xüsusiyyətlərinin zənginləşərək yeni keyfiyyətlər əldə etməsinə, yeni növlərin yaranmasına və xüsusilə ifaçılıq mədəniyyətinin yüksəlməsinə xidmət etmişdir. Tarixin müxtəlif mərhələlərində öz bədii-estetik məzmununu dəyişən qarşılıqlı əlaqə və təsir prosesinin yeni mərhələsi XIX əsrin ikinci yarısından başlamış və yüksələn xətt üzrə davam etmişdir. Aşıq sənətinin dəstgahın formalaşmasına təsiri vahid kompozisiya, yüksələn xətt üzrə inkişaf prinsipi, sabit və dəyişən hissələr, eləcə də məqam-intonasiya, ritm, ifadə üslubu (reçitativ-deklamasiya və muğam improvizasiya (*ad libitum*) qarşılaşması) kimi cəhətlərlə səciyyəvi olmuşdur. Geniş mənada aşıq və muğam sənəti arasında əlaqələrin tədqiqi isə həmin cəhətlərin həm də janr transformasiyası, məqam-kök məsələləri, instrumental və vokal ifaçılıq üslublarının, repertuarın ortaq cəhətlər əldə etməsi ilə xarakterizə edilə bilər. Bununla da həm aşıq, həm də muğam sənətinin əslində eyni xalqın musiqi təfəkkürünün məhsulu kimi əsrlərlə dünya mədəniyyətinin nailiyyətlərindən bəhrələnərək inkişaf etdiyini, qarşılıqlı şəkildə biri-digərini zənginləşdirməsi, Şərq və türk xalqlarının analoji sənət nümunələri ilə müqayisədə daha yüksək səviyyəyə yüksəldiyini söyləmək üçün kifayət qədər əsas olduğunu deyə bilərik.

ƏDƏBİYYAT:

1. Abdullazadə G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil / Bakı: Qartal, 1996. 292 s.
2. Aşıq Hüseyn Şəmkirli "Reyhan" dastanı / tər.İ.T.Köçərli. Bakı: ADMİU, 2018. 131 s.
3. Azərbaycan musiqi tarixi [5 cilddə] / Elmi red. Z.Y.Səfərova. Bakı: Şərq-Qərb, I cild, 2012. 592 s.
4. Bağırova S.Y. Azərbaycan muğamı / Bakı: Elm, II cild, 2007. 152 s.
5. Bülbül. III aşıq qurultayından məruzəsi (1961) // Bakı: Musiqi dünyası, 2002. №3-4, s.21-24.
6. Eldarova Ə.M. Azərbaycan aşıq sənəti / Bakı: Elm, 1992. 168 s.
7. Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri / Tər.K.Kərimli. Bakı: TEAS Press, 2022. 786 s.
8. Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri / II cild, Bakı: Şərq-Qərb, II cild, 2005. 456 s.
9. Hacıbəyli Ü.Ə. Azərbaycan türk xalq musiqisi haqqında // http://uzeyir.musigi-dunya.az/az/article6.html
10. Heydər Əliyev Fondu // https://heydar-aliyev-foundation.org/az/content/blog/73/M%C9%99d%C9%99niyy%C9%99t
11. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları / Bakı: Mütərcim, 2023. 135 s.
12. İzahlı saz-söz lüğəti / Tərt. T.A.Məmmədov. Bakı: Elmin inkişafı fondu, 2015.
13. Köçərli İ.T. Azərbaycan xalq musiqi yaradıcılığında şikəstə / Bakı: Tural, 2003. 124 s
14. Qasımlı M.P. Aşıq və "Haqq aşığı" sənətkar və ad-titulu kimi // Bakı: Ozan dünyası, 2014. №4(19), s.3-11.

    rus dilində
15. Агаева С.Х. Тюркский эпос «Деде Коркуд» и проблема восстановления музыки средних веков // Материалы международной научно-практической конференции- Наследие Коркыт ата: эпическая культура, древние легенды и мелодии, Кызылорда, 27-29 сентября 2017. с.125-136.

Фарогат АЗИЗИ

Доктор искусствоведения, профессор,
Таджикская Национальная Консерватория им. Т.Сатторова
Email: farog48aziz@mail.ru

ТРАКТАТ ПО ШАШМАКОМУ УСТОДА ФАЗЛИДДИНА ШАХОБОВА: КЛАССИКА В СОВРЕМЕННОСТИ

Аннотация: *Трактат «Баёзи Шашмаком» Фазлиддина Шахобова, великого таджикского учёного-макомиста является единственным трактатом Шашмакома, созданным в советское время и написанным представителем Таджикской (Бухарской) классической школы макома. Интересны история создания, завуалированная форма подачи трактата, тщательно продуманные автором. В 50-е годы прошлого века баёз явился одной из охранительных форм этого шедевра. В современном музыкознании – это ценнейший источник в изучении классического Шашмакома.*

Ключевые слова: *баёз, сарахбор, тарона, Уззол, Ушшок, Бузрук, мисраъ, хат, миёнхат, сархат, бозгуй, бозгуи аввал, даромад, маком, шуъба, Оразранг, Навоандак, фурудошт, тезгох*

Faroghat AZIZI
Doctor of Arts, Professor,
Tajik National Conservatory named after T. Sattorov

TREATISE ON SHASHMAQOM OF USTOD FAZLIDDIN SHAKHOBOV: CLASSICS IN MODERNITY

Abstract: *The treatise «Bayozi Shashmaqom» by Fazliddin Shakhobov, the great Tajik scholar-makomist, is the only Shashmaqom treatise created in Soviet times and written by a representative of the Tajik (Bukhara) classical school of maqom. The history of creation, the veiled form of presentation of the treatise, carefully thought out by the author, are interesting. In the 50s of the last century, bayoz was one of the protective forms of this masterpiece. In modern musicology, this is the most valuable source in the study of classical Shashmaqom.*

Keywords: *bayoz, sarakhbor, tarona, Uzzol, Ushshoq, Buzruk, misra, khat, miyonkhat, sarkhat, bozguy, bozguyi avval, daromad, maqom, shu'ba, Orazrang, Navoandak, furudosht, tezgoh*

Faroghat AZİZİ
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
T.Səttarov adına Tacik Milli Konservatoriyasının Professoru

USTOD FƏZLİDDİN ŞAHOBOVUN ŞAŞMAKOM ÜZRƏ RİSALƏSİ: MÜASİRLİKDƏ KLASİKA

Xülasə: *Böyük tacik makomşünas alim Fəzliddin Şaxobovun "Bəyozi Şaşmaqom" traktatı sovet dövründə yaradılmış və tacik (Buxara) klassik makom məktəbinin nümayəndəsi tərəfindən yazılmış yeganə Şaşmakom risaləsidir. Risalənin yaranma tarixi, üstüörtülü təqdimat forması maraqlıdır və müəllifin təxəyyülünün məhsuludur. Ötən əsrin 50-ci illərində bəyoz bu şah əsərin qoruyucu formalarından biri idi. Müasir musiqişünaslıqda bu risalə klassik Şaşmakomun tədqiqində ən qiymətli mənbələrdən biridir.*

Açar sözlər: *bəyoz, sərəxbor, tarona, Uzzol, Uşşok, Buzruk, misra, xat, miyonxat, sərhat, bozquy, bozquyi əvvəl, dəraməd, makom, şöbə, Orazrəng, Nəvoəndək, furudoşt, tezqox*

«Баёзи Шашмаком» Фазлиддина Шахобова (1911-1974), великого таджикского учёного-макомиста является единственным трактатом Шашмакома, написанным в советское время (1), написанным представителем Таджикской (Бухарской) классической школы макома (2). Интересны история создания, завуалированное оформление, форма подачи трактата, тщательно продуманные автором.

Известно, что каждый вид макамата порождает определенную, свою форму музыкального трактата. Такая неизбежность обусловлена тем, что каждый исторический вид макамата имеет свою теорию и практическую теорию. Отсюда два вида трактатов – сугубо теоретический (академический) и практически-теоретический. Эта классификация достаточно общая, поскольку эти два вида имеют множество проявлений.

В истории таджикской музыки макамат прошёл три этапа развития [1]. В основу данной периодизации лежат следующие критерии:

- возникновение новой системы макамата;
- определение нового системно-базового музыкального инструмента;
- новое толкование музыки;
- изменения в школе устод-шогирд.

Следуя этой периодизации, в истории таджикского макамата можно определить три системы макома:

- Хафтпарда (V-VI вв.);
- Дувоздахпарда /Дувоздахмаком (XII- первая половина XVIII в.);
- Шашмаком (вторая половина XVIII в. и – по ныне).

Каждый из этих видов макамата породил свой музыкальный трактат, где изложена его наука: основа ладовой системы, исполнительские каноны и пр.

В нашей статье речь пойдёт о музыкальном трактате Шашмакома, и конкретно о самом совершенном его виде, трактата «*Баёзи Шашмаком. Рисолаи Шашмаком*» великого Устода Шашмакома Фазлиддина Шахобова [10; 11]. Фигура Фазлиддина Шахобова в таджикской музыке достаточна многосторонняя. Он композитор, знаток Шашмакома, певец-макомист, непревзойдённый танбурист, создавший свою собственную школу исполнительства, первый советский музыковед.

Фото 1. Устод Фазлиддин Шахобов

Его творческая и научная деятельность насыщены уникальными проявлениями высокого служения музыке. Долгие годы, со дня создания руководил ансамблем макомистов радио и телевидения, являлся председателем Союза композиторов. Всё он делал по зову души. И такое отношение придавало его деятельности особую плодотворность и целеустремлённость. О написании музыкального трактата им самим нигде не сказано. Через него Устод инициирует путь к жизни Шашмакома в современное ему общество. И цель его написания весьма конкретна. Через свой трактат в 50-е – 60-е годы он вёл большую музыкально-просветительскую работу. Его трактат отличается совершенством в научном, методологическом плане. Продолжая устойчивую традицию трактатописания классического этапа в развитии Шашмакома, Устод Шахобов предложил ту форму трактата-*баёз*-а, которые отвечает требованиям его времени. И создание этой формы *баёз*-а принадлежит ему.

Зарождение жанра музыкального трактата *баёз* относится к концу XVIII – началу XIX века. Как и трактаты прежних веков, он является порождением конкретной школы макома, в данном

случае, – *Бухарской классической школы Шашмакома*. Существует большое количество анонимных баёзов. Все эти трактаты, несмотря на известное или анонимное авторство, озаглавлены «Рисолаи Шашмаком» («Трактат о Шашмакоме»). Зарождение Шашмакома на сегодняшний день в музыковедческой науке относят к концу XVIII столетия[21]. Известно, что к этому времени проявилась концепция Шашмакома, тогда как цикл Шашмакома, который имеем сегодня продолжает своё совершенствование до первой половины 20-х годов прошлого века. Изучая *баёз*-ы, можно прийти к выводу о том, что музыкальный трактат *баёз* функционально изначально был предназначен на отражение процесса развития Шашмакома (1). Об этом свидетельствует, помимо прямых утверждений о том, что «музыкальный трактат-*баёз* проявился в течении XVIII – начала XX века» [3, с. 12], ещё и то, что *баёз* всегда посвящён Шашмакому, а не другой форме макомата (2) и что именно *баёз* явился единственным письменным источником в истории Шашмакома, который с XVIII по начало XX века адекватно отразил его становление (3). По данным *баёз*-ов XVIII-XIX вв. можно проследить формирование Шашмакома-цикла. Например, в «*Рисолаи Шашмаком*» неизвестного автора Маком Рост приводится с составными частями *Сарахбори Рост* (представленный 2-мя стихами[22]), *Тарона* (всего их 4), *Насри Рост* (их 4), *Фурудошти Ушшок* (2) [3, с. 37-40]. К каждой составной части приведены газели, на которые эти части пелись. Если сравнить эту структуру с нынешней формоструктурой макома Рост, то обнаруживается, что *Сарахбори Рост*, сохранив месторасположение в цикле, представляется ныне одной газелью Хафиза [13, с.33-43].

Рассмотрение жанра *сарахбор* в нескольких *баёз*-ах Шашмакома [3, с.41-42; 8; 4, с.230-244] обнаруживается, что главными арузными парадигмами, использующимися в этом жанре являются *рамал, музореъ, муджтас* в их полном *(мусамман)* виде. Это подтверждается и нынешними *сарахбор*-ами в Шашмакоме.

В ладовом отношении, согласно *баёз*-ам XVIII-XIX вв. *Уззол* и *Насруллохи* входят в систему Бузрук, Ушшок и Сабо – в систему Рост, Ораз и Баёт – в Наво, Чахоргох – в Дугох, Хоро и Аджам – в Сегох и т.д., словом, проглядывается соотношение ладов-макомов нынешнего Шашмакома, то есть в нём сохранилось изначальное родство ладов-макомов. Но в некоторых случаях *баёз*-ы предлагают конкретику, которой в поздних вариантах нет. Например, лад Сегох указан в Шашмакоме XX века как бифункциональный ладозвукоряд, тогда как ранее он представлялся вариантом Сегох: «*Мақоми Сегоҳ, яъне Ҳичоз, ки яке аз шаш мақом аст..*» («Маком Сегох, то есть Хиджоз, что и есть один из шести макомов»)[23] ё «*Ҳичоз, ки яке аз Сегоҳ аст*» («Хиджоз, который и есть одним из [разновидностей – Ф.А.] Сегох») [3, с. 94-95]. В других случаях аналогичная конкретика существует по отношению композиционного фактора, например, «*Муҳайяр, ки яке аз Насри Ироқ аст..*» («Мухайяр, который и есть одним из Насри Ирок») [3, с. 109]. В сегодняшнем Шашмакоме [14] выступающих в качестве насра в шести макомах почти десять музыкальных произведений, но в макомоведении является само собой разумеющимся считать их *наср*-ами.

Баёз-ы-трактаты частично отличаются и приводимым жанровым кругом. Наряду со многими известными нам сегодня по практике макомов, в них приведены такие жанры макомной музыки, которые ныне не встречаются в этой функции. Среди последних – *фурудошт, сувори*, обобщённый жанр *амалот, бозгуй* (как самостоятельный вокальной части), *нагма, шуъба, газал, тезгох, фаровард, муночот, китъа, фард*.

Таким образом, *баёз*-ы-трактаты конца XVIII – начала XX века зафиксировали реальный процесс хода развития Шашмакома, указывая на все нюансы изменяющегося процесса в нём. Эти *баёз*-ы относятся к практической теории макомов.

---

[21] Это предположение относится узбекскому музыковеду Исхаку Раджабову [7, с.104]. В музыковедении до сих пор никто не опровергал данное предположение. Поэтому мы также руководствуемся им.

[22] В этом же трактате *Сарахбор* макома *Наво* также представлен двумя стихами [3, с.41-42], макома *Дугох* – одним [3, с.45], маком Сегох – одним стихом [3, с.47]. В другом трактате к Сарахбору Рост дан один стих [3, с.54].

[23] Здесь имеет место неверное прочтение [3, с.94]: «*Мақоми Сегоҳ, яъне Ҳичоз, ки яке аз «Шашмақом»* аст...» («Маком Сегох, то есть Хиджоз, который является одним из Шашмакомов»).

С образованием Советского Таджикистана, судьба Шашмакома была решена иначе. Изначально этот шедевр был отнесён к фольклору и оказался за пределами системы специального музыкального образования[24].

Таджикские мастера-макомисты Фазлиддин Шахобов, Бобокул Файзуллоев и Шохназар Сохибов переехали в Душанбе, чтобы развернуть деятельность по Шашмакому в новой столице Таджикистана. К этому времени двое из них успели получить образование (по специальности хорового дирижирования и композиции) также и в Московской государственной консерватории.

Устода Фазлиддина Шахобова, несмотря на его консерваторское образование, в сложном процессе 40-х-50-х годов в большей мере интересовала судьба классической музыки Шашмакома. Правда, он никогда не ставил одну музыкальную традицию выше другой. И, стремясь ко взаимодействию традиций, он оказался среди первых авторов жанра симфонического макома (симфоническая поэма «Сегох») в таджикской композиторской музыке.

В 1947 году официально была начата работа по нотированию Шашмакома Фазлиддином Шахобовым, Бобокулов Файзуллоевым и Шохназаром Сохибовым [12, с.156-159]. Для Таджикистана эта нотная запись особенно ценна тем, что авторы нотирования были представителями Классической школы Шашмакома. И, если, первая запись [15] была услышана и осуществлена русскими композиторами по записи исполнителей[25], то в конце 40-х годов записывали сами знатоки Шашмакома, сами носители классических традиций макома. Записывали те, чьё музыкальное мышление сформировалось на музыке Шашмакома в традициях Классической школы Шашмакома. Полный текст Шашмакома был записан ими по памяти [14]. До сих пор эта запись, с любовью именуемая в кругу музыкантов «*нашри Устодон*» («запись Мастеров») считается и в Таджикистане, и в Узбекистане, самой совершенной. Второй род деятельности этих троих знатоков Шашмакома был связан с работой в ансамбле, в котором одновременно воспитывались кадры-макомисты[26].

Процесс усугублялся тем, что этого мнения стали придерживаться даже некоторые композиторы Таджикистана[27]. В 50-е годы, когда профессионализм Шашмакома не был признан, Устод Фазлиддин Шахобов громко заявлял по республиканскому радио о том, что «.. сложность мелодий макомов, удивительно богатая метро-ритмическая стройность, которые следует соблюдать, каноны, инициирующие композиционную стройность макомов, являются свидетельством высокого профессионализма в Шашмакоме, достигнутого нашим народом ещё в прошлом.. » [11, с.9-10].

Фазлиддин Шахобов в отличии двух других устодов был знатоком науки музыки. Мы не находим у Б.Файзуллаева и Ш.Сохибова научных разработок. Но Устоду Ф. Шахобову характерно обращение к научным жанрам – статьям, трактату, творческим портретам и др. В начале 50-х годов, Фазлиддин Шахобов по зову сердца занялся музыкально-просветительской деятельностью. Это выражалось в проведении радио-, а впоследствии и телепередач с целью толкования, объяснения Шашмакома слушателям. Создав такую платформу в эфире, каждую передачу он посвящал конкретной теме. В этом следовал порядку формоструктуры макомного цикла. Мерилом его слога была избрана доступность объяснений сущности Шашмакома, его канонов ритма, лада, формообразования и пр. Потребовалось немного времени как эти передачи превратились в любимейших. Об этом говорили и писали в прессе учёные, простой народ, стар и млад. Музыкальное сопровождение передач осуществлялось певцами и музыкантами ансамбля макомистов радио и ТВ, часто

[24] Ситуация 30-40-х годов, когда макомат Востока не подходил под «гребёнку» европоцентристской позиции известна не только Таджикистану, но и многим другим странам, относимых тогда к обобщенному определению «Республики Советского Востока».

[25] В.А. Успенский записал Шашмаком от выдающихся таджикских макомистов Бобо Джалола Носирзода, Мирзо Гиёса Абдуганизода и Мирзо Назрулло [2, с. 37-38, 290-291. 6, с. 9, 11].

[26] Последнее стало необходимым из-за отсутствия в те годы официального учебно-образовательного звена.

[27] Вызвало большую дискуссию статья композитора З. Шахиди. В качестве авторов ответа на его возмутительную статью выступила вся научная и творческая интеллигенция тогдашнего Таджикистана [5].

иллюстрировал он сам. До конца 60-х годов он сумел рассказать обо всем Шашмакоме. Но в 1968 году из-за тяжелой болезни он прекратил активную деятельность. А в 1974 году его не стало.

Таким образом, в ситуации начала первой половины XX столетия, грозящей исчезновению Шашмакома, Устод Фазлиддин Шахобов вёл охранительную деятельность, что выразилось в нотировании Шашмакома (1), непрерывном исполнении Шашмакома в ансамбле гостелерадио (2), подготовке кадров-исполнителей с настойчивым стремлением ввести обучение Шашмакома в систему специального музыкального образования (3), сохранении и продвижении музыкальной теории Шашмакома через написание трактата (4).

Оставленное им музыкально-теоретическое наследие сегодня составляет около 1000 рукописных страниц[28]. Оно поражает содержательным разнообразием и множеством жанров. Здесь аналитические работы, посвященные вопросам истории и теории Шашмакома, Дувоздахмакома, музыкальным инструментам, творчеству выдающихся музыкантов прошлого, статьи, посвящённые практической теории макома, статьи-портреты музыкантов-макомистов и композиторов Таджикистана, статьи о хоровой музыке Таджикистана и мн.др. Например, именно Устодом Шахобовым в современном музыковедении подчёркнуто, что Мавлоно Абдурахман Джами один из первых, кто музыку трактует в большей мере как искусство, нежели наука. Писал Устод на фарси-таджикском (кириллицей и арабской вязью) и на русском.



Фото 2.

Трактат по Шашмакому является лишь частью этого большого наследия. Впервые его трактат был издан 34 года спустя после его смерти [10]. Обнаруженный мною в его рукописных материалах, он написан в форме сценариев радио- и телепередач.



Фото 3.

[28] В 2020 году наконец-то, было издано факсимиле рукописных материалов Устода Фазлиддина Шахобова в двух томах [9]. Работа по публикации его письменного наследия продолжается. *Фото 4.*

Но, при внимательном штудировании материала, и снятии с него радио- и тележанровой «одёжки» обнаруживается, что он написан в виде трактата-*баёз*-а. Сам автор нигде не говорит о написании им музыкального трактата[29]. Трактат начинается с предисловия о таджикской классической музыке, о Шашмакоме. Такой части в прежних баёзах нет. Основная часть трактата начинается с раздела «Маком Бузрук». Она полностью выдержана в традиционной форме *баёз*-а. Это выражается в приведении полного текста (поэтического) с указанием названия самого произведения (частей цикла). Но в отличии от других *баёз*-ов, устод Шахобов приводит иерархическую формоструктуру, структурные составляющие разного масштабного уровня музыкальной композиции. В его *баёз*-е структурной единицей самого низшего уровня – музыкальному *хат*, соответствует единица поэтической газели – *байт* и др. По такому же принципу нотирован им и его соратниками Шашмаком в пятитомнике [14]. С самого начала основной части макомные жанровые термины «сарахбор», «тарона» и др. разъяснены не только этимологически, но и функционально. Внутренняя организация малых циклов и *шуъба макома* приводятся по функциональным назначениям составляющих разделов и мельче – строфы композиции. Деление поэтического текста показан в соответствии с композиционно-драматургической линии макомной данности на всех масштабных уровнях композиции. Данный принцип на примере *Сарахбори Бузрук*: *даромад/сархат* – первый *байт*, *миёнхат* – второй *байт*, *бозгуи аввал* – третий *байт*, *аз Уззол* – первая *мисраъ* четвёртого *байт*-а, *аз* Ушшок – вторая *мисраъ* четвёртого *байт*-а или, например Сарахбори Наво:



Фото 4.

Представленный Фазлиддином Шахобовым трактат-*баёз* во многом более совершенен по форме и содержанию. Это отличие проявляется в следующих свойствах:

- чрезвычайно ясный слог, конкретность знаний;
- наличие разделов теоретических основ Шашмакома;
- научно-теоретический анализ, проявляющийся через художественное мышление;
- обилие макомной терминологии, известной в современном макомоведении лишь по данному источнику;
- наличие анализа инструментальных циклов – *мушкилот* с конкретными составными *шуъба*, принципа формообразования – *хона-бозгуй*, принципа мелодического развития – *пешрав*, функционального назначения цикла в целом и его составных *шуъба* в отдельности.

Баёз Шахобова первый и единственный источник представителя Классической школы Шашмакома, который показывает процесс развития макомной композиции, заглядывая внутрь композиционной драматургии.

Несмотря на то, что трактат-*баёз* Шахобова охватывает лишь три макома из шести: Бузрук, Рост и Наво, автору удаётся охватить сущностные свойства Шашмакома, его основную концепцию. С этой точки зрения, его трактат-*баёз* вполне закончен и максимально совершенен. *Фото 6.*

Гениальная точность музыковедческих рассуждений Устода Фазлиддина Шахобова сопровождается в его трактате обилием макомной терминологии, известной ему по Классической школе Шашмакома. Такие термины как «*миёнхати дунасра*», «*супориши дунасра*», «*супориши банди охангъ*», «*Оразранг*», «*Навоандак*», «*андаке аз банди Баёт*» и др. не только передают точную функцию каждого явления, но и более того, отражают процессуальность развития макомов. Эти

[29] Вероятно, одной из причин является его происхождение. Фазлиддин Шахобов сын придворного мударриса и *бедилшинос*-а. Его отец Абдурахими Хатлони служил при дворе Эмира Бухарского. После прихода советской власти принял *худжранишини* (проводил время чтением религиозных текстов, просиживая годами в маленькой худжре медресе). Абдурахими Хатлони умер в 1929 году.

термины известны только по трактату Устода Шахобова. К сожалению, этих терминов почти нет в практике макомистов Таджикистана (и насколько мне известно, и Узбекистана) сегодня.

В макомоведении второй половины прошлого столетия Шашмаком трактуется в большей мере как «закрытый цикл, не подлежащим отклонению от норм»[30]. Это неправильная трактовка макомного цикла. Согласно Устоду Шахобову он представлен как «открытый цикл», который несёт в себе след каждого поколения макомистов. В его статьях конкретно говорится о вкладе выдающихся макомистов начала XX века. Например, говоря о двух видах известного макомного произведения «Бебокча», двухдольного метра ташкентского варианта и трёхдольного таджикского, он говорит о варианте, предложенном выдающимся таджикским певцом Ходжи Абдулазизом Абдурасуловым (1852-1936) с конкретным добавлением им в композиционную структуру произведения «Бебокча» (на мухаммас Сипанди на газель Шавката) строфы *дунасрарангъ*, в результате чего формоструктура обретает следующий вид: *Даромад* – три *мисраъ*, *Бозгуй* – две *мисраъ*, *Турк* – три *мисраъ*, *Бозгуй* – две *мисраъ*, *Дунасрарангъ* – две *мисраъ*, *Ушшокрангъ* – третья *мисраъ*, *Бозгуй* – две *мисраъ*.

Сравнивая данные трактата с записью «*нашри Устодон*», одним из авторов которой является Устод Шахобов, обнаруживается, что в двух источниках приводится два разных варианта. Таких примеров множество: Уфари Рок [11, с. 52-53; 14], Талкинчаи Ирок [11, с. 42-43; 14], Ирок [11, с.41; 14], Сокиномаи Мугулчаи Бузрук [11, с. 38; 14], Мугулчаи Бузрук [11, с. 34; 14], Уфари Савти Сарвиноз [11, с.33, 14], Кашкарчаи Савти Сарвиноз [11, с. 30, 14], Талкинчаи Савти Сарвиноз [11, с.29; 14], Савти Сарвиноз [11, с. 27; 14] и др. Это свидетельствует о том, что Устоду Шахобову было известно несколько вариантов макомных произведений. Наличие умения создавать новые варианты одного и того, же музыкального произведения свидетельствует о наличии глубоких знаний и развитого макомного мышления у Устода.

Великий Устод Шашмакома отмечал: «...Шашмаком является выдающимся памятником сочинительского творчества мастеров макома таджикского народа, имена которых унесены веками без следа… но музыка, оставленная ими – свидетельство их высокой творческой деятельности и их гениального музыкального мышления…» [11, с.7]. Это понимание легло в основу его жизни, которую он посвятил сохранению этого животворного источника таджикской классической музыки.

ЛИТЕРАТУРА:

1. Азизи Ф.А. Асосхои макомот дар мусикии точик (Основы макомата в таджикской музыке). Книга первая. – Душанбе, 2023. – 400 с. (в печати).

2. Азизи Ф. Маком и Фалак как явления профессионального традиционного музыкального творчества таджиков. – Душанбе: «Адиб». – 398 с.

3. Баёзи Шашмаком (на тадж.яз.). Избранные *баёз*-трактаты по Шашмакому XVIII – первой четверти XX вв. Под ред. Исо Рахматулло и др. – Душанбе, 2008. – 250 с.

4. Донишномаи Шашмаком (Энциклопедия Шашмакома). – Душанбе, 2009. – 422 с.

5. К итогам дискуссии по вопросам развития таджикской музыки (Ответ композитору З. Шахиди). / Коммунист Таджикистана. – 1958. – 7 мая.

6. Предисловие. // Шашмаком. Составлено и записано Б.Файзуллоевым, Ш.Сохибовым, Ф.Шахобовым.В 5-ти томах. – Том 1. Бузрук. – Москва: Госмузиздат. 1950. – С. 9 – 12.

7. Раджабов И. Макомы: автореф.дисс. … д-ра иск-ния – Ташкент – Ереван, 1970. – 216 с.

8. Рисолаи Шашмаком (на тадж.яз.).Ред. Муҳаммадии Навида. – Душанбе: «Истеъдод». – 2011. – 40 с.

[30] Это дало повод американскому исследователю Теду Левину назвать Шашмаком *frozen music* [16, p.45-51].

9. Фазлиддин Шахобов. Осори хатти (Письменное наследие). Факсимиле. В 2-х томах. – Душанбе: СИЭМТ. – 2020. – Том 1. – 548 с.; Том 2. – 320 с.

10. Шахобов Ф. Баёзи Шашмаком (на тадж.яз.). Редактор-составитель Ф.Азизова. – Душанбе: СИЭМТ, 2007. – 288 с.

11. Шахобов Ф. Баёзи Шашмаком. (на тадж.яз.). 2-е изд-ние. Том 1. // Его же. Осор ва пажухиш (Наследие и исследование). В 3-х томах. Редактор-составитель Ф.Азизи. – Душанбе: СИЭМТ, 2007. – 288 с.

12. Шахобов Ф. Маколахо, такризхо, санадхо (Статьи, рецензии, документы. (на тадж.яз.). Том 3. // Его же. Осор ва пажухиш (Наследие и исследование). В 3-х томах. Редактор-составитель Ф.Азизи. – Душанбе: СИЭМТ, 2007. – 216 с.

13. Шашмаком. Составлено и записано Б.Файзуллоевым, Ш.Сохибовым, Ф.Шахобовым. – В 5-ти томах. – Т.2. Рост. – Москва: Госмузиздат, 1954. – 195с.

14. Шашмаком. Составлено и записано Б.Файзуллоевым, Ш.Сохибовым, Ф.Шахобовым. – В 5-ти томах. – Москва: Госмузиздат. 1950-1967: Т.1 Бузрук. – 1950; Т.2. Рост. – 1954; Т.3. Наво. – 1957; Т.4. Дугох. – 1959; Т.5. Сегох. Ирок. – 1967.

15. Шесть музыкальных поэм (макомов), записанных В.А. Успенским в Бухаре. // Шашмаком: Бузрук. Рост. Наво. Дугох. Сегох. Ирок. Под ред. Фитрата и Н.Н. Миронова. – Москва: Изд. Нар. Назарата Просвещения Бухреспублики, 1924.–128 с.

16. Levin Theodore. The hundred Thousand Fools of God. Musical Travels in Central Asia and Queens, New York. – Indiana University Press, 1996. – 320 p.

Rauf BƏHMƏNLİ
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının
aparıcı elmi işçisi.

Səadət VERDİYEVA
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Milli Konservatoriyasının
"İfaçılıq" fakültəsinin dekan müavini

AZƏRBAYCAN MUĞAM DƏSTGAHLARININ FORMALAŞMASINDA RƏQS JANRININ ROLUNA DAİR

Xülasə: *Məqalədə Azərbaycan xalq rəqslərinin muğam dəstgahlarının quruluşunda dəqiq metro-ritmə əsaslanan "rəng" ("dəramməd" və "diringi") və "təsnif" kimi səslənməsindən bəhs olunur. Burada qeyd edilir ki, belə rəqs melodiyaları "rəng" və "təsnif" kimi ifa olunaraq məşhurlaşdıqdan sonra zaman ötdükcə oyun havası kimi öz adlarını itirmiş, aid olduğu muğamın müəyyən şöbələrinin adları ilə yaddaşlarda qalmışdır. Məqalədə nümunə kimi göstərilən melodiyaların məhz rəqs havası olduğunu sübut edən mənbələr təqdim olunmuş, not yazı nümunələri ilə öz təsdiqini tapmışdır.*

Açar sözlər: *rəqs, rəng, dəramməd, diringi, təsnif not yazısı*

Рауф БАХМАНЛИ
Доктор философских наук в области искусствоведения,
Доцент БМА

Саадат ВЕРДИЕВА
Доктор философских наук в области искусствоведения,
Доцент АНК

О РОЛИ НАРОДНЫХ ТАНЦЕВ В ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКИХ МУГАМНЫХ ДЕСТГЯХ

Аннотация: *В статье говорится о звучании азербайджанских народных танцев как «рянг» («дерамед» и «диринги») и «тесниф», основанных на четком метро-ритме в структуре мугамных дестгяхов. Здесь же отмечается, что после того, как такие танцевальные мелодии стали популярными, будучи обыгранными как «рянг» и «тесниф», они со временем утратили свои названия как танцевальные мелодии и остались в памяти с названиями тех или иных разделов мугама, к которым относятся. В статье представлены источники, доказывающие, что показанные в качестве примеров мелодии являются танцевальными, и они подтверждаются примерами нотной записи.*

Ключевые слова: *танец, рянг, дерамед, диринги, тесниф, нотная запись*

Rauf BAHMANLI
Doctor of Philosophy in art studies,
associate professor BMA
Saadat VERDIYEVA
Doctor of Philosophy in art studies,
associate professor ANC

ABOUT THE ROLE OF FOLK DANCES IN THE FORMATION OF AZERBAIJANIAN MUGAM DESTGAHS

Abstract: *The article talks about the sound of Azerbaijani folk dances such as "ryang" ("deramed" and "diringi") and "tesnif, based on a clear metro-rhythm in the structure of mugham dastgahs. It is also noted here that after such dance melodies became popular, being beaten as "ryang" and "tesnif, they eventually lost their names as dance melodies and remained in memory with the names of certain sections of mugham, which include. The article presents sources proving that the melodies shown as examples are dance melodies, and they are confirmed by examples of musical notation.*

Keywords: *dance, ryang, deramed, diringi, tesnif, music notation.*

Hər bir muğam həm instrumental, həm də vokal-instrumental şəkildə ifa olunur. Metro-ritmik sərbəstliyə malik olan muğamlar əsasən, improvizəli-reçitativ məzmunda səslənir. Muğamın oxunuşunda (zərbi-muğamlar istisna olmaqla) ritmdən istifadə olunmur. Çünki burada ölçünün, vaxtaşırı vurğuların, xanə bölgülərinin olmaması hər hansı bir ritm ifasını mümkünsüz edir. Lakin musiqi alətlərinin müşayiəti ilə oxunan, muğamların şöbə və guşələri arasında dəqiq metro-ritmik ölçülərə malik müxtəlif mahnı və rəqslər ifa olunur.

Azərbaycan muğamlarının ümumi formasını təhlil etdikdə, onların müxtəlif istinad pərdələrinə əsaslanan, ifasının sonunda yenidən öz tonallığına qayıdan bir çox şöbə və guşələrdən təşkil olunduğunu görə bilərik. Muğam bütünlüklə xanəndənin ifasından ibarət deyildir. Bu formanın tərkibinə professional musiqi janrlarından sayılan "rəng" ("dəraməd", "diringi") və "təsnif" kimi digər musiqi nümunələri də daxildir. Bu musiqi nümunələri öz həcminə, xarakterinə, məzmununa, ritminə və tempinə görə müxtəlif olurlar.

Rəng – muğam dəstgahının kompozisiya quruluşuna daxil olan şöbə və guşələri arasında, yalnız instrumental şəkildə ifa edilən musiqi əsəridir. Onun əsas mahiyyəti iki şöbəni bir-birinə bağlamaqdan ibarətdir. Rəngin musiqisi elə yaradılmışdır ki, onun özündən əvvəl və sonra səslənən şöbələrinin xarakter uyğunluğu, eləcə də müxtəlif pərdələrə istinad olunmuş bu şöbələrin musiqisinin bir-birinə rəvan keçidi təmin olunsun. Rəngin ifa olunması, həm də xanəndənin dincəlməsinə şərait yaradır. Rəng özündən əvvəl ifa edilən şöbənin adı ilə adlandırılır. Məsələn, "Vilayəti rəngi", "Müxalif rəngi", "Şikəsteyi-fars rəngi", "Bayatı-İsfahan rəngi" və s.

Muğam sənətinin tarixini vərəqlədikdə, Azərbaycanda çox tanınmış məşhur xanəndələrin və sazəndə (trio) dəstələrinin fəaliyyətini araşdırdıqda, əldə edilmiş saysız musiqi ifalarını (səsyazma, qrammofon valları) təhlil etdikdə xalq rəqslərimizin muğam dəstgahlarında çox geniş istifadə olunduğunun şahidi oluruq.

Güclü improvizə etmək bacarığına malik olan xanəndələr bir muğamı həmişə eyni tərzdə oxumamışlar. Hər dəfə müəyyən şöbə və guşələrdə ifalarına yeni xallar, bəzəklər, melizmlər əlavə etməklə öz ustalıqlarını təsdiq etmişlər. Onları müşayiət edən musiqiçilər də öz ifalarının daha da rəngarəng səslənməsi üçün, digər sazəndə dəstələrindən seçilmək üçün, muğam dəstgahlarına yeni ahəng gətirmək məqsədilə müxtəlif şöbə və guşələrdə "rəng"ləri müəyyən rəqs havaları ilə əvəz etmişlər. Bildiyimiz kimi hər bir rəqs xasiyyətinə, mövzusuna uyğun individual ada malikdir. Lakin rəqs muğam dəstgahında rəng kimi ifa edilərkən həmin şöbə və ya guşənin adını qəbul edir. Məsələn; bəstəkar Səid Rüstəmovun 1954-cü ildə nəşr olunmuş "Azərbaycan xalq rəngləri" adlı birinci dəftərində [11] "Tərəkəmə" rəqsi "Segah rəngi" kimi, "Beş nömrə" rəqsi "Zabul segahı" dəstgahında "Mübərriqə rəngi"

kimi, “Almazı” rəqs melodiyası “Şüştər” muğamında “Tərkib rəngi” kimi, eləcə də müəllifin 1956-cı ildə çapdan çıxmış “Azərbaycan xalq rəngləri” adlı ikinci dəftərində [12] “Reyhanı” rəqsi “Mahur-hindi rəngi”, “Çervon” rəqs havası “Orta Mahur” muğamında “Şikəsteyi-fars rəngi” kimi adlarla işıqlandırılmışdır. Bu rəqs havaları daha sonra tanınmış musiqi xadimi, muğamlarımızın ustad ifaçılarından sayılan Əhməd Bakıxanovun 1964-cü ildə nəşr olunmuş “Azərbaycan xalq rəngləri” məcmuəsində də rəng melodiyaları kimi öz əksini tapmışdır [9].

Muğam dəstgahlarının tərkibində ifa olunmuş rəqs havalarının mövcudluğunu bəstəkar Eldar Mansurovun müxtəlif illərdə nəşr olunan “Azərbaycan dəraməd və rəngləri” (1984), “Azərbaycan diringi və rəngləri” (1986) və “Azərbaycan qədim el havaları” (1990) məcmuələri də təsdiqləyir. Öz məcmuələrində müəllif atası məşhur tarzən Bəhram Mansurovun ifasından nota aldığı dəraməd, rəng və diringiləri işıqlandırmışdır. Bu not yazılarında “Mərcanı” rəqs melodiyası “Zabul segahı” muğamında “Segah rəngi” adı ilə [7; s.8], “Mixəyi” rəqsi “Bayatı-Şiraz” muğamında “Şikəsteyi-fars rəngi” [7; s.19], “Cüt bacı” – “Mahur-hindi rəngi” [1; s.52], “Naz-nazı” rəqs havası – “Təxtgah rəngi” (Çahargah muğamında) [1; s.35] və s. adlarla göstərilmişdir. Belə melodiyalar Muğam dəstgahlarımızın quruluşunu bəzəsə də, onların ilk dəfə rəqs havası kimi meydana gəlməsini unutmaq olmaz. Dediklərimizin təsdiqi tədqiqata cəlb edilmiş aşağıdakı mənbələrdə öz əksini tapmışdır. Nümunə kimi bu gün S.Rüstəmovun “Azərbaycan xalq rəngləri” adlı II dəftərində “Mayeyi-Dügah” rəngi kimi təqdim edilmiş “İnci” rəqs havasını göstərə bilərik [12; s.38]. Əvvəlcə bu rəngin not yazısından bir parçanı izləyək (nüm. 1).



Nümunə 1. S.Rüstəmovun “Azərbaycan xalq rəngləri” II dəftərindən (1956) “Mayeyi dügah” rəngi

Tədqiqatdan məlum oldu ki, bu melodiyanı ilk dəfə görkəmli bəstəkarımız Əfrasiyab Bədəlbəyli rəqsin öz adı ilə fortepiano üçün işləmiş və 1940-cı ildə ilk premyerası olan “Qız qalası” baletində qızların nəlbəkilərlə rəqsində səsləndirmişdir. Həmin not yazısı Əfrasiyab Bədəlbəylinin arxiv fondunun Notlar bölməsində saxlanılır [15]. Rəqsin not yazısından bir parçanı izləyək (nüm. 2).



Nümunə 2. Ə.Bədəlbəylinin f-no üçün işlədiyi "İnci" rəqsi (əlyazma)

"Bakı şikəstəsi" (yaxud **"Kəsmə şikəstə")** zərbli muğamı "Segah"ın məqam-intonasiyası, ahəngi, kökü əsasında qurulub. Orta, moderato tempində ifa edilir, ölçüsü 4/4-dür. Haqqında danışdığımız zərbli muğam müasir dövrdə daha çox "Kəsmə şikəstə" adı ilə tanınır. "Kəsmə şikəstə" zərbli muğamının tarixi adı "Bakı şikəstəsi" olmuşdur. Səsləndirilərkən istifadə edilən musiqi ibarələrinin "kəsilə-kəsilə", "qırıq-qırıq" çalınması səbəbindən bu muğam "Kəsmə şikəstə" adlandırılıb. Segah məqamı əsasında

qurulduğundan, "Bakı şikəstəsi" də bu muğamın emosional xarakterini yaradır. Yəni dinləyicidə qəm-qüssə, kədər ovqatı oyadır.

"Bayatı" – M.Fərəcin yazdığına görə, XIX əsrdə ifa olunmuş bir zərbli muğamdır [11, s. 51]. Fikrimizcə, "Bayatı" elə, müasir "Çoban bayatı" muğamıdır və bu da zərbli muğam kimi ifa olunmur. Bəlkə də "Çoban bayatı"da ritmik çalarlar, gəzişmələr olduğundan onu zərbli muğam kimi düşünmüşlər. Lakin zərbli muğamların özünəməxsus strukturu olduğundan və "Çoban bayatı" bu tələblərə cavab vermədiyindən onu zərbli muğam adlandırmaq düzgün deyil.

Xatırladaq ki, Təbriz musiqiçiləri "Çoban bayatı" əsasında "Çoban şikəstəsi" adlı zərbli muğam ifa etmişlər [13]. Burada zərbli muğamlar üçün xarakterik olan instrumental araçalğılar mövcuddur.

Bayatılardan söz düşmüşkən bildirməliyik ki, musiqi mədəniyyətində 50-yə yaxın muğamın (dəstgah, şöbə, guşə) adında bayatı sözünə rast gəlirik. Bu söz adını 24 Oğuz elindən biri olan Bayatdan almışdır. "Kitabi-Dədə Qorqud" dastanının "Bismillah-ir-rəhman ir-rəhim"dən sonrakı cümləsindən məlumdur ki, Dədə Qorqud Bayat adlı eldən çıxmışdır [7, s. 30]. Dahi şəxsiyyətlər – İmadəddin Nəsimi (1369–1417), Məhəmməd Füzuli (1494–1556), Cavad Xan Qacar (1748–1804), Xurşidbanu Natəvan (1832–1897) və Üzeyir Hacıbəyli (1885–1948) də Bayat elinin bir nümayəndəsi olmuşlar [2, s. 411].

Ağcabədi, Bərdə, Neftçala, Ucar, Şamaxı, Şabran rayonlarında Bayat adlı kəndlər mövcuddur. Mütəxəssislərin fikrincə, həmin kəndlərin adı vaxtilə bu yerlərdə məskunlaşmış bayat tayfaları ilə əlaqədar yaranmışdır. Adında "Bayatı" sözü işlədilən muğamların yaradıcısı birmənalı şəkildə Azərbaycan xalqına məxsus olan bayat tayfalarıdır. "Bayatı" kəlməsi istər etnonim, istər toponim, istərsə də qövm isimləri ilə birləşərək fərqli muğam adlarını əmələ gətirir. Böyük ürəkli xalqımız yaratdığı muğamlara səxavətlə müxtəlif regionların adlarını verməklə, beynəlmiləlçi olduğunu bir daha nümayiş etdirmişdir.

Biz adında "Bayatı" sözü olan terminlərin siyahısını latın qrafikalı Azərbaycan əlifbasının sıralanması üzrə ("A"-dan "Z"-yə) təqdim edirik: 1. "Atüstü bayatı"; 2. "Azər-bayatı"; 3. "Bayatı"; 4. "Bayatı-ağı" (dini mərasimlərdə); 5. "Bayatı-əcəm"; 6. "Bayatı-əmül"; 7. "Bayatı-Əraq"; 8. "Bayatı-ərəban"; 9. "Bayatı-fars"; 10. "Bayatı-feli"; 11. "Bayatı-İsfahan"; 12. "Bayatı-İsfahani-Mühəyyər"; 13. "Bayatı-kürd" (dəstgah); 14. "Bayatı-Qacar" (dəstgah); 15. "Bayatı-Qacar guşəsi"; 16. "Bayatı-Mənsuri"; 17. "Bayatı-Neyriz"; 18. "Bayatı-Nəhoft"; 19. "Bayatı-race"; 20. "Bayatı-Rast" (ərəb klassik musiqisində); 21. "Bayatı-rəvəndi"; 22. "Bayatı-Rumi"; 23. "Bayatı-Segah" (ərəb klassik musiqisində); 24. "Bayatı-şikəstə" (zərbli muğam); 25. "Bayatı-Şiraz" ("Bayoti-Şeroziy" adı ilə özbək-tacik şaşmakomlarında vokal-instrumental şöbə); 26. "Bayatı-Şur" (ərəb klassik musiqisində); 27. "Bayatı-türk"; 28. "Bazəm-Bayatı-Şiraz"; 29. "Bazəm-Bayatı-kürd" ("Şur" dəstgahının sonuncu şöbəsi) [8, s. 163]; 30. "Bəhri-Bayatı-əcəm"; 31. "Boz bayatı"; 32. "Çoban-bayatı"; 33. "El bayatı"; 34. "Eyzən-bayat"; 35. "əl-Bayat" (İrak "Rast" makamında); 36. "Qatar-bayatı"; 37. "Muxammasi-Bayot" (özbək-tacik şaşmakomlarında instrumental bölmə); 38. "Mürəkkəbi-bayat"; 39. "Nasri-Bayot" (özbək-tacik şaşmakomlarında vokal-instrumental şöbə); 40. "Novruz-bayatı"; 41. "Pəs bayatı"; 42. "Rüstəm bayatı"; 43. "Sallama bayatı"; 44. "Talkini-Bayot" (özbək-tacik şaşmakomlarında vokal-instrumental şöbə); 45. "Ufari-Bayot" (özbək-tacik şaşmakomlarında vokal-instrumental şöbə); 46. "Zil Bayatı-Qacar"; 47. "Zil Bayatı-Şiraz" və s.

ABŞ-da yaşayan şumeroloq alim Tariyel Azərtürk gil yazılarına əsaslanan tədqiqatlarında üç min il əvvəl yaşamış antik şairimiz **Şəmsi Ədəd Abiyə** istinadən müasiri olan **Ulu Xan Bayat Çapan**dan söz açır:

Ulu Xan Bayat Çapan ulu, u Mətim!..
Pah, uyuyur!..
Çal müziyim, rah cam,
Al qəm, samma horrayam!.. [12, s. 904-912].

Ulu Xan Bayat Çapan Ete Eli ölkəsində yaşamış türklərin bir nümayəndəsi olmuşdur. O, vaxtilə ölkənin hökmdarı, məşhur və mətin sərkərdəsi və şairi kimi tanınmışdır.

Tariyel Azərtürk poeziyamızda olan bayatı janrının, eləcə də "Çoban bayatı" muğamının yaradıcısının məhz Bayat Xan Çapan olduğunu bildirir.

“Heydəri” – zərbli muğamı “Şüştər”in ahəngi, kökü əsasında qurulub, orta templi, 2/4 ölçülüdür. M.Fərəc “Şüştər” dəstgahında “Heydəri”ni (“Əfşarı” ilə “Osman-Gərayi” arasında) təqdim edir [11, s. 51].

“Heydəri” dinləyicidə mərdlik, cəngavərlik, qəhrəmanlıq hissləri oyadır. “Heydərə məxsus musiqi” fikrini ifadə edir. Ərəb sözü olan Heydər Həzrət Əlinin ləqəblərindən biridir və dilimizdə şir, əjdaha, igid, cəsur mənalarını bildirir.

“Heyratı” (“Heratı”) – zərbli muğamı “Mahur-Hindi” muğamının kökündə, “do” mayəli rast məqamı əsasında qurulub. Bu zərbli muğam “Əraq” şöbəsinin bitkin cümlələrindən ibarətdir. Marşvarı, moderato tempində ifa edilən “Heyratı”nın ölçüsü 2/4-dir.

XX əsrin əvvəllərinəcən “Heyratı” özünə “Mahur-Hindi” dəstgahında zərbli muğam kimi yer almışdı. Lakin sonralar “Heyratı” “Mahur-Hindi” dəstgahının tərkibindən çıxarılmış, müstəqil şəkildə ifa olunmuşdur.

“Heyratı” zərbli muğamının əvvəlində ifa edilən ilk epizod “Əraq” (II oktavanın “do” səsi), dayaq səsi II oktavanın “re” səsi olan digər epizod isə “Kabili” adlanır.

“Heyratı” dinləyicidə gümrahlıq, nikbinlik, mərdlik hissləri aşılayır və onu qəhrəmanlığa çağırış kimi dəyərləndirirlər. Türkiyə hərbi musiqisində, mehtər marşlarında “Heyratı”nın əsas instrumental motivlərini əks etdirən melodiyalardan istifadə edilir. Bəlkə bu səbəbdən müasir dövrdə də hərbi-vətənpərvərlik ruhuna görə, “Heyratı” muğamının əsas instrumental epizodu hərbi hissələrdə əsgər marşı kimi oxunur.

“Heyratı” zərbli muğamı vaxtı ilə Əfqanıstanın paytaxtı olmuş Herat şəhərinə görə tərtib olunmuşdur. Yəni bu söz Heratsayağı, daha dəqiqi, heratlılara ithaf olunmuş muğam fikrini ifadə edir. “Heyratı” adlı muğama başqa Şərq xalqlarının musiqi mədəniyyətində rastlaşmırıq. Bəs, necə olub ki, “Heyratı” Azərbaycan muğamlarında özünə yer almışdır?

Səfəvi imperatoru Şah İsmayıl Xətainin (1487–1524) vassalı Zəhirəddin Babur (1483–1530) Kabul hökmdarı idi. Xatırladaq ki, Babur böyük Hind-Türk dövlətinin banisi, sərkərdə, alim, şair, xəttat, memar, musiqiçi-bəstəkar kimi tanınmışdı. Lakin Herat başda olmaqla Əfqanıstanın böyük bir hissəsi Şah İsmayılın əlinə keçmişdi və onun oğlu Təhmasib orada hakimlik edirdi. Təhmasib sarayında fəaliyyət göstərmək üçün Azərbaycandan Əfqanıstana xanəndələr, musiqiçilər dəvət edirdi. Həmin musiqiçilər Əfqanıstanın bir sıra şəhərlərini mədh etmiş və onların adlarını əbədiləşdirmək üçün muğamlar (şöbə, yaxud guşə) yaratmışlar.

“Səmayi-şəms” (“Simayi-şəms”, “Səbayi-şəms”) – zərbli muğamı “Şur” muğamının ahəngi, kökü əsasında qurulub. Moderato tempində ifa edilən “Səmayi-şəms”in ölçüsü 2/4-dir. “Səmayi-şəms” zərbli muğamının kökü tarda “sol” (fortepianoda “fa” diyez) səsidir.

“Səmayi-şəms” zərbli muğamı həm müstəqil şəkildə, həm də “Şur” dəstgahında “Əşiran”dan sonra ifa edilir. Hər iki halda “Zəmin-Xara”, “Hicaz”, “Sarənc”, “Qəməngiz” şöbə-guşələri çalınıb-oxunur və nəhayət, “Şur”un mayə pilləsinə qayıtmaqdan ötrü “Nəşibü-fəraz” şöbəsindən istifadə edilir. Bu baxımdan “Səmayi-şəms”i kiçik həcmli muğam da adlandırmaq olar. Yəni “Səmayi-şəms” digər zərbli muğamlardan fərqli olaraq müstəqil muğam quruluşuna malikdir.

Bütün müstəqil muğamlarda olduğu kimi, “Səmayi-şəms” də ifa olunduğu zaman girişdən zilə doğru yüksələrək son pərdəyə çatdıqdan sonra tədriclə eniş başlayır. Yəni muğam cümlələri eyni qaydada, yüksəldiyi kimi, pillə-pillə enərək başlanğıc pərdədə tamamlanır.

Bu muğamı bəzən yanlış olaraq “Simayi-şəms” də adlandırırlar. Əslində simayi-şəms milli ornamentlərdən biri olub, müxtəlif sahələrdə (xalça sənətində, toxuculuqda, xüsusən də sədəfdüzmədə) daha geniş tətbiq olunur. Ramiz Faseh haqqında danışdığımız muğamın düzgün adının “Səmayi-şəms” olduğunu və bu ifadənin tarixi məna daşıdığını yazır. Burada “səma” sözü lüğəti anlamda göy, asiman olsa da (həmçinin “eşidirəm” mənası da var – A.N.), təsəvvüf (sufi) fəlsəfəsinə görə, zahidlərin (tərki-dünya olan asketik din xadimləri) oxuduqları dini nəğmə, “şəms” isə ərəbcə günəş mənasını bildirir.

Başqa ehtimala görə, “Səmayi-şəms” Azərbaycanın böyük mütəfəkkiri Şəmsi Təbrizinin (tam adı: Şəmsəddin Məhəmməd ibn Əli ibn Məlikdad Təbrizi, ?–1272) şəninə və onun səmasına (sufi rəqsi) bəstələnmişdir. R.Fasehə görə, bu muğam öz mənşəyini atəşpərəstlik dinindən götürmüşdür. Zərdüşt

Peyğəmbərin "Avesta" kitabına görə, günəş atəşpərəstlik dinində Allah hesab olunur. Bu səbəbdən möbidlər, yəni atəşə ibadət edənlər günəşin çıxdığını gördükdə onu tərifləmiş, şəninə xüsusi nəğmələr oxumuşlar.

Ə.Dağlının fikrincə, "Səmayi-şəms" öz kökünü "Səbayi-şəms"dən almışdır və bu zərbli muğamının fərqli adıdır. B.Mənsurov da bu zərbli muğama "Səba-şəms" deyirdi. Fikrimizcə, "Səbayi-şəms" zərbli muğamı Orta əsrlərdə ifa olunmuş 24 şöbədən biri olan "Səba" əsasında formalaşmışdır. Xaraktercə əzəmətli və möhtəşəm olan "Səmayi-şəms" zərbli muğamı dinləyicidə məğrurluq, həmçinin şən və lirik əhvali-ruhiyyə hissləri oyadır.

Məqalənin yekunu olaraq, "zərbli muğam", "Səmayi-şəms" kimi terminlərin indiyədək yanlış yazıldığına, "şikəstə"nin arxaik sözümüz olan "sığışda"dan törəndiyinə diqqət çəkirik. Həmçinin burada bütün zərbli muğamların yaradıcısı məhz Azərbaycan xalqı olduğu bildirilir. Burada günümüzədək düşünüldüyü kimi, zərbli muğamların XIX əsrdə deyil, faktlara istinadən Orta əsrlərdə yaradıldığı ilk dəfə diqqətə çəkilir. Zərbli muğamların ümumi şəkildə yaranma tarixi, etimologiyası, morfologiyası haqqında bilgi verilir. Maraqlıdır ki, müəllif bəzən fikirlərini daha dolğun, məzmunlu və mənalı təqdim etmək üçün müxtəlif üsullarla səsləndirilən bir neçə musiqi alətində (kamança, balaban, ney, tütək və zurna) ifa edir. Yəni müəllifin çıxışında nəzəriyyə ilə təcrübə qovuşaraq bir-birini tamamlayırlar. Müəllifin musiqi alətlərindəki ifaları nəzəriyyədə söylədiklərinin təcrübədə təsdiqinin əyani göstəricisinə çevrilir.

ƏDƏBİYYAT:

Azərbaycan türkcəsində

1. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. Bakı: "Şərq-Qərb", 2017, 472 s.
2. Ələkbərov Ə.F. Azərbaycan türkləri. Etnogenetik təşəkkülünə dair (bütün yollar Tanrıçılığa doğru aparır). Bakı: "Turxan" NPB, 2020, 676 s.
3. Əlihüseyn Dağlı (Həmidov Ə.H.). Ozan Qaravəli. (I kitab). Bakı: "MBM", 2006, 192 s. (kitab müəllifin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda C-1021/9974 şifrəsilə qorunan əlyazması əsasında A.Nəcəfzadə tərəfindən tərtib edilib və nəşr olunmuşdur).
4. Əlihüseyn Dağlı (Həmidov Ə.H.). Ozan Qaravəli. Beşhissəli əlyazması, III hissə. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun fondu, C-1175/38009 şifrəli qovluq.
5. Hacıbəyli Ü.Ə. Bədii və publisistik əsərlər. Bakı: "Şərq-Qərb", 2008, 544 s.
6. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. II nəşr. Bakı: "İşıq", 1984, 100 s.
7. Kitabi-Dədə Qorqud. Tərtibçi, çapa hazırlayan, ön söz və lüğətin müəllifi Samət Əlizadə. Bakı: "Yeni Nəşrlər Evi", 1999, 704 s.
8. Mansurov E.B. Mansurovlar. Bakı: "Çaşıoğlu", 2011, 288 s.
9. Nəcəfzadə A.İ. Alim Qasımov haqqında düşüncələrim (Dahi sənətkarın 65 illiyinə həsr olunur). Bakı: "Azərbaycan", 2022, 120 s.
10. Ramiz Faseh (Paşayev R.M.). Azərbaycan muğamlarında söz və musiqinin əlaqəsi. Bakı: "Çıraq", 2004, 144 s.
11. Rzayeva-Bağırova R.İ. Tarzən Mirzə Fərəc haqqında xatirələrim. Bakı: "İşıq", 1986, 74 s. (şəkilli).

Rus dilində

12. Азертюрк Т.В. (Алиев Т.В.). Генезис тюрка и тюркского языка (на основе клинописи). II том. Бишкек: «Улуу Тоолор», 2017, 1298 (-740) с.

Saytoqrafiya

13. https://www.youtube.com/watch?v=m9IFtb_pdYw&feature=youtu.be&t=11&fbclid=IwAR3RW2X5vd2ExNz_H1qhjQYnFjD3ioBbKFmKEHc5U_nA2lY8gxJU9Y-F5Iw; https://youtu.be/m9IFtb_pdYw?t=11

Könül NƏSİROVA
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının
Musiqi nəzəriyyəsi kafedrasının müdiri və professoru
Email: perfice139@gmail.com

HACI MƏMMƏDOVUN ƏLYAZMASINDA AZƏRBAYCAN MUĞAM DƏSTGAHLARI VƏ XALQ NƏĞMƏLƏRI PROBLEMI

Xülasə: *Azərbaycanda tarixən muğam sənəti müxtəlif nöqteyi-nəzərdən işiqlandırılır. XX əsrdə bu prosesdə görkəmli tarzən Hacı Məmmədovda iştirak edir. Musiqiçinin şəxsi arxivində qorunub saxlanılan "Azərbaycan muğamları, xalq nəğmələri, təsniflər və rənglər haqqında" əlyazmasında bəzi dəstgahların tərkib hissələri barədə məlumat verilir. Müəllif öz müşahidələrini C. Qaryağdıoğlunun əlyazması və M. Mansurovla müqayisə edir. H.Məmmədov xalq mahnılarının mətnləri (bir neçə variantda) və məqamları, ifaçılar barədə məlumatla bölüşür. Onun əlyazmasının tədqiqi müasir muğam dəstgahları müqayisə və rekonstruksiya etməyə imkan yaradır.*

Açar sözlər: *muğam, dəstgah, şöbə, guşə, nəğmə, xanəndə, poeziya, təsnif, rəng*

Konul NASIROVA
Doctor of Philosophy in Art Studies
Baku Music Academy named after U. Hajibeyli
Head and professor of the Department of Music Theory

INVESTIGATING THE AZERBAIJANI MUGHAM DASTGAHS AND FOLK SONGS WITHIN HAJI MAMMADOV'S MANUSCRIPT

Abstract: *The study of mugham art in Azerbaijan encompasses a multitude of perspectives that contribute to a comprehensive understanding of its historical development. During the 20th century, Haji Mammadov emerged as a prominent artist who actively participated in this ongoing exploration. Preserved within Mammadov's personal archive is a manuscript titled "About Azerbaijani mughams, folk songs, classifications, and colors," which serves as a valuable repository of information pertaining to the constituent elements of select musical instruments. By undertaking a comparative analysis with the manuscripts of J. Garyagdioglu and the works of M. Mansurov, the author of this study elucidates his own observations, presenting multifaceted insights into the lyrical compositions of folk songs in diverse versions, along with accompanying details regarding the performers. This investigation of Mammadov's manuscript not only enables a comparative analysis but also facilitates the reconstruction of contemporary mugham dastgahs, thus contributing to the scholarly discourse on the preservation and interpretation of this traditional Azerbaijani musical form.*

Keywords: *mugham, dastgah, part, gushe, negme, khananda, poetry, tesnif, color*

Конуль НАСИРОВА
Доктор философии в области искусствоведения
Бакинская Музыкальная Академия имени У.Гаджибейли
Заведующий и профессор кафедры теории музыки

ПРОБЛЕМЫ АЗЕРБАЙДЖАНСКИХ МУГАМ ДАСТГАХОВ И НАРОДНЫХ ПЕСЕНЬ В ПОРУЧЕНИИ ГАДЖИ МАМЕДОВА

Аннотация: *Исторически искусство мугама в Азербайджане освещается с разных точек зрения. В 20 веке в этом процессе участвовал видный художник Гаджи Мамедов. В рукописи «Об*

азербайджанских мугамах, народных песнях, классификациях и цветах», хранящейся в личном архиве музыканта, приводятся сведения о составных частях некоторых инструментов. Автор сравнивает свои наблюдения с рукописью Дж. Гарягдыоглу и М. Мансурова. Г.Мамедов делится текстами (в нескольких вариантах) и моментами народных песен, информацией об исполнителях. Изучение его рукописи дает возможность сравнить и реконструировать современные мугамы дестгяхи.

Ключевые слова: *мугам, дестгях, отдел, уголок, песня, певец, поэзия, классификация, колорит*

Azərbaycanda tarixən muğam sənəti musiqiçilərin diqqət mərkəzində olmuş, müxtəlif nöqteyi-nəzərdən işiqlandırılmışdır. XX əsrdə davam edən bu prosesdə Azərbaycanın Xalq artisti, tarzən Hacı Məmmədovda iştirak etmişdir. Özünəməxsus musiqi üslubu və dərin biliklərə malik olan musiqiçinin şəxsi arxivində qorunub saxlanılan "Azərbaycan muğamları, xalq nəğmələri, təsniflər və rənglər haqqında" əlyazması böyük maraq doğurur [1].

Əlyazmada Rast, Şur, Mahur, Hümayun dəstgahları, Məqami Zabil, "Rahab yaxud "Rəvahi" dəstgahı, Nəva Nişapur dəstgahı, Dügah dəstgahı, Bayatı Qacar, Segah dəstgahlarının tərkib hissələri və quruluşu barədə dəyərli məlumat verilir. Müəllif, Cabbar Qaryağdıoğlunun Azərbaycan Elmlər Akademiyasında qorunub saxlanılan əlyazmasına və Mansur Mansurova istinad edərək, öz müşahidələrini onların yazdıqları ilə müqayisə edir, böyük elmi maraq doğuran fikirlərlə bölüşür. O muğam dəstgahlarını şöbələr, guşələr və daha iri hissələrə ayırır. Təqdim olunan mətndə müəlliflərin istifadə etdikləri terminlər olduğu kimi verilir.

H.Məmmədov Rast muğam dəstgahından başlayır, onu 4 böyük hissə və bir neçə kiçik bölməyə ayırır. 1-ci böyük hissəyə o, Bardaşt, Mayei rast, Uşşaq, Hüseyni guşələrini; 2-ci - Vilayəti, Dilkəş; 3-cü – Şikəsteyi-fars, Mübəriqqə, Xavəran və Əşiran; 4-cü hissəyə isə İrak, Pəncgah, "yenə də Ərak"ı aid edir.

H. Məmmədov, C. Qaryağdıoğlunun əlyazmasındaki Rastın hissələrinin adlarını çəkir: "Rast öz məqamını göstərib sonra Guşeyi Hüseyni, Vilayət, Dilkəş, Gərai, Ərak, Pəncigah, yenə Rak və ya Ərak üzü ilə yenir rastın mayəsinə, sonra Təsnif oxunur, Hüzzal göstərib yenə də rasta yenilir" [1, s.5].

Rast muğamında Şikesteyi fars kimi böyük bir hissə haqqında heç bir məlumat verilməməsi H.Məmmədovu təəccübləndirir. Bunu izah etməyə çalışan müəllif belə qənaətə gəlir ki, görkəmli xanəndə "... bəlkə də bilərəkdən bu haqda göstəriş verməmişdir, çünki hal-hazırda və yaxud keçmiş zamanda xanəndələrin əksəriyyəti rast muğamını oxuyarkən Şikəsteyi farsı təxirə salıb onu Hüzzal bölməsində əks etdirirlər" [1, s. 5-6].

Azərbaycan musiqi elmində Rast muğamı dəfələrlə tədqiqat obyekti olub və notlaşdırılıb. "İzahlı muğam lüğəti"ndə qeyd olunur ki, M.Maqomayev tərəfindən tarzən Q.Primovun ifasında (1928), Niyazi – xanəndə C.Qaryağdıoğlunun (1935), T.Quliyev – tarzən M.Mansurovun, xanəndə Z. Adıgözəlovun və tarzən Q.Primovun, N.Məmmədov – Ə.Bakıxanovun, xanəndə H.Hüseynov və tarzən B.Mansurovun ifasından nota yazılmışdır [2]. Həmin mənbədə Rast muğam-dəstgahının şöbələrinin adı da verilir: Novruz-Rəvəndə, Rast, Üşşaq, Hüseyni, Vilayəti (bəzən Dilkəş), Xocəstə, Xavəran, Əraq, Pəhcgah, Rak, Əmiri və Məsihi. Bu tərkibin H.Məmmədovun göstərdiyi ilə müqayisəsi bəzi maraqlı məqamları üzə çıxarır. Əsası isə odur ki, lüğətdəki Rast dəstgahında Şikesteyi fars yoxdur.

1925-ci il mayın 9-da Azərbaycan Dövlət Türk musiqi texnikumunun Şərq şöbəsi müəllimlər komissiyasının iclasında qəbul olunan Ü.Hacıbəylinin yazdığı ilk tar proqramında da Şikesteyi fars bölməsi yoxdur [3]. Burada "Rast dəstgahının yolu" Rast, Üşşaq, Hüseyni, Vilayəti, Məsihi, Dəhri, Xəcüstə, Xavəran, Əraq, Pəncgah, Rake-xorasani, Qərai və Rast şöbələri kimi verilir. "Azərbaycan xalq musiqisinin əsasları" kitabında (1945) Üzeyir bəy rast məqamının beş böyük şöbəsini göstərir – Maye-Rast, Hüseyni, Vilayəti, İrak, Qarai [4].

Eldar İsgəndərov və Arif Əsədullayevin "7 klassik Azərbaycan muğamı" solo violonçel üçün işləmə kitabına da nəzər yetirsək, bu dərs vəsaitində Rastda Bərdaşt (Novruzu rəvəndə), Mayə, Gərdaniyə və Mahuri Mühəyyər guşələri, Üşşaq, Hüseyni, Vilayəti, Xocəstə, Əraq, Pəncgah, Rak, Qərai şöbələri

verilir. Yəni burada da Şikəsteyi fars yoxdur [5]. Məlumdur ki, Əraqdan mayəyə "Xavəran", "Əmiri", "Məsihi" adlı şöbələr vasitəsilə qayıtmaq mümkündür ki, bu cür enmə "Qərai" adlanır.

Ə.Bədəlbəylinin "Musiqi lüğəti"ndə maraqlı cədvəldə üç muğam məktəbinin – Bakı (Abşeron), Şuşa (Qarabağ), Şamaxı (Şirvan) Rast dəstgahının şöbə və guşələrinin ardıcıllığı verilir [6]. Bakı -15, Şuşa – 18, Şamaxıda isə bu dəstgah 21 hissədən ibarətdir. Maraqlıdır ki, Şamaxı Rastında "Şikesteyi fars" şöbəsi var və o, nisbi olaraq, 3-cü hissəyə təsadüf edir. Yəni, məhz Şamaxı variantı H.Məmmədovun yazdığı fikri təsdiq edir.

Qeyd etmək lazımdır ki, böyük musiqiçi və cərrah-həkim olan Hacı Məmmədov 1920-ci ildə Şamaxıda dünyaya göz açmış və dəfələrlə məhz Şikesteyi fars şöbəsi olan Rast dəstgahını eşitmişdir. Şikəstə - Şamaxı zonasının həm xanəndələri, həm də aşıqları tərəfindən sevilən janrdır. Xanəndələrin repertuarında özünəməxsus yer tutan "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi" aşıq yaradıcılığına məxsusdur, lakin ikisi daha onlar tərəfindən ifa olunmur. Yalnız "Şirvan şikəstəsi" həm aşıqların, həm də xanəndələrin yaradıcılığında önəmli yer tutur. Bu janrı ilk dəfə səciyyələndirən Ü.Hacıbəyli yazır: "Şikəstə və bayatıya aşıq dəstəsinin dəstgahı demək olar, çünki bu növ musiqi təgənnisi əsl onların qoftə olub qoftəsi məzmunca müxtəlif olduğu halda, bəstəsi yeknəsəkdir..." [7].

Tədqiqatçılar şikəstə janrının muğam sənətinə daxil olmasının səbəbləri arasında onun zərbi muğama yaxınlığını, hər ikisinin qarışıq bəhrli janrlar qrupuna aid olmasını, poetik mətnin bayatıya əsaslanmasını və "Segah" məqamında yazılmasını vurğulayır [8].

Bu gün musiqi təcrübəsində Şikesteyi-fars bir çox muğamlarda – "Rahab", "Şur", "Segah"ın beşinci pərdəsində qurulan mərkəzi şöbədir. Dahi Ü.Hacıbəyli də Şikesteyi-farsı "Şegah" məqamının ikinci şöbəsi kimi göstərir [4].

H.Məmmədov Azərbaycan xalq musiqisində əsas muğamlardan biri olan, böyük həcmli Şur dəstgahının yeddi hissədən ibarət olmasını və içərisində bir neçə kiçik guşələr və bölmələrin yerləşməsi barədə yazır. 1-ci hissə - Bərdaşt, Mayeyi şur, Muyə və Bayatı türk guşələri; 2-ci hissə - Şur Şahnaz, Səlmiyək, Busəlik güşələri; 3-cü hissə - Bayatı əcəm; 4-cü hissə - Şikesteyi fars, Mübariqqə, Xavəran, Əşiran guşələri; 5-ci hissə - Simayi şəms; 6-cı hissə - Hicaz; 7-ci hissə - Sarəncdir. Müəllif əlavə edir ki, "Sarəncdən Nişibi fərəz ilə enib şurun mayəsində tamam olaraq qurtarır" [1, s. 6].

Beləliklə, H.Məmmədov Şur dəstgahına 7 böyük şöbə və 9 kiçik guşəni aid edir. Müəllif vurğulayır ki, C.Qaryağdıoğlu bəzi mühüm hissələri qeyd etmir: "Şur şahnazı, səlmiyək və büsəlik güşələri ilə bayatı əcəmə keçmə qaydasını və yaxud şikestüyi fars kimi böyük bir hissəni və bu hissənin içərisinə daxil olan Mübəriqqə Xavəran və Əşiran kimi güşələri göstərməmişdir. Əksinə, Baba Tahir, Mavərənnahr guşələri haqqında qeyd edir..." [1, s. 8]. H.Məmmədov hesab etmir ki, C. Qaryağdıoğu ilə eyni zamanda və ondan irəli yetişən Azərbaycan xanəndələri Şur dəstgahını onun göstərdiyi kimi oxuyub. Müəllif bununla razılaşmır və yazır: "... bu heç bir vəch ilə düzgün ola bilməz. Çünki Şur Şahnazsız və Şikesteyi farssız Şur dəstgahı yoxdur" [1, s. 8].

H.Məmmədov bunun səbəbini izah etməyə çalışır və belə qənaətə gəlir ki, C.Qaryağdıoğlu bu tərkibi özünəməxsus ifa etdiyi bir yolla göstərmişdir. Məlumdur ki o, yüksək diapazona və zil səsə malik, zil pərdələrdə məharətlə oxuyan xanəndə olmuşdur. "Ola bilər ki, dəstgahların aşağı pərdələrindən tezliklə özünə çıxış yolu taparaq zil pərdələrə qalxmaq istəyən Cabbar, tarın aşağı və orta pərdələrində ifa olunan Şur Şahnaz və Şikesteyi fars bölmələrini oxumaqdan vaz keçmişdir" [1, s.9]. Çox güman ki, buna görə də xanəndə bu bölmələr haqqında məlumat vermir. Hacı Məmmədov məşhur tarzən Q.Primova istinad edərək, onun "Şur dəstgahına Şur Şahnaz, Şikesteyi Fars ilə Mübariqqənin, Xavəran ilə Əşiranın olmasını qəti surətdə" təsdiq etməsini nəzərə çatdırır.

Qeyd etmək lazımdır ki, Ü. Hacıbəyli şur məqamında 7 böyük bölməni seçir – Maye şur, Şur-şahnaz, Xicaz, Bayatı Kürd, Simai Şəms, Nişibi faraz. Dahi sənətkar tərtib etdiyi proqramda isə Şur dəstgahının yolunu belə göstərir: Mayeyi-şur, Dəramədi şur, Mayə, Bayatı-türk, Şikəsteyi-fars, Nişibi–fəraz, Simayi-şəms, Hicaz, Sarənc, Qəmənqiz, Şahnazi məşq, Şahnazi kürd, Dilkəş ilə Səlmək, Buselik, Şur [3]. Müasir musiqi təcrübəsində Şur dəstgahı fərqli şəkildə ifa olunur və onun tərkibinə Şur şahnaz daxil edilir.

H.Məmmədovun müşahidələr apardığı üçüncü muğam-dəstgah Cahargahdır. Onun fikrincə Cahargahın 4, Mənsuriyyəni də daxil etsək, 5 hissəsi mövcuddur: "Mayeyi cahargah, Güşeyi zabil və Bəstənigar, Hasar (qərrə), Manəndi Müxalif, çahargaha endikdən sonra zərb ilə, Mənsuriyyə" [1, s.10]. Ardınca müəllif C.Qaryağdıoğlunun göstərdiyi tərkibi təqdim edir (Mayeyi cahargah, Güşeyi zabil, Güşeyi Bəstənigar, Mənəndi Müxalif, Təsnif, həmin zərbi ilə Mənsuriyyə oxunur və Məqlub vasitəsilə enir mayəyə). H.Məmmədovun fikrincə belə tərkib qədim zamanlarda oxunardı, müasir xanəndələr isə "...cahargahda hasarda oxuyurlar, halbuki, hasarı gərək zabil dəstgahında oxuyasan. Oxuculara məlum olsun ki, çahargahın mayəsində hasar ləhnindədir. Bu mənsuriyyədə mağlubda, yenə cahargahın zil pərdələridir. Ona görə də çahargahda hasar oxumaq xaric və artıqdır" [1, s. 10].

H.Məmmədov əlavə edir ki, C.Qaryağdıoğlunun bu fikri hasarın öz yerini tamamilə aydın bir surətdə göstərir, "çünki mayeyi və yaxud mənsuriyyədə oxunan nəfəsləri eyni ilə bir kvinta yuxarı modulyasiya edib təkrar etmək həqiqətən yersizdir" [1, s. 11]. Eyni zamanda vurğulayır ki, yüksək diapazonlu və uca səsli bəzi xanəndələr hal-hazırda hasardan istifadə edir. Bu zaman o, həm də Q.Primovun dəfələrlə Abdulbağı Zulalovun Cahargah dəstgahında hasar oxumasını (1901-1902 illər) xatırlayır. H.Məmmədov müxtəlif məlumatları müqayisə edərək, belə nəticəyə gəlir ki, C.Qaryağdıoğlunun fikri qanun ola bilməz, çünki "cahargahda hasar bölməsi olmasa da onu keçmiş və hal-hazırdakı xanəndələrimiz o qədər ustalıq və məharətlə ifa edirlər ki, hasar bu dəstgahda bir miras olaraq bu günə qədər davam etməkdədir" [1].

H.Məmmədov müasir xanəndələrin Mahur dəstgahını necə ifa etməsi barədə fikirlər ilə bölüşərək, onun 4 hissədən təşkil olunmasını qeyd edir: Mayə; Mübariqqə: Vilayət, Dilkəş – təsnif oxunaraq; Şikesteyi fars və Əşiran guşəsi ilə Mahur və sonluq. Ardınca isə vurğulayır ki, C.Qaryağdıoğlu ilə şərikdir, çünki o da, bu dəstgahın tərkibini eyni ilə göstərir.

"Hümayun" dəstgahında isə H.Məmmədov 4 hissəni və bir neçə kiçik bölməni seçir. Əsas hissələr: Hümayun-mənəvi, Məsnəvi və Xocəstə guşələri; Feli; Tərkib və Hüzzal. Mənəvi, Məsnəvi və Xocəstə guşələri kiçikdir, Hümayun ilə Feli arasında ifa edilir. Tarzən qeyd edir ki, C.Qaryağdıoğlunun əlyazmasında bizə məlum olmayan iki guşə haqqında deyilir - Novruz və Qəhri. O, belə qənaətə gəlir ki, onları axtarıb-tapmaq maraqlı məsələdir. H.Məmmədov vurğulayır ki, müasir xanəndələr onun göstərdiyi yolla bu dəstgahı oxuyur. Müəllif həm də yazır: "Bundan əlavə Humayun Rast dəstgahının Vilayəti bölməsində də ifa olunur, və "rast hümayun" adlanır". Bu məlumata o, C.Qaryağdıoğlunun əlyazmasında da rast gəlir. Ü.Hacıbəyli isə öz proqramında Humayun dəstgahının yolunu belə göstərir: Hümayun, Feli, Tərkib, Novruzu, Ravəndi, Məsnəvi, Həzəl, Hümayun [3].

H.Məmmədov Zəbil dəstgahının 4 hissəsinin adını belə ardıcıllıqla göstərir – Mayei zabil, Müyə, Manəndi Muxalif və bir oktava zildə yenə Zabil (1 hissə), Mübariqqə (2 hissə), Hasar (3 hissə), Manəndi müxalif, Zabildə bitirmək. Müəllif əlavə edir ki, C.Qaryağdıoğlu bu muğamın bölmələrini eynilə göstərir və onun əlyazmasından bir sitat gətirir. C.Qaryağdıoğlu Zabilin, özü yazdığı kimi, "köhnə" zamanda oxunan yolunu göstərir – Mayə, Manəndi müxalif, təsnif ilə Mayəyə qayıtmaq, Mübariqqə, yenə Manəndi müxalif, zabil. Ardınca isə qeyd edir ki, müasir dövrdə xanəndələr Segah və Şikesteyi farsda oxuyur, lakin C.Qaryağdıoğlu keçən zamanlarda oxunan variantı "dürüst" sayır, "çünki Mirzə Hüseyn Segahı elədə gərək tək segah oxunsun" [1, s. 15].

Xanəndənin bu fikrini dəstəkləyən H.Məmmədov yazır ki, onun müasir təfsirində əsas nöqsanlarından biri "qəti surətdə Hasar bölməsindən istifadə" edilməməsi, itib getməsidir. Onun fikrincə "Segah yalnız tək ifa edilməlidir. İndiki xanəndələrin əksəriyyəti Zabil dəstgahında Segah və Şikesteyi farsda ifa edirlər" [1, s. 15]. Zabil və Segahın birləşdirilməsini H.Məmmədov "gözəl və məharətli" sayır və hətta əmələ gələn bu muğamın "Segah zabil dəstgahı" adlandırılmasını nəzərə çatdırır. Bu faktı müsbət qarşılayan tarzən, onu "musiqi xəzinəmizdə daha bir yeniliyə səbəb" olduğunu vurğulayır.

Bayatı İsfahan dəstgahından söz açan H.Məmmədov onun əsas etibarilə 4 hissədən ibarət olmasını nəzərə çatdırır – Mayə, Bayatı İsfahan, Bayatı Şiraz və Ruyi ərak, Uzzaldan Dilrubə enərək Bayatı İsfahanda bitirmək. Bu muğamın zərifliyi, lətifliyinə görə xalq arasında "Ərusi musiqi" ("Musiqi gəlini") adlandırılmasını nəzərə çatdırır. Ardınca o, yenə C.Qaryağdıoğlunun əlyazmasında bu muğama aid məlumata müraciət edir. Onun fikrincə görkəmli sənətkarın göstərdiyi Əbilcən – olduqca kiçik bir

nəfəsdən ibarətdir və çox zaman səslənmir. C.Qaryağdıoğlunun mayə bölməsi haqqında heç bir məlumat vermədiyini onun öz səsinə uyğunsuzluğunu nəzərə alaraq etməsi fikrini irəli sürür. H.Məmmədov həm də qeyd edir ki, "Bayatı Şiraz dəstgahı bəzi yerlərdə Bayatı İsfahan və bəzi yerlərdə isə Bayatı Şiraz dəstgahı" adlandırılır və hər biri eyni dəstgahdan ibarətdir [1].

Azərbaycanın xalq artisti, mahir tarzən Bəhram Mansurov ehtimal edir ki, "Bayatı-Şiraz" muğamı müstəqil muğam kimi yalnız XIX əsrdə formalaşıb və əvvəllər "Bayatı - İsfahan" dəstgahı kimi tanınıb. "Bayatı-İsfahan" Yaxın Şərq musiqisində "İsfahan" adlanıb və o, 12 əsas muğamdan biri olub [9]. Müasir Azərbaycan musiqi sənətində "Bayatı-İsfahan" - muğam şöbəsi, kiçik həcmli "Bayatı-Kürd və "Bayatı-Şiraz" muğamlarının tərkibinə daxil olan ikinci əsas şöbə kimi tanınır [2].

H.Məmmədovun nəzər yetirdiyi muğamlar arasında "Rahab dəstgahı – yaxud "Rəhavi" var. Tarzən onun əsasən 4 hissədən və bir neçə xırda bölməciklərdən təşkil olunmasını nəzərə çatdırır: Əmiri; Rahab, Nəva, Məsnəvi, Mənəvi və Cəhəri guşələri; Ərak; Pəncgah, Rahab. O, hesab edir ki, Rahab öz xarakteri etibarilə digər dəstgahların əksəriyyətini göstərə bilir. Yəni, "...tərkibində Şikəsteyi fars olan dəstgahlarda Rahabın çalınması və yaxud oxunması asanlıqla meydana gəlir. Çünki bunlar lad etibarilə bir-birinə yaxındılar" [1, c. 18].

C.Qaryağdıoğlunun əlyazmasındaki sitatdan məlum olur ki, xanəndə Rahavi – "ismi var, cismi yoxdur" dəstgahı adlandırır. Yəni başqa muğamlarda o özünü göstərir, "amma başqa məqamlar onun pərdəsində qərar tutmurlar" [1, s. 18]. H. Məmmədov müasir zamanda bu muğamın C.Qaryağdıoğlunun göstərdiyi yolla səslənməsini vurğulayır: Əmiri, Nəva guşəsi, Məsnəvi, Mənəvi, Cəhəri, Əraqi Pəncgah, Rahab və Təsnif.

Bu gün müasir musiqi ifaçılığında "Rahab" dəstgahı özünəməxsus yer tutur və Şur ailəsinə daxildir. Məlumdur ki, tarixi keçmişimizdə o, 12 əsas muğamdan biri olmuşdur. C.Qaryağdıoğlunun əlyazmasındaki fikirlər onu göstərir ki, artıq XIX əsrə qədər o öz çoxtərkibliliyini itirib, lakin çox sevilən muğamlardan biri olub. F.Şuşinski qeyd edir ki, bu zaman Qarabağ xanəndəsi Dəli İsmayıldan sonra Şəkili Ələsgər "Rəhab" muğamının mahir ifaçısı kimi tanınıb [10].

XX əsrdə N. Məmmədov görkəmli tarzən Əhməd Bakıxanovun, Ə.Məmmədli isə tarzən Kamil Əhmədovun ifasından "Rəhab" muğamını notlaşdırmışlar. Onlara nəzər yetirsək, kifayət qədər mürəkkəb tərkibi olan muğam-dəstgahı ilə rastlaşırıq. C.Qaryağdıoğlu və H.Məmmədovun göstərdiyi bölmə və guşələrlə yanaşı, digərləri də mövcuddur, yəni Bərdaşt (Əmiri), Mayə Rəhab, Əmiri, Mübəriqqə (Şikəsteyi Fars), Nəva, Əraq, Qərayi, Məsihi, İraq. Burada rast gəlinən Şikəsteyi fars bölməsi bir çox dəstgahlara daxildir, sadəcə olaraq, hər bir muğamın məqam xüsusiyyətlərini özündə cəmləşdirir və müxtəlif pərdələrdə tamamlanır.

H.Məmmədov "Nəva Nişapur dəstgahı"nın 10 hissədən ibarət olması barədə yazır. O, xatırladır ki, onun Nəva hissəsi öz xasiyyəti ilə Şura bənzəyir və məqam cəhətindəndə ona yaxındır. Lakin daxili bölmələri Şurdan tamamilə fərqlidir və bu hissələri o, Əməkdar İncəsənət xadimi M. Mansurovun verdiyi məlumat üzrə göstərir: Bərdaşt (maye), Nişapur, Pəhləvi, Mənəvi, Köhəri, Dəşti, Hacı yuni, Bayatı kürd, Bayatı türk, Baba tahir. N.Məmmədov qeyd edir ki, aydın surətdə onun haqqında göstəriş vermək mümkün deyil, çünki heç bir xanəndə və ifaçı onu istifadə etmir. O, vurğulayır ki, hətta C.Qaryağdıoğlu öz xatirələrində Nəva Nişapur dəstgahı haqqında heç bir məlumat vermir. Ü. Hacıbəylinin muğam proqramında da onun adı çəkilmir.

Lakin İzahlı muğam lüğətində Nəva Yaxın Şərq xalqlarının 12 əsas muğamları sırasında ikincisi, Azərbaycan musiqisində isə Nəva, Nişapur, Dəraməd-Şahnaz, Busəlik, Hüseyni, Məsihi, Şahnaz, Hacı Yuni, Bayatı-Kürd, Azərbaycan, Əşiran, Zəng-Şötör, Kərkuki, Şah Xətai, Əfşari və Şikəsteyi-Şirvan şöbə və guşələrindən ibarət dəstgah kimi göstərilir. Burada Nəva dəstgahının ikinci adının Nəvayi-Nişapur olması qeyd edilir. Nişapur isə bu dəstgahın birinci şöbəsidir. Məlumdur ki, Nəva Nişapur dəstgahı tarzən Bəhram Mansurovun yaradıcılığında xüsusi yer tutur. Böyük sənətkar az ifa olunan bu dəstgahın mahir ifaçısı sayılırdı. Onun sənətini yüksək qiymətləndirən Ü.Hacıbəyli, tarzəndən muğamların yeni tədris proqramını tərtib etməsini xahiş edir. Bu proqrama digərləri ilə yanaşı o, "Bayatı-Qacar", "Nəva", "Mirzə Hüseyn Segahı", "Dəşti"ni əlavə edir. Maraqlıdır ki, onunla belə H.Məmmədov yazır ki, heç bir xanəndə və ifaçının repertuarında o yoxdur və bunun səbəbini izah etmək çətindir.

Tarzən "Bayatı Qacar" dəstgahının 6 hissədən ibarət olmasını qeyd edir: Bərdaşt, maye; Hüseyni; Şikesteyi fars, zildə yenə də Bayatı qacar; Zəminxara; Mavərənnəhr, sonra da Şikesteyi fars, Qərayi, Bayatı Qacar. H.Məmmədov keçmişdə bu muğamdan geniş, müasir zamanda isə nadir halda istifadə olunması barədə yazır. Onun fikrincə, "böylə gedərsə bu dəstgahda Dügah və Nəva kimi işlənilməyib aradan çıxa bilər" [1, s. 21].

Müasir musiqi təcrübəsində o, Bayatı-Qacar adı ilə tanınan, Dügah və Şur muğamlarının tərkibinə daxil olan əsas şöbələrdən biridir. Eyni zamanda, Bərdaşt, mayə, Hüseyni, şikəstə, zil Bayatı-Qacar kimi şöbələrdən ibarət kiçik bir dəstgahdır.

H.Məmmədov Azərbaycan xalqının ən sevimli muğamlarından olan Segah dəstgahının 5 hissədən təşkil olunmasını və xalq arasında öz pərdələrinə görə fərqli adlandırılmasını vurğulayır: "Orta segah, "mi" (tarın pərdəsi), Mirzə Hüseyn segahı, "lya": Xaric segah, "si", tarın "sol" pərdəsində ifa olunan segah" (1, s.22). H.Məmmədov onların hər birinin öz xüsusiyyətinin olmasını nəzərə çatdıraraq, xanəndələrin səs imkanları ilə bağlayır. Məsələn, o, "sol" pərdədə ifa olunan segahın bəzi xanəndələrin bu pərdədə səslərinin nisbətən yaxşı işləməməsi səbəbindən bir o qədər də əlverişli saymır. H.Məmmədov segahlardan əsasını orta segahı sayır və yazır ki, tarın orta pərdəsində daxil olan hissələrin oxunması xanəndə üçün xeyli asanlaşır. Segahın hissələrini o, belə göstərir: Bərdaşt; Segah; Şikesteyi fars; Mübərriqə; Xavəran güşəsi; İrak və ya Manəndi muxalif; Segah.

Segahın Mirzə Hüseyn adının kim tərəfindən və nə vaxt verilməsini əfsanəvi mülahizələr sayır. O, C.Qaryağdıoğlunun əlyazmasından bir epizodu sitat şəklində verir: "Şuşa şəhərində məşhur Sallar təxəllüslü Mİrzə Hüseyn hər vaxt şeir yazanda segah üstə zümzümə edib yazardı. Yoldaşları buna həmişə segahi Mirzə Hüseyn deyərdilər. Ona görə də Mirzə Hüseyn segahı adı verildi" [1, s. 23]. H.Məmmədov vurğulayır ki, bir neçə Mirzə Hüseyn bu fürsətdən istifadə etməyə cəhd göstərdi, lakin şairin adı ilə də bağlı olmasını şübhəli adlandırdı.

H.Məmmədov, Əməkdar incəsənət xadimi, müəllimi M.Mansurovla söhbət əsnasında əsas muğam dəstgahları və onların hissələrinin adlarını göstərir. Burada Rast, Şur, Bayatı İsfahan, Mahur, Cahargah, Zabil, Rahab, Humayun, Nəva Nişapur, Dügah, Segah dəstgahlarını nəzərdə tutur. O, vurğulayır ki, M.Mansurov C.Qaryağdıoğlunun adlarını çəkdiyi bəzi hissələr və kiçik guşələri ilə razılaşmır və onları tənqid edir. Məsələn, Rast dəstgahında Şikesteyi farsın, Şurda isə Şuri-Şahnazın və Şikesteyi farsın, Cahargahda Hasarın və s. H.Məmmədov müəlliminin "bu bölmələrsiz həmin dəstgahlar nə əvvəllər və nə də ki, indiki zamanda heç bir vaxt olmamışdır" fikri ilə tam razıdır. C.Qaryağdıoğlunun Mahur dəstgahı barəsində verdiyi məlumat, çox güman ki, "Orta Mahura" aiddir.

H.Məmmədov dəstgahlarla yanaşı kiçik muğamların olmasını xatırlayır və bunu M.Mansurovun verdiyi məlumat əsasında göstərir:

1. "Şüştər" – 6 qapılı şəhər adından götürülmüşdür". Onun hissələri: Əmiri, Şüştər, Mənəvi, Məsnəvi, Tərkib, Şüştər [1, s. 28];
2. Bayatı kürd və onun tərkibi: Bayatı Kürd, Bayatı Türk, Hacı Yuni, Ayağı Azərbaycan;
3. Ovşarı, Heydəri;
4. Mani keşiş oğlu, Təsnif;
5. Heyratı – İrak üstə zərb ilə oxunan nəğmə;
6. Arazbarı – Simai şəms pərdələrində zərb ilə ifa olunan nəğmə;
7. Kürdi şahnaz – Şahnaz, Kürdi, Şah Şahnazdan ibarətdir;
8. Qatar – Zili, Mayəsi, Zəminxarə, Mavərənnəhr, Güşeyi Pəncgah, Qatarın ayağı.

H.Məmmədov əlavə edir ki, bunlardan başqa iki cür şikəstə vardır – Qarabağ şikəstəsi və Kəsmə şikəstə.

Tarzənin əlyazmasının bir bölməsi dəstgahların daxilində ifa olunan təsnif və rənglərə həsr edilib. Burada o, Füzulinin sözlərinə oxunan Rast dəstgahında "Can vermə qəmü eşqə ki, eşq afəti candır", Hümayun təsnifi "Məni candan usandırdı", Mahur təsnifi "Şəbu hicran yanar canım", xalq folklorundan istifadə olunmuş Bayatı Qacarın iki təsnifini – "Bir quş gəlir bər-bərdən" və "Gəl, gəl ahu balası", Segah təsnifi "Nə halətdir ki, mən düşdüm" və Çahargah təsnifi "İstəsən məhv olsun bu sütun dağı", Şur təsnifi "Azərbaycan elində sənsən gözəl", Rahab təsnifi "Burma dəxi ol zülfi pərişanına şana", Zabil təsnifi "Ey

güli tər xoş", Bayatı İsfahan təsnifi "Birçəklərin çətrini" mətnlərini tam şəkildə təqdim edir. H.Məmmədov bir daha Nəva nişapur ilə Dügah dəstgahlarının işlədilmədiyinə görə təsnif və rənglərinin qaranlıq qaldığını vurğulayır.

Əlyazmanın sonuncu bölməsi "Azərbaycan xalq nəğmələri" adlanır. Burada o, C.Qaryağdıoğlunun ilk dəfə "mahallara çıxaraq xalq nəğmələrini öz ana dilində" oxumasını yüksək qiymətləndirir [1, s. 36]. Məhz bu məqamı H.Məmmədov dönüş nöqtəsi hesab edir və yazır ki, bundan sonra xalq nəğmələri öz dilimizdə oxunur. O hesab edir ki, xanəndələrin xalq nəğmələrinin yaranmasında böyük rolu olmuşdur. Misal üçün o, "Pəncərədən daş gəlir, ay bəri bax, bəri bax", "Gedin deyin xan çobana", "Qalanın dibində sərildim yatdım" və s. H.Məmmədov yazır ki, nəğmələrin mətnləri azərbaycanlaşdırılır və "meydana elə nəğmələr çıxır ki, onlar nəinki Azərbaycanda, hətta çox uzaq ölkələrdə belə sevilə-sevilə oxunur" [1, s. 39].

Müəllif "bir neçə görkəmli və populyar" nəğmələrin mətnlərini tam şəkildə göstərir, o cümlədən, "Şeyda xanım" (Segah), "Lay-lay" (Segah), "Ay dərya kənarında" (Segah), "Tiflisin yolları" (Segah), "Sona xanım" (Mahur muğamı üzərində ifa olunur), "Gəlirəm gedirəm xəbərin olsun" (Mahur muğamı üzərində), "Mən gedirəm Zəngilana" (iki variantı göstərilir, Mahur muğamı üzərində), "Qalada yatmış idim" (Mahur muğamı), "Bu gələn yara bənzər" (Bayatı kürd), Ağacda leylək (Şur), Abı yaşıla bürünü (Mahur muğamı), "Məni dövrü fələk qoymuş" (Mahur muğamı), "Yeri dam üstə yeri" (Segah), "Süsən sünbül" (Mahur dəstgahı) və s. Müəllif bu mahnıların hansı məqam üzərində qurulmasını və oxunduğunu qeyd edir. Dəyərlidir ki, bəzi mahnıların poetik mətninin bir neçə fərqli variantları təqdim olunur.

Əlyazmanın son bölməsi keçmiş dövrün və H.Məmmədovun həmmüasirləri olan görkəmli ifaçılara həsr edilib. Müəllif müəyyən muğam dəstgahların kim tərəfindən səslənməsi və müşayiət olunması barədə məlumat verir. Eyni zamanda, onların ayrı-ayrı muğam dəstgahlarını hansı ardıcıllıqla ifa etməsi, hansı rəng və təsnifləri daxil etməsi barədə dəyərli məlumatla bölüşür – İslam Abdullayev, Qasım Abdullayev, Əkbər Xankişiyev, Ələsgər Abdullayev, Seyid Şuşinski və s. O, çox geniş bir şəkildə Cabbar Qaryağdıoğlunun həyat və yaradıcılığını işiqlandırır, onun Azərbaycan musiqi mədəniyyətində mahiyyətini müəyyən edir.

H.Məmmədovun əlyazmasında həm də Azərbaycan musiqi tarixinə, xüsusilə Şuşanın musiqi həyatına, muğam məktəblərinə, müəyyən dövrlərdə çalınan musiqi alətlərinə aid maraqlı informasiya mövcuddur. Lakin bu problemlərin işıqlandırılması daha geniş araşdırmalar tələb edir.

Beləliklə, Hacı Məmmədovun "Azərbaycan muğamları, xalq nəğmələri, təsniflər və rənglər haqqında" əlyazması musiqi elmi üçün böyük maraq doğuran mənbədir. Ona istinad edərək, musiqiçilər – bu gün musiqi təcrübəsindən çıxmış və unudulmuş nümunələri – muğam şöbələrini, təsnif və rəngləri rekonstruksiya edə bilərik. Bu da öz növbəsində xanəndə və ifaçıların repertuarlarını zənginləşdirəcək, dəyərli sənət nümunələrinin milli musiqi məkanında yenidən səslənməsinə şərait yaradacaq.

ƏDƏBİYYAT:

1. Məmmədov H. M. Azərbaycan muğamları, xalq nəğmələri, təsniflər və rənglər haqqında. Əlyazma. Müəllifin şəxsi arxivi.
2. İzahlı muğam lüğəti. Bakı, Ol –NPKT,2015, 214 s.
3. Hacıbəyov Ü.Ə. Muğam proqramı. Azərbaycan etnomusiqişünaslığı. 1921-2021 illər. Bakı, Ol, 2021, 592 s.
4. İsgəndərov E.H, Əsədullayev A. M. 7 klassik Azərbaycan muğamı. Solo violonçel üçün işləmə. Bakı, Elm və təhsil, 2011, 29 s.
5. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. Bakı, Elm, 1969, 248 s.
6. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1985, 653 s.
7. İsmayılov M.S.. Azərbaycan xalq musiqisinin janrları. Bakı, İşiq, 1984, 100 s.
8. Hacıbəyov Ü. Ə. "Üzeyir Azərbaycan xalq musiqisinin əsasları - Tarixi məlumat. 2022-03-25 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2013-05-11.
9. Şuşinski F.M.Azərbaycan xalq musiqiçiləri. Bakı, Yazıçı, 1985, 478 s.
10. Гаджибеков У.А. Основы азербайджанской народной музыки. Баку, Язычы, 1985, 146 с.

Asliddin NIZAMOV
Doctor of Art History,
Head of the Department of Art, National Academy
of Sciences of Tajikistan (Tajikistan, Dushanbe)
Email: asnizamov@yandex.ru

POETIC GENRES "*GHAZAL*", "*SOKINAMA*" AND THEIR INFLUENCE ON THE PROCESS OF SHASHMAQOM CYCLE FORMATION

Abstract: *The article deals with the historically formed unique forms of interrelations of ghazal and soqiname poetic genres with the traditions of tajik classical music Shashmaqom. The author explores numerous examples, based on a number of primary sources, when the content of poetic genres, which were originally traditionally performed in the harmony of those or other maqoms, found adequate artistic embodiment in the music.*

Keywords: *Persian-Tajik poetry, Duvozdahmakom, Shashmaqom, ghazal, Ushshok, Sufism, bastakor, sokinome, kasida, suvora, mutrib, choma, srot, tronic, winegiver, Ghazali, Rudaki, Hafiz, Nizami, Jami, daromad, furovard, maqom, chakomak, nomos, mutakorib, suvora, kasida*

Аслиддин НИЗАМОВ
Доктор искусствоведения,
Заведующий отделом искусствознания
Национальной Академии наук Таджикистана
(Таджикистан, Душанбе)

ПОЭТИЧЕСКИЕ ЖАНРЫ "ГАЗАЛЬ" И "СОКИНОМА" И ИХ ВЛИЯНИЕ НА ПРОЦЕСС ФОРМИРОВАНИЯ ЦИКЛА ШАШМАКОМ

Аннотация: *В статье рассматриваются исторически сложившиеся уникальные формы взаимосвязей поэтических жанров газаль и сокинома с традициями таджикской классической музыки Шашмаком. Автор на основе ряда первоисточников исследует многочисленные примеры, когда содержание поэтических жанров, которые изначально по традиции исполнялись в ладу тех или иных макомов, находили в музыке адекватное художественное воплощение.*

Ключевые слова: *Персидско-таджикская поэзия, Дувоздахмаком, Шашмаком, газель, Ушшок, суфизм, бастакор, сокинома, касыда, сувора, мутриб, чома,срот, троник, виночерпий, Газали , Рудаки, Хафиз, Низами, Джами,даромад, фуровард, маком, чакомак, номос, мутриб, мутакориб, сувора, касыда*

Classical music of Tajik people since the era of the founder of Persian-Tajik poetry Abuabdulloh Rudaki (d. 941) and the great physician Abuali Ibn Sino (980-1037), who wrote the "Canon of Medicine" as well as poems and treatises on music, has been formed in constant figurative and compositional interaction with poetic genres. It is well known that in the invaluable samples of Persian-Tajik poetry one can find hundreds of unique examples when the innermost thoughts and feelings, dreams and hopes of man were expressed through numerous symbols.

Historically, every stage of the formation of this poetry was firmly associated with music and singing. This creative tradition was first introduced by Abuabdullo Rudaki (10th century) who was both a great musician and a singer, and it was he who in the cultural space of the Samanids state spread a unique tradition of musical performance of each new poem. At first it was performance of *ghazals*, *rubai* and *tarona* and later with the appearance of new poetic forms - *muhammas*, *rubai*, *sokiname* and others, they also became an integral part of maqom music-making.

Darveshali Changi (17th century), the author of a famous treatise "*Tuhfat-us-surur*" (Gifts of Joy) wrote the following about the relationship between music and poetry: "In general, there is a special order between melody and words; they kind of need each other. This is for the reason that the content of sweet tales in poetry, when embellished with beautiful sounds of music, takes away sadness and melancholy from the soul and heart" [13, 94].

Shamsiddin Qaisi Rosi, the author of the famous treatise on poetics "*Al-mujam fi ma'airi ash'or-il-ajam*" (13th c.) told a story about a person with a very beautiful voice who once appeared at one of the meetings for the elite and sang a fragment of Nizami Ganjavi's poem with a pleasant melody and in "khafif" metrical [9,132]. This artistic practice prompted special forms of relationship between poetry and music, which eventually led to the formation of large musical cycles- *Duvozdahmaqom and Shashmaqom*.

But it should be noted that by the time of the creation of the first gazelles and taron, the creators of which were Rudaki in the context of the musical culture of Bukhara and Samarkand, the first samples of melodic "archetypes" were known, which served as musical images for the creation of *gazelles*. So, according to primary sources, for example, Rudaki created the famous *kasyda* while improvising in the melody of the makom "*Ushshok"*.

A little later, Abuhomid Ghazali (1058-1111) divided society into two categories - the broad mass (*avom)* and the chosen (*havos*) and put forward the theory that music is intended exclusively for the "chosen". Perhaps under the influence of these views of his, the *bastakors* (creators of melodies) chose the path of creating musical and poetic works in complex forms, i.e. intended specifically for the elite (including makoms).

As you know, almost all poetic forms are found in Shashmakom - *gazelle, tarona. beit, rubai, mustazod, sokinoma,* etc. The report examines this issue using the example of two of the most popular genres - *gazelle* and *sokinoma.*

The creator of the gazelle is considered to be Abuabdulloh Rudaki [2-1,]. It was he who first separated this form from the large-scale composition of the Arabic "*kasida"* and created an independent poetic unit. The form of the classical gazelle consists mainly of 10-12 beits, each of which plays an important function in the dramaturgy of the form (this applies to "*matla*" and "*makta"* - the initial and final *beits* of the *gazelle*). It is characteristic that in the music of Shashmakom it was these functional features of gazelles that served as the basis for the formation of the introductory *("Daromad*") and final parts ("*Furovard*") separate vocal sections of the Shashmakom.

The poet's skill was to present the most complex shades of human experiences in the small form of a *gazelle*, in essence it is a small poem in which the dramaturgy of only 8-12 beits reveals a whole world of colorful plots. Therefore, the melodies of *Shashmakom* fully reflect the full depth of the content of the verses, repeating in sound images and rhythms not only the formative and meaningful aspect of the gazelle, but also, very importantly, the full depth of the symbolism of the verse. In the *ghazals,* you can find stories when Hafiz sings the image of the heavenly harpist *Zuhra* (Venus) in the *ghazal*, or Abdurrahman Jami cites the symbolism of the genre "*Suvorah*" or "*Asbros"* (lit.: "the horseman") when creating characteristics of the last days of Joseph's life (in the poem "*Yusuf and Zuleikha*")[14,156].

1. Вызго Т. Развитие музыкального искусства Узбекистана и его связи с русской музыкой. Москва, 1970. с. 24.**1**
2. Джумаев А. К проблеме эволюции эстетических учений о макамате. //Вопросы эстетики, истории и теории монодии. Ташкент, 1987, с. 16-24
3. Кароматов Ф Макамат в условиях современности. //Профессиональная музыка устной традиции народов Ближнего, Среднего Востока и современность. - Ташкент, 1981. - С. 9.2
4. Ковбас М. В. В. Лейсек в Узбекистане. // Вопросы музыкальной культуры Узбекистана. - Ташкент, 1969. - Вып. 2. с. 111.
5. Мулло Бекжон Рахмонов и Матюсуф Харратов (Девонзода). Хоразм мусикий тарихчаси». Москва 1925г.
6. Нурджанов Н. Театральная и музыкальная жизнь столицы государства Саманидов (XIX-XX вв.).
7. Раджаби Ю. Макомлар масалисига дойр. Ташкент, 1963 В новой редакции она была издана под названием «Макомлар» в 2006 г.
8. Фитрат А. Узбек классик мусикаси ва унинг тарихи Москва 1927 г
9. Хандамян В. Создание библиотеки образцов (контакта) узбекского традиционного дутара. https://eamsj.uz/index.php/eamsjournal/article/view/53
10. Шукуров Ж. Прогрессив нотация. Мусиқа, № 4(8) 2019, с. 9-13.

Gülhüseyn KAZIMLI
f.ü.f.d., Beynəlxalq Müğam Mərkəzi,
tədqiqatçı,
Email: muğam1950@mail.ru

Turan İBRAHIMOV
tex.ü.f.d., Caspian Geophysical LLC, aparıcı
reservuar mühəndisi,
Email: turan.ibrahimov@gmail.com

QƏDİM AZƏRBAYCAN SƏS YAZILARI İRSİ: YENİ AXTARIŞLAR VƏ TAPINTILAR

Xülasə: *Azərbaycan xanəndələrinin səs yazıları 1906-1912-ci illərdə "Gramophone", "PATE", "Ekstrafon", "Sport-Record" kimi firmalarda qrammofon vallarına yazılmışdır. 600-dən çox vallar haqqında məlumat bazasını yaratmışıq. Bu xanəndələrin çoxu haqqında geniş tədqiqat işi aparılıb. Ancaq Məşədi Hilal Zeynalov, Məşədi Qafar, Aslan Səfərovun kimliyi haqqında heç yerdə məlumata rast gəlmədik. Bu məqalədə Məşədi Qafarın şəxsiyyəti barədə məlumatlar bir sıra tarixi materiallar əsasında müəyyənləşdirilərək tərcümeyi-halı tərtib olunmuş və onun unudulma səbəbləri aşkar edilmişdir.*

Açar sözlər: *Məşədi Qafar İsmayıl oğlu Qaryağdı, xanəndə, muğam, qrammofon valları, Şuşa*

Гюльгусейн КАЗЫМЛИ
К.и.н., Международный центр мугама,
научный сотрудник,

Туран ИБРАГИМОВ
К.т.н., ООО «Каспий Геофизик»,
сведущий инженер-разработчик

СТАРИННЫЕ ЗАПИСИ АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКИ: НОВЫЕ ПОИСКИ И НАХОДКИ

Аннотация: *В 1906-1912 годах записи азербайджанских певцов записывались на граммофонные валы в таких компаниях, как "Граммофон", "ПАТЭ", "Экстрафон", "Спорт-Рекорд". Мы создали базу данных из более чем 600 валов. Многие из этих певцов были тщательно исследованы. Однако мы не нашли никакой информации о личности Мешади Хилала Зейналова, Мешади Гафара, Аслана Сафарова. В данной статье на основе ряда исторических материалов определяются сведения о личности Мешади Гафара, составляется его биография и раскрываются причины его забвения.*

Ключевые слова: *Мешади Гафар Исмаил оглы Гарьягды, певец, мугам, граммофонные валы, Шуша*

Gulhuseyn KAZIMLI
Ph.D., International Mugam Center, researcher,

Turan IBRAHIMOV
Ph.D., Caspian Geophysical LLC,
lead reservoir engineer

OLD RECORDINGS OF AZERBAIJANIAN MUSIC: NEW SEARCHES AND FINDINGS

Abstract: *In 1906-1912, music performance of Azerbaijani singers were gramophone recorded in companies such as "Gramophone", "PATE", "Ekstrafon", "Sport-Record". We have created a database of*

more than 600 gramophone records. Many of these singers have been extensively researched. However, we did not find any information about the identity of Mashadi Hilal Zeynalov, Mashadi Gafar, Aslan Safarov. In this article, Mashadi Gafar's identity is determined based on many historical materials, his biography is drawn up, and the reasons for his oblivion are revealed.

Keywords: *Mashadi Gafar Ismail oglu Garyagdi, singer, mugham, gramophone records, Shusha.*

Naməlum xanəndələrin axtarışında

Azərbaycan musiqi tarixində XX əsrin əvvəllərində yaşamış elə xanəndələrimiz olub ki, onların qrammofon valına yazılmış səs yazıları həm bizim arxivlərdə, həm də dünyanın bir sıra ölkələrinin səs yazıları arxivlərində qorunub saxlanılır. Son illərdə muğam xəzinəmizdə səs yazıları, adları olan bir neçə xanəndəmizi tədqiq etməyə başlamışıq. Məqsədimiz bu valları sistemləşdirməklə, musiqi mədəniyyətimiz tarixinə töhfələr vermiş həmin insanları unutmamaq, tədqiqatla məşğul olan musiqişünaslarımıza dəyərli bir mənbə yadigar qoymaqdır.

Səsi vala yazılmış ilk qadın xanəndəmiz Mirzə Güllər və çoxsaylı valları olan xanəndə Məşədi Məhəmməd Fərzəliyev ilə əlaqədar tədqiqatlar apararkən müxtəlif səs yazıları arxivlərində qədim vallara rast gəldik. Bu günə qədər apardığımız tədqiqatlar nəticəsində XX əsrin birinci yarısında sənətdə olmuş xanəndələrimizin 600-dən çox valları haqqında məlumat bazasını yaratmışıq. Azərbaycanın, eləcə də dünyanın müxtəlif səs yazıları arxivlərində — Azərbaycan Respublikasının Dövlət Səs Yazıları Arxivində (ARDSYA), Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində (AMMDM), "diskografiya.musigidunya.az/gramafon.asp" saytında, o cümlədən Fransa Milli kitabxanasında (FMK) və Britaniya kitabxanalarında, Rusiyanın "russian-records.ru" (RR) səs yazıları saytından bu səslərin siyahısını tapıb məlumat bazasına daxil etmişik. Bura qədim valların istehsal tarixi, istehsal edən firmalar, arxivin adı, xanəndələrin tam adı, oxunmuş muğam və təsniflərin adı daxil edilmişdir. Məlumdur ki, valların yazılması dövründə onların üzərində verilmiş informasiyalar ərəb əlifbası, rus və digər xarici dillərdə qısa olaraq və təhriflərlə yazılmışdır. Bazaya daxil edərkən onların dəqiqləşdirilməsinə xüsusi diqqət verilmişdir.

1906-1912-ci illərdə "Gramophone", "PATE", "Ekstrafon", "Sport-Record" və s. kimi ən məşhur səs yazıları firmalarında Məşədi Məhəmməd Fərzəliyev Şuşalı, Keçəçioğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu, Məmmədqulu Şuşalı, Məcid Behbudov, Mirseyid Mirbabayev, Seyid Şuşinski və başqaları kimi bir çox məşhur xanəndələrimizin səs yazıları qrammofon vallarına yazılmışdır. Bu sənətkarların şəxsiyyəti haqqında geniş tədqiqatlar aparılıb, məqalələr, kitablar yazılıb. Ancaq səsləri vaxtilə bu firmalarda yazılmış Məşədi Hilal Zeynalov (38 səs yazısı), Məşədi Qafar (22 səs yazısı), Aslan Səfərov (16 səs yazısı) kimi xanəndələrimizin kimliyi, həyatı və aqibəti haqqında heç bir məlumat yoxdur. Bu məqalədə belə xanəndələrimizdən biri — Məşədi Qafarın şəxsiyyəti haqqında fikir və mülahizələrimizi sizinlə bölüşmək istərdik.

Məşədi Qafarın 4 müxtəlif arxivdə mövcud olan səs yazılarının siyahısı cədvəl 1-də verilib. Şəkil 1-2-də "PATE" və "Grammophone" firmalarında istehsal olunmuş bir neçə valın fotosu göstərilib. Tədqiqatçı alim, tarzən Mehman Mikayılovun şəxsi arxivində xanəndənin 3 səs yazısı mövcuddur. Bu yazıları ona İrandan sənət dostları göndərib. Onlar Məşədi Qafarın Şuşalı olduğunu, bir müddət İranda yaşayıb mərsiyəxanlıq etdiyini bildiriblər. Bundan başqa Məşədi Qafar haqqında məlumat yox idi.

Cədvəl 1. Məşədi Qafarın qrammofon vallarındakı səs yazılarının siyahısı

№	Arxivin adı	Arxiv №	İstehsal №-si	Fono sənədin adı	Tarix	Firma
1	ARDSYA	864-1	G.C-6-12913	Səmayi-şəms	1910	Gramophone
2	ARDSYA	864-2	G.C-6-24070	Küçələrə su səpmişəm	1910	Gramophone
3	ARDSYA	869	G.C.-2-12530	Humayun	1906	Gramophone
4	ARDSYA	870	G.C.-2-12539	İran marşı	1906	Gramophone
5	ARDSYA	871-1	G.C.-10-12019	Əraq	1909	Gramophone
6	ARDSYA	871-2	G.C.-3-12527	Hisar	1909	Gramophone
7	ARDSYA	872-1	G.C.-6-12912	Muğam (Luxlarva)		Gramophone
8	ARDSYA	872-2	G.C.-2-12540	Zəmin-Xara		Gramophone
9	ARDSYA	1072	G.C.-2-12529	Əraq	1906	Gramophone
10	ARDSYA	1540	G.C.-2-12528	Hicaz muxaliq	1906	Gramophone
11	ARDSYA	799-1	G.C.-6-12786	Muğamdan hissə		Gramophone
12	ARDSYA	1105-1	G.C.-6-12943	Əşiran		Gramophone
13	AMMDM	FFiMI №149	25821	Bayatı Şıraz,	1907	PATE
14	AMMDM	FFiMI №150	25820	Kürd Şahnaz	1907	PATE
15	FMK	AP-1785	25828	Məsnəvi	1907	PATE
16	FMK	AP-1785	25829	Şüştər	1907	PATE
17	FMK	AP-1786	25822	Rast Əraq	1907	PATE
18	FMK	AP-1786	25823	Zəmin-Xara	1907	PATE
19	RR		25828	Məsnəvi	1907	PATE
20	RR		25829	Şüştər	1907	PATE
21	RR		25822	Rast Əraq	1907	PATE
22	RR		25823	Zəmin-Xara	1907	PATE

Şəkil 1. Məşədi Qafarın "PATE" firmasında istehsal olunmuş valları.

Şəkil 2. Məşədi Qafarın "Gramophone" firmasında istehsal olunmuş valları.

Tədqiqatlarımıza ilk mənbə kimi XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan xalq musiqiçiləri haqqında fundamental tədqiqatçı olan Firidun Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabından Məşədi Qafarın adını axtarmağa başladıq. Maraqlıdır ki, muğam tədqiqatçımız Firidun Şuşinski də bu xanəndəyə ayrıca məqalə həsr etməyib. Amma onun kitabında musiqi tariximizdə ən görkəmli rol oynayan sənətkarlardan biri Cabbar Qaryağdıoğlu haqqında məqalədə Məşədi Qafar adına rast gəldik. Firidun Şuşinski yazır:

"Boyaqçı Məşədi İsmayıl (Cabbar Qaryağdıoğlunun atası – müəlliflər) da oğlanları ilə birlikdə dini mərasimlərdə iştirak edirdi. O, qatı dindar idi. Onun oğlanları - Məhəmməd və Qafar məhərrəmlik təziyəsində şəbihgərdanlıq edirdilər. Gözəl səsi olan Məhəmməd Aşura günlərində İran şairi Möhtəşəmin İmam Hüseynə həsr etdiyi şeirləri "Zəminxarə" üstündə çox təsirli oxuyarmış. Məşədi Məhəmmədin yanıqlı səsi balaca Cabbara lap uşaqlıqdan ciddi təsir etmiş, onun fikrində dərin iz buraxmışdır" [5, s.132].

Məşədi Məhəmməd xanəndəliklə bərabər, həm də gözəl şair idi. Hətta onun 6 şeiri Nəvvabın "Təzkireyi-Nəvvab"ına Məşədi Məhəmməd Bülbül Kərbəlayi İsmayıl oğlu Qaryağdı kimi daxil edilmişdi [3, s.612-617]. Məhəmməd daha sonralar xanəndəlikdən incik düşərək bu sənətdən əl çəkmişdi. Filologiya elmləri doktoru Raqub Kərimov Məşədi Məhəmməd Bülbülün çoxsaylı şeirlərini farscadan tərcümə edib 2008-ci ildə kitab şəkilində çap etdirmişdir [2].

Vaqif Bəhmənli Cabbar Qaryağdıoğlu haqqında kitabında yazır: "Mənbələrdə ailə üzvləri qismində atanın və onun dörd oğlunun adı çəkilir. Böyük oğul – Məhəmməd, sonra Məhərrəm, sonra Qafar, ortancıl, yaxud sonbeşik olması bilinməyən Cabbar" [1, s.7].

Mirzə Xosrov Axundzadə öz əsərində Qaryağdı nəslinə böyük yer vermişdir. Beş yerdə Cabbarı Qaryağdıoğlunun adını çəkmişdir. Daha sonra 3 qardaşını sıra ilə sadalamışdır [4, s. 56]:

Musiqi öyrənmiş **Qaryağdı Cabbar**,
Mirzəli Aşiqdən olmuş yadigar.
Qardaşı Məhəmməd, Məhərrəm, Qafar,
Musiqi elmində olmuşlar sərkar.

Cabbarın öz atası Mirzəli Aşiqdən yadigar qalmasını, Məşədi Məhəmməd Bülbül, Məhərrəm və Məşədi Qafarın hər üçünün musiqi elmində sərkar – yəni yüksək səviyyəli, ali rütbəli olmasını qeyd edir. Şeirdə bu 2 beyt çox önəmlidir, çünki Mirzə Xosrov onların müasiri olduğu üçün ən obyektiv qiyməti verə biləcək şəxsdir.

Bu mənbələrdən belə məlum olur ki, qardaşların hamısının gözəl səsi olub və onlar məclislərdə mərsiyəxanlıq ediblər. Bu məlumatları əldə edəndən sonra bizdə belə bir inam yaranmağa başladı ki, Məşədi Qafar da elə Cabbarın qardaşlarından olub. Ancaq əlimizdə bunu təsdiq edəcək heç bir əlavə məlumat yox idi. Əksinə, bu sahədə araşdırmalar aparmış bir neçə tədqiqatçıdan Məşədi Qafar barədə soruşduqda onlar Cabbar Qaryağdıoğlunun Qafar adlı qardaşının olmadığını söyləyərək bizi bu işdən bir qədər yayındırdılar.

Qeyd etdiyimiz kimi Məşədi Hilal və Məşədi Qafarın səs yazıları arxivində qrammofon valları var. Bunların bir qismi ARDSYA-da, AMMDM-də və dünyanın digər səs yazıları arxivlərində qorunub saxlanır. Həmin səs yazıları ilə də tanış olarkən qəribə təsadüflə rastlaşdıq. Məşədi Qafarın səs yazılarının Cabbar Qaryağdıoğlu ilə eyni firmalarda və eyni illərdə yazıldığı aydınlaşdı. Hər ikisinin qrammofon valları 1907-ci ildə "PATE" firmasında, 1906 və 1909-cu illərdə "Gramophone"da yazılıb. Bu, onu göstərir ki, səs yazdırmaq üçün hər iki xanəndə birgə səfər edib. Biz bunun təsadüf deyil, bir qanunauyğunluq olması qənaətinə gəldik. Amma bununla da kifayətlənmədik. Məşədi Qafarın Cabbar Qaryağdıoğlunun qardaşı olması haqqında fikirlər hələlik bir ehtimal olaraq qalırdı. Lap bu yaxınlarda baş vermiş bir hadisə isə bizim ehtimalların əslində həqiqət olduğunu sübuta yetirdi.

Məşədi Qafar haqqında müfəssəl mənbə - "Tərcümeyi-hal"

Cabbar Qaryağdıoğlunun qardaşı nəvəsi olan, hazırda Amerikada yaşayan basketbolçu Akif Qaryağdını biz buna qədər də tanıyırdıq. Lakin məşhur xanəndənin hansı qardaşının nəvəsi olduğunu bilmirdik. Təsadüf elə gətirdi ki, 2023-cü ilin mart ayında Amerikadan bir neçə günlüyə Bakıya, öz vətəninə qayıtmış Akif Qaryağdı ilə görüşüb söhbət edə bildik. Söhbət zamanı ondan bizi maraqlandıran

sualı soruşduq. Akif Qaryağdı dedi ki, o, Cabbar Qaryağdıoğlunun qardaşı Qafarın nəvəsidir. O, Məşədi Qafarın nəvəsi olduğunu sübut edən sənəd kimi atası Nəriman Qafar oğlu Qaryağdının sovet dövründə 1952-ci ildə yazdığı tərcümeyi-halı təqdim etdi. Bu tərcümeyi-halın bir hissəsi Şəkil 3-də göstərilmişdir. Burada qeyd olunur ki, Nərimanın atası Qafar İsmayıl oğlu Qaryağdıdır. O, 1880-ci ildə Şuşada doğulub və 1934-cü ildə rəhmətə gedib. Bu tərcümeyi-hal Məşədi Qafarın xanımı, ailə şəcərəsi, övladları haqqında lazımi məlumatları toplamağa zəmin yaratdı. Bu sənəd Məşədi Qafar haqqında bu günə qədər əldə olunmuş ən dürüst məlumatları özündə əks etdirir.



АВТОБИОГРАФИЯ

Я, КАРЯГДЫ Нариман Кафар оглы рождения 1917 года родился в г.Шуше НКО Азерб.ССР в семье кустаря - ремесленника.

Отец мой - Карягды Кафар Исмаил оглы рождения 1880г. со дня рождения прожил в г.Шуше,занимался кустарничеством и в 1934 году скончался.

Мать - Карягды Сеид Тоги кызы рождения 1890 года была всю жизнь домохозяйкой и в 1947 году после болезни скончалась.

Брат - Карягды Эрман Кафар оглы рождения 1920 года в настоящее время находится в рядах Советской Армии имея звание лейтенанта,является членом ВКП(б).

Сестры: Мнжин и Бизва,которые в настоящее время замужние проживают в г.Баку.

Şəkil 3. Məşədi Qafarın oğlu Nəriman Qaryağdının 1952-cı ildə yazdığı tərcümeyi-halın bir hissəsi.

Beləliklə, vaxtilə xanəndə olmuş Məşədi Qafar Cabbar Qaryağdıoğlunun qardaşıdır. Araşdırmalar onu da göstərdi ki, Məşədi Qafar öz dövrünün məşhur xanəndələri Cabbar Qaryağdıoğlu, Məşədi Məhəmməd Fərzəliyev Şuşalı, Keçəçioğlu Məhəmməd və b. ilə birlikdə 25-29 yaşlarında xaricə gedib və orada öz səsini vallara yazdırıb. Amma bir sual yenə bizi rahat buraxmırdı: necə olub ki, sonradan heç kim, ən əsası da Cabbar Qaryağdıoğlu qardaşı Məşədi Qafar haqqında heç bir məlumat yazmayıb, deməyib?

Bir çox məqamlara aydınlıq gətirən bir məzar daşı

2023-cü ilin mart ayının 7-də bu məqalənin müəllifləri Cabbar Qaryağdıoğlunun qardaşlarının nəvələri Cəlil Cəlal oğlu Qaryağdı (Məhərrəmin nəvəsi) və Akif Nəriman oğlu Qaryağdı (Məşədi Qafarın nəvəsi) ilə Yasamal qəbiristanlığında böyük xanəndə Cabbarın məzarını ziyarət etdik. Onun məzarı üstündə ucaldılmış heykəlini gördük, məzarın üstünə tər qərənfillər düzdük. Sonra həmin qəbirdən 50-60 metrlik bir məsafədə olan digər Qaryağdıların uyuduğu hissəyə ziyarətə gəldik. Akifin atası, Nəriman Qafar oğlu Qaryağdının məzarı buradadır. Onun yanında Tofiq Qəhrəman oğlu Qaryağdının məzarını görüb Akif müəllimdən Tofiq və Qəhrəmanın kimliyini soruşduq. Akif müəllim Qəhrəmanın Məşədi Qafarın böyük oğlu olduğunu söylədi. Təəccübümüzü gizlətmədən göndərdiyi tərcümeyi-halda onun adının olmamasının səbəbini soruşduqda Akif cavab verdi ki, Qəhrəman əmim 1937-ci ildə repressiya olunaraq Uzaq Şərqə Port Naxodkaya göndərilib və orada rəhmətə gedib. Burada atamla bir sırada əmim Qəhrəmanın oğlu Tofiq (1926-1949), qızı Sevil (Tamilla) (1932-2018) və həyat yoldaşı Şamı Mahmud qızı (1905-1991) Qaryağdılar dəfn ediliblər.

Bununla aydın olur ki, böyük oğlu Qəhrəmanın repressiyaya məruz qalması Məşədi Qafarın adının ortadan götürülməsinə bir vəsilə olub. Hətta doğma qardaşı belə onun adını tərcümeyi-halına yazmayıb. Cabbar Qaryağdıoğlu da Qafar qardaşının adını uşaqlarının yanında belə çəkə bilməyib. Bu da Cabbarın qardaşları haqqında məlumat toplayan bizim bəzi tədqiqatçıları yanlış fikir söyləməyə sövq edib.

Məşədi Qafar yaradıcılığı

Kimliyindən asılı olmayaraq Məşədi Qafar XX əsrin əvvəllərində yaşamış, ən azından 2 xarici ("Gramophone", "PATE") firmanın vallarında 18 səs yazısı yazdırmış bir xanəndədir. Ən azından deyirik, çünki inanmaq mümkün deyil ki, ancaq 6 dəqiqəlik səs yazısı yazdırmaq üçün bu sənətkarlar

Avropa ölkəsinə, lap elə başqa şəhərə, tutaq ki, Tiflisə getmiş olsunlar. ARDSYA-da Məşədi Qafarın 9 qrammofon valı var. AMMDM-də 1 valı qorunur. Fransa Milli kitabxanasında da 2 valı saytdan dinləmək üçün qoyulub. Ola bilsin ki, bu kitabxanada "PATE" firmasının daha çox qrammofon valları var. Lakin internet üzərindən ancaq 2 valı dinləməyə imkan yaradılıb.

Məşədi Qafar haqqında məlumat əldə edə bildiyimiz səs yazıları 1905-1909-cu illəri əhatə edir. O, "Səmayi-şəms", "Humayun", "Əraq", "Hicaz", "Əşiran" ("Gramophone" 1906, 1909) "Bayatı Şiraz", "Kürd Şahnaz", "Məsnəvi", "Şüştər", "Rast Əraq", "Zəmin-Xara" ("PATE", 1907) muğamları ilə yanaşı, həm də "Xalq mahnıları", "İran marşı" və "Luxlarva" ("Gramophone", 1906) oxuyub səsini qrammofon vallarına yazdırıb. Bu sadaladıqlarımızda Məşədi Qafar, əsasən, farsca oxuyub. ARDSYA həmin səs yazılarını bərpa edərək müasir səs daşıyıcılarına köçürüb mühafizə etməkdədir. Məşədi Qafarın ARDSYA-dan bizə təqdim edilən 13 səs yazısından bir "Küçələrə su səpmişəm" xalq mahnısını o, Azərbaycan dilində ifa edib. Səs yazılarını, eləcə də ARDSYA-da və AMMDM-də qorunub saxlanan səs yazıları haqqında məlumatları bizə təqdim edən Arxivin rəhbərliyinə və kollektivinə öz təşəkkürümüzü bildiririk.

Firidun Şuşinski yazır: "Seyid Tiflisə gələn ili (1911) Tiflis məclislərində, klublarda və teatr tamaşalarının fasilələrində Çəkməçi Məhəmməd, Məcid Behbudov, Məşədi Məmməd Fərzəliyev, Məşədi Qafar, Mərdi Canibəyov, Məşədi Zeynal, ... kimi görkəmli musiqiçilər çalıb-oxuyurdular" [5, s.258]. Məşədi Qafarın da müəyyən vaxt böyük qardaşı Məşədi Məhəmməd Bülbül kimi xanəndəlikdən əl çəkməsi barədə ehtimallar var.

"O, Avropa və Şərq musiqisindən ibarət konsertlərdə yaxından iştirak edərək başqa millətlərdən olan dinləyiciləri Azərbaycan musiqisinin xoş tərənələri ilə qidalandırırdı. Şübhəsiz ki, o dövrdə beynəlmiləl proqramdan ibarət olan konsertlərin təşkili çoxmillətli Bakı şəhərinin zəhmətkeşlərinin istər estetik, istərsə də beynəlmiləl tərbiyəsində böyük əhəmiyyət kəsb edirdi. Bakıda ilk dəfə Şərq və Avropa musiqisindən ibarət olan konsert 1927-ci ildə dekabr ayının 22-də türk mədəniyyət sarayında ... təşkil edilmişdir. Konsertdə Veys-Nino, Sona xanım, Jixaryev, Hüseynağa Hacıbababəyov, Arkaşa Arkadiyev, Əhməd Anatollu, Orlova, Sobolevskaya, Yefimova, Andiriasov, tarzən Simon Tiflisski, xanəndə Qafar və Seyid Şuşinski iştirak edirdi. Bu konsert ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı" [6, s.4].

Yuxarıda qeyd olunan məlumatlar bir daha onu göstərir ki, Məşədi Qafar (Sovet dövründə sadəcə olaraq Qafar!) hələ 1927-ci ildə belə Seyid Şuşinski ilə birgə tədbirlərdə iştirak edib və oxuyub.

Məşədi Qafarın bioqrafiyası

Beləliklə, Məşədi Qafar Qaryağdı haqqında hissə-hissə topladığımız məlumatları birləşdirərək aşağıdakıları demək olar:

Qafar Qaryağdı 1880-ci ildə Şuşada Boyaqçı Məşədi İsmayılın ailəsində anadan olub. Qafarın özündən böyük qardaşı xanəndə və şair, şeirlərini, əsasən, farsca yazmış Məşədi Məhəmməd Bülbül, Məhərrəm və məşhur xanəndə Cabbar Qaryağdıoğlu kimi qardaşları olub. Uşaq yaşlarından atası Məşədi İsmayıl başqa qardaşları kimi Qafarı da mərsiyəxan kimi yetişdirməyə səy göstərib. 1905-1909-cu illərdə Məşədi Qafar qardaşı Cabbar Qaryağdıoğlu və Azərbaycanın digər məşhur xanəndələri ilə xarici "Gramophone", "PATE" firmalarında ifalarını qrammofon vallarına yazdırıb.

Sovet dövründə Məşədi Qafar papaqçılıq və ticarətlə məşğul olmuşdur. O, Şuşanın Təbrizli məhəlləsindən olan Sayad Tağı qızı Şəfibəyova (1890-1947) ilə ailə qurmuş və bu evlilikdən onların Qəhrəman (1903-cü ildə doğulub, 1937-ci ildə repressiyaya məruz qalıb), Nəriman (1917-1953), Fərman (1920-1985) adlı üç oğlu, Fizzə (1908-1961), Miniş (1914-2005) adlı iki qızı dünyaya gəlmişdir.

Nəriman Qaryağdının tərcümeyi-halına görə Məşədi Qafar 1934-cü ildə vəfat etmişdir. Lakin ailə üzvləri arasında Məşədi Qafarı həyatının son dövründə İranda yaşadığı və orada vəfat etməsi haqqında digər fikirlər də mövcuddur. Ehtimal edilir ki, o 1930-cu illərdə İrana ticarət məqsədi ilə keçmiş və sərhədlər ciddi şəkildə bağlandıqdan sonra geri qayıda bilməmişdir. Ona görə də həmin dövrdə o İranda mərsiyəxanlıq etmişdir.

Azərbaycan muğamlarının ilk qeydə alınmış səs yazılarının valları haqqında məlumatların toplanıb baza yaradılması, onun sistemli şəkildə araşdırılması gözəl səsi və şaqraq zəngulələri ilə tarixə düşmüş şuşalı xanəndəmiz Məşədi Qafar İsmayıl oğlu Qaryağdının şəxsiyyətini müəyyənləşdirməyə

imkan vermişdir. Əminik ki, bu tədqiqatlar qədim muğam irsimizin qorunması və müdafiəsi məsələsinə dəyərli töhfəsini verəcəkdir.

ƏDƏBİYYAT:

1. Bəhmənli.V.İ.. Cabbar Qaryağdıoğlu / baş red. G.Cəfərova; red. R.Həsənova. Bakı: Şərq-Qərb, 2017. - 150 s.
2. Məşədi Məhəmməd Bülbül. Əsərləri. /AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu; ön söz, tərt.ed. və tərc.ed. R.Kərimov. Bakı: Şuşa, 2008. - 360 s.
3. Nəvvab M. M.Təzkireyi-Nəvvab/ tərt. ed. çapa haz. və ön söz müəl. Ə.Bağırov ; elmi red. T. Kərimli ; red. P.Kərimov Bakı: Elm, 2018. - 736 s.
4. Şuşa nəğmələri: 2 cilddə. I cild /red. Ç.Əlioğlu; toplayan, tərt. ed. və nəşrə haz. V.Quliyev. Bakı: Şuşa, 2001. - 800 s.
5. Şuşinski F.M.Azərbaycan xalq musiqiçiləri. / Bakı: Yazıçı, 1985. – 480 s.
6. «Бакинский рабочий» qəzeti, 1927-ci il, № 298. - s.4.

İradə KÖÇƏRLİ
Sənətşünaslıq doktoru, professor
AMEA Memarlıq və İncəsənət İnstitutu
"Musiqi folkloru" şöbəsinin müdiri
Email: i.kocharli@gmail.com

Vamiq MƏMMƏDƏLİYEV
Xalq artisti, professor
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
"Xalq çalğı alətləri ifaçılığı" kafedrasının müəllimi

MİLLİ MUSİQİ İRSİNİN QORUNMASI MƏSƏLƏLƏRİ VƏ YENİ – AÇILMAMIŞ MUĞAM SƏHİFƏLƏRİ
Fikrət Əmirovun not əlyazmaları
("Şur" və "Rast" muğam dəstgahları)

Xülasə: *Məlum olduğu kimi, 2003-cü il oktyabrın 17-də BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə baş konfransı "Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiya" qəbul etmişdir. Bu konvensiyadan sonra mədəni irsin qorunması bütün dünya ölkələrində ən aktual məsələlərdən biri olaraq irəli çəkilmişdir.*

Həmin il 4 ay öncə – 2003-cü il 16 mayda isə "Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikasının qanunu" H.Əliyev tərəfindən imzalanmışdır. Bu qanun çərçivəsində qeyri-maddi mədəni irsin toplanması, istifadəsi, folklor nümunələrinin hər cür yad təcavüz və oğurluqdan və s. qorunması prinsipləri tənzimlənmiş və bu sahədə dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. Bu qanunun bəndlərindən birində – "Qorunan folklor nümunələri" (maddə2) sırasında digərləri ilə yanaşı muğam dəstgahları, zərbi-muğamlar, təsnif və rənglər də (2.1.2.) vardır. Bu qanuna uyğun olaraq, başqaları ilə yanaşı, "Folklor nümunələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması" (5.1.1.) "Folklor nümunələrinin hüquqi qorunmasını təmin edən qanunvericilik bazasının yaradılması" (5.1.2.) öncül məsələlərdən biri olaraq irəli çəkilmişdir. Buradan görünür ki, BMT-nin qanunlarını qabaqlayan belə bir mühüm, taleyüklü bir məsələyə Azərbaycan dövləti də xüsusi önəm verir və nəzarətində saxlayır.

Açar sözlər: *rəqəmsallaşma, İKT, Fikrət Əmirov, not əlyazmaları, təsnif, "Şur" muğamı, "Rast" muğamı*

Ирада КОЧАРЛИ
доктор искусствоведения, профессор
Вамиг МАММАДАЛИЕВ
Народный артист, профессор

ВОПРОСЫ СОХРАНЕНИЯ НАЦИОНАЛЬНОГО МУЗЫКАЛЬНОГО НАСЛЕДИЯ И НОВЫЕ - НЕИЗУЧЕННЫЕ СТРАНИЦЫ МУГАМА
Ноты в рукописях Фикрета Амирова (мугамные дестгяхи «Шур» и «Раст»)

Аннотация: *В статье рассматриваются вопросы сохранения национального музыкального наследия и нотных рукописей, хранящихся в Архиве. Приведена краткая информация о таснифах, ренгах, зарби-мугамах, хранящихся в архивах Института Архитектуры и Искусства НАНА, и в статье упоминается, что они уже оцифрованы и напечатаны. Особое место в статье отведено нотным рукописям Ф.Амирова, поступившим из Архива. Одной из них является рукопись мугам-дастгях «Шур», написанная для симфонического мугама. Сравниваются рукопись и симфонический мугам, выявляются их сходства и различия. Другая неизученная страница мугама связана с*

творчеством Ф. Амирова – «Рукописи Растского мугама-дастгяха». (из исполнения Билала Яхья) и пяти других мугамных произведений».

Ключевые слова: *цифровой, Фикрет Амиров, нотные рукописи, тасниф, мугам-дестгях «Раст», мугам-дестгях «Шур»*

Irada KOCHARLI
Doctor of Arts, professor
Vamig MAMMADALIEV
People's artist, professor

ISSUES OF PRESERVATION OF NATIONAL MUSICAL HERITAGE AND NEW - UNSTUDIED MUGHAM PAGES
Sheet music manuscripts by Fikret Amirov
("Shur" and "Rast" mugham dastgahs)

Abstract: *The article deals with the issues of preservation of the national musical heritage and sheet music manuscripts stored in the Archive. Brief information is provided about tasnif, reng, zarbi-mughams preserved in the archives of ANAS Institute of Architecture and Art, and it is mentioned in the article that they have already been digitized and printed. A special place in the article is devoted to F.Amirov's sheet music manuscripts obtained from the Archive. One of them is the manuscript "Shur" mugham-dastgah written for symphonic mugham. Manuscript and symphonic mugham are compared and their similarities and differences are revealed. Another unstudied mugham page is related to F.Amirov's work – "manuscripts of Rast mugham dastgah (Noted from Bilal Yahya's performance) and five other mugham pieces"*

Keywords: *digital, Fikret Amirov, music manuscripts, tasnif, "Rast" mugham dastgah, "Shur" mugham dastgah*

İndi çox mürəkkəb, eyni zamanda, Qloballaşma və Universallaşma dövrünü yaşayırıq. Belə bir çətin mərhələdə əksər xalqlar milli özəlliyini itirmək qorxusu ilə üz-üzədir. Bütün bunlar musiqi sahəsində də yaşanır. Milli təfəkkür daşıyıcılarının, etnoforların azalması, temperasiyalı quruluşun – major-minorun basqısı, klavişli alətlərin yayılaraq geniş istifadəsi, artıq, öz müsbət nəticələri ilə yanaşı, mənfi təsirini də göstərməkdədir. Göründüyü kimi, Azərbaycan da bir çox ölkələr kimi, bu təsirlərdən yan keçməmişdir. Hələ keçən əsrin 20-ci illərində dahi Ü.Hacıbəylinin dediyi sözlər bu gün həqiqətə çevrilib. O deyirdi: "Bayatı-şirazı, şüştəri, müxalifi və şuru qatışdırıb hamısına minor nəzəriylə" baxmaq, "Avropalıların şirin minorlarına uymaq" musiqimizdə "yad tonların" yaranmasına gətirib çıxarır. İndi bu bir gerçəklikdir.

Lakin belə bir mürəkkəb dövrün öz üstün tərəfləri də vardır. İndi biz İnformasiya-Kommunikasiya Texnologiyalarının sürətlə inkişafı dövrünü yaşayırıq və bu bizim bütün həyatımızı kökündən dəyişdirib. "Dördüncü sənaye inqilabı" adlandırılan bu dövrdə postindustrial mərhələ öz yerini rəqəmsallaşmaya verir. Rəqəmsallaşma – kağız üzərində yazılmış məlumatların elektronlaşdırılması və internet resurslarına çevrilməsi deməkdir. Azərbaycan da, bütün ölkələr kimi, İKT-nın bütün resurslarından yararlanaraq rəqəmsallaşmaya keçid etmə yolundadır. Bu – milli musiqi irsinin toplanması, nota salınması, qorunması, "yad tonlar"dan silinməsi, təbliği və s. sahələrdə geniş perspektivlər açmışdır.

Ənənəvi musiqi mədəniyyətinin qorunması etnomusiqişünaslığın ən mühüm məsələlərindən biridir. Bu məsələ sistematik, hərtərəfli, məzmunlu proqram əsasında aparılmalıdır. Belə bir proqram özündə uzun sürən qoruma və inkişaf perspektivlərini əhatə etməlidir. Ənənəvi musiqi irsinin hüdudsuz resurslarının sənədləşməsini aparmaq, onların cədvəllərə, elektron kataloqlara daxil olunmasını təmin etmək lazımdır. Arxiv materialları öyrənilməli və onlardan XXI əsr kontekstində istifadə olunmalıdır. Əlbəttə ki, qorumaq əsas məqsəd deyildir. Əldə edilən hər bir qiymətli material musiqinin normal yüksəlişini, sonrakı inkişafını təmin etmək üçün qorunmalıdır. Əbədi dəyər olaraq öyrənilməsi, təhlili,

dərk edilməsi, nəsillərə ötürülməsini təmin etmək, yeni elmi-praktiki nailiyyətlər əldə etmək üçün qorunmalıdır. Milli-mənəvi dəyərlərin itkisinə - çox çətinliklər bahasına əldə edilmiş sərvətin itkisinə yol verilməməlidir. Qorumaq - toplamaqdan başlayır. Bu baxımdan,

Milli musiqi irsinin – o cümlədən muğam, zərbi muğam, təsnif və rənglərin toplanması və qorunması işi davamlı olaraq aparılmalıdır –

a) Azərbaycanın bütün regionlarında;

b) Azərbaycanlıların yaşadığı ərazilərdə -

- Dərbənd və Dərbəndyanı ərazilər - Rusiya;
- Borçalı, Qarayazı bölgələri - Gürcüstan;
- Güney Azərbaycanı – İran;
- Qars, Anadolu – Türkiyə;
- Kərkük – İrak (Mühacirət folklorunun öyrənilməsi də gündəmdə olan bir məsələdir).

Xüsusilə, Cənubi Azərbaycan və qismən də, İrakın Kərkük bölgəsi, muğam ənənələrinin güclü inkişaf etdiyi və yayıldığı ölkələr sırasındandır. Buna görə də, muğam sənəti ilə bağlı araşdırmalar daha çox məhz bu ölkələrdə aparılmalıdır – Azərbaycanlı ifaçılar, onların repertuarı, muğam dəstgahlar, onların tərkibi, kompozisiya quruluşu, inkişaf xüsusiyyətləri, çağdaş vəziyyəti və s., arxiv, muzey və kitabxanalarda saxlanılan və Azərbaycan musiqi tarixinə aid sənədlər, mövcud materiallar haqqında məlumatlar, demək olar ki, yox dərəcəsindədir. Bir məsələni də yada salmaq istərdim ki, Azərbaycanın üç böyük Şuşalı muğam ustası həyat və fəaliyyətinin heç də kiçik olmayan bir dövrünü Tiflisdə yaşamışdır. Xanəndə Abdulbaqi Bülbülcan 30 il (1875-1905-ci illər), tarzən Məşədi Məmməd Fərzəliyev 8 il (1911-1919), xanəndə Seyid Şuşinski 7 il (1912-1919), Məcid Behbudov və b. Tiflis şəhərində yaşamışdır. Biz bu məşhur muğam ustaları haqqında çox az məlumatlıyıq. Lakin onların yaradıcılığının Tiflis dövrü haqqında isə, demək olar ki, bilgilərimiz yox dərəcəsindədir. Bura 20-25 ildən artıq Tiflisdə yaşayıb yaradan və orada dəfn olunan Ərdəbilli Səttarı, eləcə də, Tiflisin Azərbaycanla bağlı səhifələrini də əlavə edə bilərik. Bu baxımdan, Gürcüstan kitabxanaları və arxivlərinə ezamiyyə olunaraq toplamalar, araşdırmalar aparmaq çox vacibdir.

1. El havalarının pasportlaşması –

Hər bir şifahi ənənəli milli musiqi nümunəsi xüsusi anketlər əsasında pasportlaşmalıdır – (annotasiyalar, təsvirlər, tədqiqatlar, sənədləşmələr, qeydlər və rəqəmsal təsvirlər)

2. Xalq musiqi nümunələrinin ümumi Elektron İnformasiya Bankının yaradılması –

- bütün arxiv materiallarının (not əlyazmaları, audio-videoyazılar, lent yazıları, kağız məlumatlar və s.), bərpa olunmalı, rəqəmsallaşdırılmalı, bir araya toplanmalı və mərkəzləşməlidir;
- Arxivlərdə olan ərəb qrafikası ilə yazılmış əlyazmaların transliterasiya edilməsi və rəqəmsallaşdırılması; ali məktəblərdə ("Şərqşünaslıq" fakültəsində təhsil alan tələbələrə ("Ərəb dili" ixtisası) transliterasiya üzrə mütəxəssislərin hazırlanması üçün əsgi əlifbanın tədris olunması;
- Farsdilli mənbələrlə işləmək üçün mütəxəssis-musiqişünasların hazırlanması, Musiqi mənbəşünaslığının etnomusiqişünaslığın inkişafına yönəldilməsi, Dünya ölkələrinin Arxivlərində araşdırmalar aparılması və Azərbaycana aid materialların ölkəyə gətirilməsi.

Məlum olduğu kimi, Ü.Hacıbəyli və M.Maqomayev tərəfindən əsası qoyulmuş toplama və notasalma işi sistemli olaraq 1932-ci ildə Bülbülün təşəbbüsü ilə yaradılan Elmi Tədqiqat Musiqi Kabineti tərəfindən aparılmışdır. Gənc və yetənəkli tələbə-bəstəkar və musiqişünasların fədakar əməyi sayəsində çoxlu sayda xalq mahnı və rəqsləri, el havaları, muğam dəstgahları, təsnif və rənglər, aşıq havaları, dastan və rəvayətlər və s. toplanmış, nota salınmış, qədim alətlər, şəkillər, vallar və s. yığılmış, arxivlər, fonoarxivlər yaradılmış, elmi tədqiqatlar aparılmış, dərsliklər yazılmış, ümumiyyətlə, Azərbaycan musiqi mədəniyyətinin inkişafı yolunda mühüm addımlar atılmış, beləliklə də, Azərbaycan etnomusiqişünaslığının bünövrəsi qoyulmuş, gələcək inkişafına yol açılmışdır.

Qeyd etməliyik ki, Arxivlərdə qorunan qiymətli və yeganə not əlyazmalarının əksər hissəsi, nə qədər təəccüblü olsa da, uzun müddət diqqətdən kənarda qalmış, çap olunmamış şəkildə rəflərdə qalaraq, sanki, "unudulmuşdur". Onların çox az bir hissəsindən müəyyən elmi araşdırmalar prosesində ayrı-ayrı şəxslər tərəfindən istifadə olunmuşdur. Tədqiqatçılar daha asan yolla gedərək çap olunmuş not yazılarına üstünlük vermişlər. Son dövrlər isə vəziyyət bir qədər dəyişmiş və arxiv materiallarına maraq artmışdır.

Artıq not əlyazmalarının rəqəmsallaşmasına başlanılmış və Mİİ-nin arxiv materialları əsasında 7 kitab-not nəşr olunmuşdur (2017-2023). Bunlar əsasən Q.Qarayev, C.Hacıyev, M.S.İsmayılov, Z.Bağırov, Ərtoğrol C., Niyazinin nota saldıqları xalq musiqi örnəkləridir: el rəqsləri və xalq mahnıları, aşıq hava və dastanları, instrumental el havalarıdır. Onu da qeyd edək ki, ETMK çərçivəsində toplanan və Ərtoğrolun rəy verdiyi 40-dan çox qovluq isə Hüseyn Cavid muzeyinə verilmiş və həmin materiallar "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" (Layihənin müəllifi və tərtibçisi f.ü.e.d. G.Babaxanlıdır. Bakı, 2011) adlı 13 cildlik nəşrdə çap olunmuşdur. Nəşrə, əsasən, aşıq dastan və rəvayətləri, şeirləri, təsnif mətnləri və s. daxildir. Bəzi cildlərdə isə Ərtoğrulun not əlyazmaları yer almışdır (1, 12, 13cc.).

Daha bir kitab isə "Zülfüqar bəy Hacıbəyov və Azərbaycan musiqi folkloru" kitabıdır. Əski Azərbaycan əlifbasından transliterasiya edilən zəngin material Z.Hacıbəyovun yaradıcılığına yeni bir işıq salmışdır. Bura Z.Hacıbəyovun topladığı bayatılar, "Qaçaq Nəbi" dastanı, xalq mahnıları, rəqsləri, aşıq havaları və alətlərin tərtib olunmuş ilk siyahıları daxil edilmişdir. Maraqlıdır ki, Z.Hacıbəyov ilk dəfə olaraq xalq mahnı və rəqslərin qarşısında onların aid olduqları muğam/məqamların adlarını da qeyd etmişdir.

Bəs Arxivlərdə muğam sənəti ilə bağlı hansı əlyazmalar və s. mövcuddur və necə qorunur? Əlbəttə, bütün Arxivlərdə mövcud olan materiallar barəsində fikir söyləmək çətindir və bəlkə də heç mümkün deyil. Biz isə AMEA Mİİ və bir neçə digər arxivlərdə saxlanılan muğam dəstgahları, zərbi-muğam, təsnif və rənglərin əlyazmaları haqqında söhbət açmaq istərdik.

AMEA Mİİ Arxivində mövcud olan sənədlər arasında təsniflərin yerləşdiyi (inv.21, 25) 2 qovluq vardır. Bu qovluqlarda musiqişünas M.S.İsmayılovun nota saldığı iyirmi beş təsnifin not əlyazmaları saxlanılır: Rast təsnifi, Bayatı İsfahan (Əli Zöhab), Bayatı Şiraz, Bayatı kürd, Mahur (Mübərriqə), Mahur hindi təsnifi, Mahur – Əraqın təsnifi, Mahur təsnifi, Hacı Yuni – ümumilikdə 9 təsnif yazılmışdır (25/V-1938-ci il). 25-ci qovluqda (inv.25) isə "Simayi şəms üstə Fərhad" (C.Qaryağdı), "Leyli" (C.Qaryağdı), "Şirin" (C.Qaryağdı), "Məcnun" – Humayun" təsnifi (C.Qaryağdı), "Şur"da "Bayatı türk"dən sonra "Şikəsteyi-fars" (Əli Zöhab), "Segahın təsnifi", "Bayatı Qacarın təsnifi", "Sarəncin təsnifi", "Bəstə nigarın təsnifi", "Segahın təsnifi", "Şüştərin təsnifi", "Dügahın təsnifi", "Rastın təsnifi", "Çargah müxalifinin təsnifi", "Mahurun təsnifi", "Baba Tahirin təsnifi" – ümumilikdə, 16 təsnifin not yazıları vardır (1/VII-1939-cu il). Bu təsniflərin hamısı Nizami Gəncəvinin sözlərinə oxunmuş və bir neçəsi "Leyli və Məcnun", "Xosrov və Şirin" poemalarına aiddir. Adı çəkilən təsniflərin not əlyazmaları 2018-ci ildə elektron yazıya köçürülərək kitab-not halında çapdan çıxmışdır (İ.Köçərli. "Musiqişünas M.S.İsmayılovun not əlyazmaları. Təsniflər" Bakı-2018) Yeri gəlmişkən onu da qeyd edək ki, bu təsniflərin poetik mətnləri yuxarıda adı çəkilən çoxcildliyinin II cildinə – "Azərbaycan klassik musiqi mətnləri və Cabbar Qaryağdının şərhləri" – daxil edilmişdir.

Təsnif və xalq mahnılarının nota salınmasında Ərtoğrol Cavidin imzası da, xüsusilə, qabarıq görünür. ETMK 1940-1941-ci illər üzrə elmi və təcrübi fəaliyyətinin əsas qolu 21 yaşlı gənc Ərtoğrolun adı ilə bağlıdır desək, fikrimizcə, yanılmarıq. Belə ki, adı çəkilən 13 cildlik nəşrin 12-13 cildlərində - "Ərtoğrol Cavidin nota saldığı xalq mahnıları" – Ərtoğrol Cavidin nota saldığı xalq melodiyaları və təsniflər öz yerini almışdır. Bura on təsnifin not əlyazmalarından köçürülmüş elektron yazıları daxil edilib. Bunlardan beşi böyük xanəndə Cabbar Qaryağdı oğlunun ifasından yazıya alınıb: "Segahın mübərriqəsi", "Təsnif Zəminxarə", "Təsnif şüştər", iki "Təsnif bayatı-kürd" (24/II-1941il)". Daha beş təsnif isə C.Bağdadbəyovun ifasından nota salınıb. "Təsnif" – iki variantda – birinin üzərində "Hacı Hüsününküdür", digərinin üzərində isə "Bağdadbəyovun ifasından" sözləri yazılıb. Daha bir təsnif "Natəvanın qəzəlində", "Bəhri təvil" və nəhayət, bir adsız təsnif də nota köçürülüb (12/II-1941).

Mİİ-nin arxivində əlyazma şəklində olan rənglər də vardır ki, tarzən Qurban Primovun ifasından Zakir Bağırov tərəfindən nota salınmışdır. Həmin rənglər arxivdə müxtəlif nömrəli - 3 qovluqda (inventar nömrələri (6, 96[a] və 24[a]) – həm əsli, həm də köçürməsi şəklində qorunub saxlanılır (1937-ci il) Qovluqlara "Mahur", "Vilayəti", "Aşiran", "Şikəsteyi-fars", "Mübərriqə", eləcə də, "Şur", "Şahnaz", "Bayatı-türk", "Simayi-şəms", "Sarəng" – cəmi 11 rəng daxildir. Artıq həmin rənglərin not əlyazmaları "Azərbaycan etnomusiqişünaslığı üzrə oçerklər" toplusunda (Bakı, 2017) faksimile şəklində çap olunmuşdur. Arxiv materialları arasında, az da olsa, zərbi-muğamların not yazılarına da təsadüf olunur.

Bu – Z.Bağırovun nota saldığı "Arazbarı" və "Heyratı" zərbi-muğamlarından bir instrumental musiqi parçasının not yazılarıdır. AMEA-nın Arxivindən bizə məlum olan zərbi-muğam, təsnif və rənglərin əlyazmalarının sayı bununla tamamlanır. Təsnif və rənglərdən ibarət bir neçə qovluq da vardır ki, onlar itmiş hesab olunur.

Çıxışımın bu kəsimi isə arxivdən əldə olunan yeni materiallar – açılmamış muğam səhifələri haqqındadır və F.Əmirovun adı ilə bağlıdır. Belə ki, Bülbülün Ev-Muzeyindən F.Əmirovun qələminə məxsus olan "Şur" muğam-dəstgahının not əlyazması tərəfimizdən üzə çıxarılıb. Əlyazmada tarix göstərilməyib. Lakin notasalmanın məhz simfonik muğam üçün yazılması şübhəsizdir. Çünki, həmin əlyazmadakı notasalmalar, demək olar ki, dəyişilmədən (bəzi şöbə, təsnif və b. çıxmaq şərtilə) simfonik muğamda istifadə olunub. Əlyazmanın I səhifəsinin üzərində adı və sol küncündə isə "Fikrət Əmirov" sözləri yazılıb. Əlyazmada "Şur" muğam-dəstgahı 9 şöbə, 4 təsnif və 2 rəngdən ibarətdir." Məlum olduğu kimi, "Şur" simfonik muğamının partiturasında bəstəkar tərəfindən 5 şöbə, iki təsnif və iki rəngin adı qeyd olunub. Bu baxımdan, əlyazma və simfonik muğam arasında müəyyən fərqlər vardır. Əslində isə, simfonik muğamda daha iki muğam şöbəsi də səslənir ki, onların adı bəstəkarın özü tərəfindən partiturada qeyd olunmayıb. Əlyazmada isə həmin şöbə və guşələrin yazıları vardır.

	"Şur" muğam-dəstgahı (əlyazma)	**"Şur" simfonik muğamı**
1.	Şur (Mayə-şur)	Giriş (+ Mayə şur)
2.	Təsnif	Təsnif
3.	Şahnaz	Şur-şahnaz
4.	–	Rəng ("Ay qadası")
5.	**Bayatı-türk**	Bayatı ***(adı tam deyil)***
6.	Rəng	Rəng
7.	**Şikəsteyi-fars**	***Adı yazılmayıb***
8.	Təsnif	Təsnif ("Evləri var xanə-xanə")
9.	Əraq	İraq
10.	*Təsnif*	–
11.	*Kar kürd*	–
12.	Simayi-şəms	Simayi-şəms
13.	**Nişibi-fəraz**	***Adı yazılmayıb***
14.	*Rəng ("Qəşəngdir")*	–
15.	*Sarəng*	–
16	*Təsnif*	–
Cəmi:	9 şöbə, 4 təsnif, 2 rəng	7 şöbə, 2 təsnif, 2 rəng

Əlyazmadan görünür ki, "Şur" muğam dəstgahı məhz simfonik muğam üçün işlənərək yazılıb. Bütün mövzular metr və xanə qaydalarına uyğunlaşdırılıb və eyni şəkildə simfonik muğama daxil edilib və orkestrləşdirilərək partitura şəklində işlənilib.

Simfonik muğamda adı keçən "Bayatı" – şöbəsi "Şur" muğamının "Bayatı-türk" şöbəsi əsasında yazılmış və əlyazmada öz gərəkli yerini almışdır. Şöbənin notasalması olduğu kimi – dəyişilmədən əsərə daxil edilmiş və "Bayatı" adlandırılmışdır. Bunun səbəbi nə ola bilərdi? Fikrimizcə, səbəb – elə şöbənin öz adıdır. Yada salaq ki, əsər 1948-ci ildə yazılmışdır. Məlumdur ki, artıq 30-cu illərin sonu-40-cı illərin əvvəllərindən başlayaraq, "türk" sözü Azərbaycan dilindən çıxarılmış, işlənilməsinə yasaq qoyulmuşdur. "Azərbaycan türk el nəğmələri", "Azərbaycan türk xalq mahnıları" və s. adından türk sözü silinmiş və arzuolunmayan söz olaraq qəbul edilmişdir. Fikrimizcə, məhz bu səbəbdən və məcburiyyət qarşısında bəstəkar "Bayatı-türk" adından yan keçmiş və lakin, çıxış yolunu düzgün tapmış, şöbəni "Bayatı" adlandırmışdır.

"Bayatı"dan sonra səslənməli olan şöbənin adı isə, o dövrün siyasi ideologiyası ilə bağlı yanaşsaq, əvvəlki addan, fikrimizcə, bir qədər də "intriqa"lı olmuşdur – "Şikəsteyi-fars". Bu adı isə, çox

ola bilsin ki, bəstəkarın özü əsərə salmamışdır və fikrimizcə, əsərə daxil etməməklə, çox düzgün qərar qəbul etmişdir. Çünki, əslində "şöbənin adı – "Şikəsteyi-fars" və şöbənin daxili musiqili-poetik konsepsiyası (Azərbaycan-türk) bir-birinə uyğun gəlmir, hətta bir-birilə daxili təzad təşkil edir." (1,195-210). Bu, ən qədim el havalarından qaynaqlanan, Azərbaycan musiqisinin ana, özək intonasiyalarını özündə daşıyan qəliblənmiş melodik-intonasiya modelidir və sırf milli səciyyə daşıyır." (1,195) Tarixi yaddaşla bizə gəlib çatmış genoformula-düsturdur. Hətta deyərdim ki, xalqımızın milli musiqilimusiqi damğasıdır. Düzdür, indi bu şöbə muğam ustalarımız tərəfindən daha da inkişaf etdirilib, ona əsl muğam gəzişmələri daxil edilərək zənginləşdirilib. Lakin, yenə də, "Şikəsteyi-fars" adlandırdığımız bu "şikəstəsayağı"/"bayatısayağı" şöbə Azərbaycan xalqının muğam sənətinə verdiyi töhfədir. Bir daha xatırladaq ki, Ü.Hacıbəyli demişdir ki, "Şikəsteyi-fars" "Şikəstə"nin bir növüdür. Fikrət Əmirov Ü.Hacıbəyli məktəbinin davamçısı, özü daxilən milli musiqi təfəkkürün daşıyıcısı idi və daxilən bunları dərk edirdi. Həmin adın simfonik muğama salınmamasının səbəbi də, fikrimizcə, bu idi.

Muğam-dəstgahın "Şikəsteyi-fars" şöbəsinin əlyazması və simfonik muğamın uyğun bölməsini müqayisə edək (*fa diyez şur*). Əlyazmanın müəyyən parçaları simfonik əsərə daxil edilməyib. "Şikəsteyi-fars" şöbəsi *do diyez segaha* əsaslanır. Melodiya *əsas tonun kvintası – yəni, şikəstə pərdəsi (mi)* ilə başlayır. Melodik improvizasiyanın əsasında şikəstələrə xas olan aşağı enən trixord intonasiyası dayanır – *mi-re-do diyez.* Simfonik orkestrdə *şikəstə pərdəsi* sürəkli şəkildə səslənərək vurğulanır və həmin səsin əhəmiyyəti qabardılır, 16 xanə boyu hökmranlıq edərək sonda əsas tona, yəni, *lya tonuna* düşərək tamamlanır. Əsas tona keçid *mayə-əsas tonun üst aparıcı tonu və əsas ton* üzərində baş tutur. Bu isə "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", eləcə də, *baş pərdə kökünə* (segaha uyğundur) əsaslanan bütün aşıq havaları üçün xarakterik bir gediş-melodik hərəkətdir. Daha sonra 4 xanə boyunca *əsas ton-mayə-şikəstə pərdələri* üzərində uyğun muğam improvizasiyası baş verir və yenə də əsas tonda tamamlanır. Qeyd edək ki, bu bölmədə "Çoban bayatı"nın intonasiyalarını da eşitmək mümkündür. Əlyazmada bu özəl intonasiyalar daha qabarıqdır və kadensiyalarda dəfələrlə səsləndirilir. Simfonik muğamda isə onlardan daha az istifadə olunmuşdur. 52 rəqəmi ilə nömrələnən xanədən başlayaraq səslənən melodiya isə "Qarabağ şikəstəsi"nin hamıya çox tanış olan instrumental rənglərindən biri əsasında yazılıb. Sekvensiyalardan yaranan həmin melodiya 28 xanə boyu dolğun və rəngarəng orkestr səslənmələri ilə işlənilir. Daha sonra isə (7 xanə) keçid xasiyyətli muğamvari musiqi parçası səslənərək mayə pilləsində (*do diyez)* tamamlanır. Bu kiçik epizoddan sonra F.Əmirov "Təsnif" başlığını yazmış və "Evləri var xanə-xanə" xalq mahnısından istifadə edərək eyni məqam-intonasiya sahəsini davam etdirir (*cis segah*). Sözügedən musiqi bölməsinin musiqi kompozisiyasının melodik-intonasiya və məqam əsası onu deməyə əsas verir ki, burada "şikəsteyi-fars" şöbəsindən daha çox şikəstə motivlərinə və "Çoban-bayatı"nın özəl intonasiya elementlərinə üstünlük verilib. Əlyazmada "Mübərriqə"nin intonasiyaları eşidilsə də, simfonik muğama daxil edilməyib. Şöbənin nota salmasını N.Məmmədovun nota köçürdüyü "Şur" muğam-dəstgahının eyniadlı şöbəsinin yazısı ilə də müqayisə etmək mümkündür. Müqayisədən görünür ki, N.Məmmədovun yazısında "Şikəsteyi-fars" şöbəsinin ilk musiqi cümlələri F.Əmirovun notasalmaları ilə və onun melo-intonasiya özəyi ilə çox yaxındır (3,78). Onu da qeyd edək ki, simfonik muğam haqqında çoxsaylı elmi ədəbiyyatda "Şikəsteyi-fars" şöbəsinin səslənməsi haqqında heç bir məlumat yoxdur. (2,206)

Simfonik muğamda adı yazılmayan şöbə/guşələrdən biri də "Nişibi-fəraz"dır. Bu guşənin köməyi ilə "Mayə"yə qayıtmaq mümkündür və bu baxımdan "keçid" əhəmiyyəti daşıyır. Həmin əlyazmanı da, bəstəkar, demək olar ki, eyni ilə (kiçik dəyişiklə) simfonik əsərin sonunda səsləndirmişdir. Muğam-dəstgah daxilində bəstəkarın nota saldığı "Kar kürd", "Sarəng", "Rəng" ("Qəşəngdir") və "Təsnif"in əlyazmaları isə simfonik muğama daxil edilməyib.

Əlyazmada simfonik muğamda səslənən yalnız bir musiqi nümunəsi yoxdur. Həmin yeganə musiqi parçası simfonik muğamda "Şur-şahnaz"dan sonra səslənən "Rəng"dir, hansı ki, "Ay qadası" xalq mahnısı üzərində yazılmışdır. Qeyd edək ki, muğamın indiki not yazıları ilə müqayisədə F.Əmirovun bu yazısı, bəlkə də, çox sadə görünür, tam və dolğun təsir bağışlamır. Lakin, yada salaq ki, F.Əmirov hər şöbənin əsas özülünü – məqam-intonasiya, melodik, metr-ritmik özülünü düzgün əks etdirmiş və məhz bu "sadə" görünən bu yazıları əsasında orkestrləşdirərək dahiyanə bir simfonik muğam yaratmağa nail olmuşdur. Beləliklə, F.Əmirovun dərin təfəkkürü və muğam dəstgahlarına uzaqgörən baxışları

nəticəsində "Şur" simfonik muğamı kimi bütün dünyanı heyran edən sırf milli, eyni zamanda, ümumbəşəri bir əsər meydana gəlmişdir.

Arxivdə saxlanılan daha bir mühüm tapıntı, yenə də F.Əmirovun yaradıcılığı ilə bağlıdır. Belə ki, AMEA Mİİ-Arzivində saxlanılan F.Əmirovun nota saldığı "Rast" muğam-dəstgahının musiqili-poetik əlyazması üzə çıxarılmışdır. (4,70) Əlyazma 1939-cu ilə aiddir və əlyazmanın əsas önəmli cəhətlərindən biri odur ki, yazı 17 yaşlı, yenicə Bakı şəhərinə gədəm qoymuş və Konservatoriyaya daxil olmuş istedadlı bəstəkar-tələbənin notasalmasıdır. Eyni zamanda, çox ola bilsin ki, gənc musiqiçinin muğam sahəsində ilk notasalma təcrübələri, ilk yazılarıdır. Əlyazmanın hər bir vərəqinin sağ küncündə rus dilində "F.Əmirovun not yazısı. Xanəndə Bilal Yəhyanın ifasından, 1939-cu il, dekabr" sözləri yazılmışdır (təəssüf edirik ki, xanəndə Bilal Yəhya haqqında bilgi toplamaq mümkün olmamışdır).

Muğamın poetik mətnini Azərbaycan şairlərinin qəzəlləri təşkil edir. Yazının üzərində musiqi nümunəsinin adı və sol küncündə "Ad libitum" sözü yazılmışdır. Not əlyazmasına aşağıdakı və şöbə və bölmələr daxildir:

1. Rast
2. Hüseyni
3. Vilayəti
4. Saqinamə
5. Şikəsteyi-fars
6. Xocəstə
7. Əraq

Bundan başqa həmin qovluqda daha beş muğam parçasının not əlyazmaları vardır: "Hacı Yuni", "Əbu-əta", "Bayatı-İsfahan", "Nişibi-fəraz", "Bayatı-türk".

Bu musiqi parçalarının hər biri birsəsli şəkildə yazılıb və çox lakonikdir. Geniş muğam improvizasiyalarını özündə daşımır. Bununla belə, hər bir musiqi nümunəsi aid olduğu şöbə və guşənin əsas melodik, metr-ritmik, məqam-intonasiya özəlliklərini qabarıq şəkildə üzə çıxarır və düzgün olaraq nota salınmışdır. Fikrimizcə, müəyyən mənada, sxematik xasiyyət daşıyır. "Şur" və "Rast" muğam-dəstgahlarının not yazısında bəstəkarın ümumi dəst-xətti özünü göstərir. "Şur" muğamının notasalmasında olduğu kimi, burada da bütün melodik mövzular metr və xanə qaydalarına uyğunlaşdırılıb və sanki "metrləşdirilmiş" şəkil almışdır.

